www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu   Gündəlik qəzet   9 aprel 2015-ci il   Cümə axşamı   № 74 (6102)   Qiymәti 40 qәpik

**Xəbər**

## Müsavat yürüş-mitinq təyin etdi

yazısı səh.5-də

**Gündəm**

### "1 dollar 1,5-2 manat səviyyəsinə kimi gəlib çata bilər"



**Millət vəkili Vahid Əhmədov:** "Yəqin Avropa Oyunlarından sonra da müəyyən ciddi islahatlar gedəcək"

yazısı səh. 8 və 9-da

### "Hafka" yenidən "döyüşə" qaytarılır

yazısı səh.4-də

*Hacı Zakir Quliyev:*

### "Xalq bilir ki, siyasətə qoşulmağın cəzası böyükdür"

yazısı səh.6-da

*Səidə Qocamanlı:*

### "Əfv olacaq"

yazısı səh.10-da

### Vəfa Quluzadədən Lex Valensaya plagiat ittihamı

yazısı səh.7-də

### Sərkisyandan işğal etirafı və xoflu müharibə açıqlaması

yazısı səh.13-də

### Gədəbəydə sui-qəsdə məruz qalan komandirin ölümü ilə bağlı yeni şok iddia

yazısı səh.11-də

### Lənkəran sakini bələdiyyə sədrinin əlindən özünü yandıracağını deyir

yazısı səh.15-də

### Xaricdəki valyuta ehtiyatlarımız manatı xilas edə bilərmi...

yazısı səh.12-də

### Rektorlardan və ekspertlərdən təhsil nazirinə cavab gecikmədi

yazısı səh.11-də

### Paytaxtda 218 min sürücü cərimələnib

yazısı səh.2-də

### Bakıda MTN-in polkovniki intihar etdi

yazısı səh.2-də

**Kremlin xarici siyasət "qırğısından" Azərbaycana xəbərdarlıq**

# BAKIDAKI ABŞ SƏFİRLİYİNƏ RUSİYADAN SENSASİON İTTİHAM

**Sergey Puşkov:** "Bakıdakı səfirliyin fəaliyyəti bir sıra suallar doğurur..."; Dumanın komitə sədrinin ABŞ-la Azərbaycan arasında hərbi əməkdaşlıqla bağlı konfrans keçirildiyi gün açıqlama verməsi təsadüfə oxşamır...




yazısı səh.5-də

# Abbas Abbasova ultimatum verildi və şərt qoyuldu

"Milyarderlər İttifaqı"nın ən iddialı fiqurun Rusiya və Azərbaycan prezidentlərinə edilən şikayətlərin ardınca son xəbərdarlıq edildi: "Ya "AzerRos"un birləşdirici qurultayına qatıl, ya da çıx get!"; RATİ üzvünün 4 gün vaxtı qalıb...

yazısı səh.9-da



*Fərəc Kərimli:*

### "Mənə qarşı ifadə verən şəxs indiyədək 180-ə yaxın insanın üzünə durub"

yazısı səh.3-də



*Pənah Hüseyn:*

### "Vəziyyət yaxşı deyil..."

yazısı səh.4-də



### Əli Həsənov Türkiyədə "Şərəf" medalı aldı

yazısı səh.4-də

**9 aprel 2015**



# Prezident Avropa İttifaqının komissarını qəbul etdi

**Prezident İlham Əliyev Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları üzrə komissarı Yohannes Hanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

APA-nın məlumatına görə, görüşdə Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlıq əlaqələrinin bütün istiqamətlərdə, o cümlədən iqtisadi, enerji, mədəni, turizm və digər sahələrdə inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanıb, insan haqları məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Söhbət əsnasında Azərbaycanda bu istiqamətdə uğurlu işlərin həyata keçirildiyi bildirilərək ölkəmizdə sərbəst toplaşma azadlığı, media, fikir, internet və digər azadlıqların təmin olunduğu qeyd edilib, bu sahədə əməkdaşlığın genişləndirilməsi üçün də yaxşı imkanların olduğu vurğulanıb.

# YAP-çı gəncdən Cavid Qurbanova şok müraciət

## "Öcalanın Moskvadakı nümayəndəsinin əmisi oğlu Anar Əsgərov QSC sədrinin köməkçisi kimi insanları cana yığıb"

**"Azərbaycan Dəmir Yolları" QSC-nin yeni sədri Cavid Qurbanovun köməkçisindən ona şikayət var. YAP-ın dəmir yolundakı təşkilatının Gənclər şöbəsinin sədri Fuad Rəsulov redaksiyamıza yolladığı məktubda yazır ki, dəyişikliklərdən sonra dəmiryolçular yeni bir bəla ilə üzləşiblər. "PKK lideri Abdulla Öcalanın Moskva nümayəndəliyinin səlahiyyətlisi Həjar Şamiloğlunun əmisi oğlu Anar Əsgərov QSC sədrinin köməkçisi kimi insanları cana yığıb. Hamıya qarşı kobud rəftarı, soyuq münasibəti, bir bəhanə ilə işinə ləkə vurmaq istəyi adamın canında var.**

Bizə məhəbbəti hardan olsun ki? Qohumları 30 ildir türkləri qanına-qəltan eləyir. Görəsən, Dədə Şəmşirin nəvəsi Cavid Qurbanov bilmirmi ki, bu adam dəmiryolçuları axırda ona qarşı qaldıracaq? Axı indi rəhbəri olduğu təşkilatda uzun zaman işləyib. İnsanları belə bir acıdil, heç kəsə hörmət qoymayan bir köməkçinin öhdəsinə qoymaq olmaz axı! Azərbaycan Respublikasının prezidenti, YAP sədri cənab İlham Əliyev hər çıxışında deyir ki, biz sıravi insanlara görə varıq. Qəbulları sadələşdirin, insanları dinləyin. Anar Əsgərov bunları eyninə almır. İndi heç kim onun sifətini belə görmək istəmir. Nə olsun, işi-peşəsi adam satmaq, sədrin yanında gözdən salmaq olan birisi bu gün at belindədir. Cavid Qurbanov bilmirmi ki, onu atasının saxtakarlığına görə 2011- ci ildə Prezident Administrasiyasından biabırcasına qovublar? Və əşyalarını belə götürməyə icazə verməyiblər. Anar Əsgərov hələ bilmir ki, onun vəzifəsi dəmiryolçularla sədr arasında körpü yaratmaqdır, körpü uçurmaq yox. Yetər insanlara belə zülm etmək. İndi də camaatı yarımştat iş rejiminə keçirməklə bezdirmək istəyirlər".

**F.Rəsulov yazır ki, belə dözülməz hallara etiraz edərək işdən çıxıb.**

❑ E.HÜSEYNOV

# İran ordusu hərəkətə keçdi

**İran Səudiyyə Ərəbistanı və müttəfiq dövlətlərin husilərə qarşı hərbi əməliyyatların keçirildiyi Yəməndə hərbi varlığını qorumaq üçün hərbi gəmilərini bölgəyə göndərib. ANS PRESS-in məlumatına görə, İran Hərbi Dəniz Qüvvələrinin komandiri, kontr-admiral Həbibullah Səyyari bildirib ki, Alborz dağıdıcı gəmisi və Buşehr köməkçi gəmisi Ədən körfəzinə göndərilib.**

Həbibullah Səyyari gəmilərin hansı məqsədlə göndərildiyini də açıqlayıb: "Hərbi gəmilər İranın gəmiçiliyinin təhlükəsizliyini təmin etmək və açıq dənizdə İranın maraqlarının qorunması missiyası üçün göndərilib".

Qeyd edək ki, Səudiyyə Ərəbistanı başda olmaqla, antihusi koalisiyası Yəməndə hava əməliyyatları həyata keçirir. Belə ki, qırıcılar Yəməndə husilərin mövqelərini bombardman edirlər.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Ərəb bankları Azərbaycana gətirilir

## Siyavuş Novruzov: "Yəqin ki, Səudiyyə Ərəbistanı banklarının Azərbaycanda filialları açılacaq"

**YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov prezident İlham Əliyevin Səudiyyə Ərəbistanına səfərinin nəticələrinə münasibət bildirib.**



YAP-çı deputat publika.az-a açıqlamasında deyib ki, İlham Əliyevin Səudiyyə Ərəbistanına səfəri uğurlu və müqəddəs ziyarət idi. Onun sözlərinə görə, keçirilən rəsmi və qeyri-rəsmi görüşlər böyük əhəmiyyət kəsb edir: "Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanında keçirdiyi həm rəsmi görüşlər, həm də müqəddəs yerlərin ziyarəti çox uğurlu olub. Hər bir müsəlmanın da ən böyük arzusudur ki, bu cür Ümrə ziyarəti həyata keçsin".

S.Novruzov Səudiyyə Ərəbistanının dünya siyasətində böyük rola malik olduğunu söyləyib: "Bilirsiniz ki, Səudiyyə Ərəbistanı dünya siyasətində öndə gedən ölkələrdən biridir. İstər iqtisadiyyatı, istər neft siyasəti, istərsə də Yaxın və Orta Şərqdə baş verən proseslərə təsir etmək baxımından rolu və əhəmiyyəti böyükdür. Ona görə də Azərbaycan Prezidentinin indiki məqamda Səudiyyə Ərəbistanına səfəri çox vacib və səmərəlidir".

**Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanı rəsmiləri ilə neftin ucuzlaşmasından danışıb-danışmaması məsələsinə də toxunan S.Novruzov deyib:** "Burada başqa məsələlər də var. Birincisi, Azərbaycanla Səudiyyə Ərəbistanı arasında hər zaman isti münasibətlər olub. Vaxtilə ulu öndər Heydər Əliyev də Səudiyyə Ərəbistanına səfər etmişdi və Ümrə ziyarətində olmuşdu. Həmin vaxtı cənab Prezident də ümummilli lideri müşayiət edirdi. Keçirilən görüşlərdən də göründüyü kimi, cənab prezident İlham Əliyevin Səudiyyə Ərəbistanına səfəri çox yüksək qarşılandı. Müəyyən məsələlər ətrafında da geniş fikir mübadiləsi aparıldı. Azərbaycan və Səudiyyə Ərəbistanı neft ixrac edən ölkələrdir. Odur ki, hər iki ölkə rəhbərinin görüşüb fikir mübadiləsi aparması və perspektivləri müzakirə etməsi təbiidir. Həmçinin cənab prezident Azərbaycan və Səudiyyə Ərəbistanı bankları arasında birgə fəaliyyəti ilə bağlı müzakirələr aparıb və razılıq əldə olunub. Müştərək banklar olacaq. Yəqin ki, Səudiyyə Ərəbistanı banklarının Azərbaycanda filialları açılacaq. Detallar mənə tam bəlli olmasa da, bu istiqamətdə danışıqlar getdiyini bilirəm. Ona görə də səfər çox uğurlu olub".

# Paytaxtda 218 min sürücü cərimələnib

**Paytaxtda yol polisi tərəfindən 218 min inzibati protokol tərtib edilib. Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin ictimai qurumlarla əlaqə bölməsinin rəisi Vaqif Əsədovun APA-ya verdiyi məlumata görə, bu il yanvarın 1-dən aprelin 5-nə qədər paytaxt ərazisində 233 yol qəzası baş verib.**

Nəticədə 67 nəfər ölüb, 286 nəfər xəsarət alıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə yol qəzalarında ölüm hallarının sayı 2 fakt azalsa da, qəza hadisələrinin sayı 12 fakt, xəsarət sayı isə 39 fakt artıb. Hesabat dövründə qəzaların 49%-i sürət həddinin aşılması, 51%-i piyadaların vurulması, 27%-i təhlükəli manevr qaydasını pozma səbəbindən baş verib.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33

# Rusiya və Yunanıstan liderləri 2015-16-cı illər üçün hərəkət planı imzaladı



**Rusiyaya qarşı sanksiya siyasətinə etiraz etdiyinə görə Avropa Birliyi ilə münasibətləri gərgin olan Yunanıstanın baş naziri Aleksis Cipras Moskvada səfərdədir. Musavat.com Rusiya qaynaqlarına istinadən xəbər verir ki, Rusiya prezidenti Vladimir Putinlə görüşdən sonra tərəflər 2015-16-cı illər üçün hərəkət planı imzalayıblar.**

Bundan əlavə, iki ölkə rəhbərləri 2-ci Dünya savaşında qələbənin 70-ci ildönümü ilə bağlı birgə bəyanat və görüşlərin yekununa dair 2016-cı ildə Yunanıstanda Rusiya, Rusiyada isə Yunanıstan günlərinin keçirilməsi barədə birgə memorandum imzalayıblar.

Razılaşmalardan danışan Putin Rusiyanın Yunanıstanda özəlləşdirmədə iştirak etməyə hazır olduğunu və bu zaman Rusiya üçün bərabər, başqalarından fərqli pis şərtlərin qoyulmayacağına ümid etdiyini söyləyib.

Görüşlərdən sonra Kreml başçısı rəsmi Afinanın Moskvaya maliyyə yardımı üçün müraciət etmədiyini də deyib.

❑ Musavat.com

# Kəndlilərin 100 min manatını mənimsəyən qadın axtarışa verildi

**Baş Prokurorluq Qazaxda baş verən dələduzluq hadisəsiilə bağlı məlumat yayıb. Qurumun mətbuat xidmətindən ANS PRESS-ə verilən məlumata görə, Qazax rayon sakini Xatirə Əsgərova və qeyrilərinin Pərvanə Səfərova tərəfindən aldadılaraq müxtəlif banklardan kreditlə götürdükləri həmin pulların dələduzluq yolu ilə ələ keçirilməsi faktı ilə bağlı Qazax Rayon Polis Şöbəsinin İstintaq Bölməsində Cinayət Məcəlləsinin 178.2.2-ci (dələduzluq) maddəsi ilə cinayət işi başlanıb.**

Aparılmış istintaqla P.Səfərovanın, X.Əsgərova tərəfindən ayrı-ayrı rayon sakinlərinin adlarına müxtəlif banklardan aldığı 103 min manat məbləğində vəsaiti dələduzluq yolu ilə ələ keçirməsində əsaslı şübhələr olduğundan Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilməsi barədə qərar qəbul edilmiş, lakin istintaqdan qaçıb gizləndiyi üçün barəsində axtarış elan olunub.

İstintaq eyni zamanda X.Əsgərovanın qeyd edilən kreditləri hansı banklardan, kimlərin adına və hansı məbləğlərdə götürdüyü xüsusatlar araşdırılır, nəticəsindən asılı olaraq onun əməlinə hüquqi qiymət veriləcək. Hazırda iş üzrə P.Səfərovanın tutularaq istintaqa cəlb edilməsi və vətəndaşlara dəymiş ziyanın müəyyənləşdirilərək ödətdirilməsi istiqamətində zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.



# Bakıda MTN-in polkovniki intihar etdi

**Aprelin 8-də Nərimanov rayonu, Həsənoğlu küçəsində yerləşən çoxmərtəbəli binadan özünü ataraq faciəli şəkildə dünyasını dəyişən şəxsin MTN-in zabiti olduğu məlum olub. Nərimanov Rayon Prokurorluğundan virtualaz.org saytına bildiriblər ki, ölən şəxs MTN-in polkovnik-leytenant rütbəli zabiti Azər Əliyevdir.**

Faktla bağlı araşdırma aparılır və xüsusi xidmət zabitinin ölümünün təfərrüatları aydınlaşdırılır. Faktla bağlı Cinayət Məcəlləsinin 125-ci (intihar həddinə çatdırma) maddəsi ilə cinayət işi açılıb və araşdırma aparılır.

# "Azərbaycanda İslam adı altında aktivləşmək istəyən radikal dini cərəyanlar var"

**Aprelin 8-də Bakı Ali Neft Məktəbində "Dini radikalizmə qarşı mübarizədə gənclərin rolu" mövzusunda konfrans keçirilib. APA-nın məlumatına görə, tədbirdə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı İslam adı altında Azərbaycanda aktivləşmək istəyən radikal dini cərəyanların olduğunu deyib. Komitə sədri həmin cərəyanlardan bəzilərinin adlarını açıqlayıb. Onun sözlərinə görə, bunlar nurçuluq, sələfilik, vəhhabilik, xəvaricilik və digər cərəyanlardır.**

Komitə sədri qeyd edib ki, ölkədə azərbaycanlılar üçün ən müqəddəs şey Vətən və onun bütövlüyüdür: "Bizim üçün müstəqilliyimiz, bütövlüyümüz ən böyük nemətdir. Ona görə də müstəqilliyimizi nə təhdid edirsə, biz onun qabağında dayanmalıyıq. Təsəvvür edin ki, biz ayrı-ayrı İslam adı altında İslama zidd olan bu radikal cərəyanlara rəvac verək, məktəblər açaq, məscidlərdə onlara imkan yaradaq. Onu da nəzərə alın ki, zərərli viruslar xeyirli ələmətlərdən daha çox yayılır. İndi bütün bunlara əsasən, biz bu cərəyanlara göz yumsaq onlar tez bir zamanda ölkədə siyasi hakimiyyətə, dövlətə ciddi təhdidə çevriləcək. Siyasi hakimiyyət demokratik yolla formalaşır. Siyasi müxalifət də olmalıdır. Amma siyasi müxalifət adı altında din pərdəsi varsa və bu, zərərli vərdiş kimi yayılırsa, buna qarşı durmaq lazımdır. Ona görə də başqa ölkələrdə baş verənləri göz önünə gətirərək vaxtında addım atırıq. Yəni o ölkələrdəki paralel yapı, yaxud əvvəl məscidlərdə, sonra siyasi səhnədə üstünlüyü ələ alan, yaxud silahlı birləşməyə çevrilən dini cərəyanları görərək özümüz də bunun qarşısını vaxtında almalıyıq".

YENİ MÜSAVAT
N 74 (6102) 9 aprel 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Doğma doqma

**Adamlar qəribə olurlar. Bəzən çox adi deyimləri, fərziyəni və ya gümanı özü üçün doqmaya, yeni ehkama çevirirlər. Elə götürək qara pişik məsələsini. Guya ki, qara pişik adamın yolunu kəsib keçərsə uğursuzluq baş verəcək. Adamlar buna ciddi əhəmiyyət verirlər. Məsələn, birisinin yolunun üstündə pişik gördükdə yolun bu üzündən o üzünə keçməsinə və ya "pişt" deyərək onu qorxudaraq yoldan qaçmağa məcbur etməsinə fikir verməmək olar.**

Çünki belə şeylər bəzilərinin etdiklərinin yanında elə də ciddi xurafat sayılmaz. Amma elələri var ki, qara pişiyi doqmaya çevirib və özünü onun təsiri altına salıb. Dəqiq yadımdadır, Bakıda yaşayan bir kəndçimiz maşınla yola çıxanda qabağından qara pişik keçmişdi deyə, maşını fırlayıb geri qayıtmışdı və səfəri ertəsi günə təxirə salmışdı. Ancaq maşını həyətə sürəndə ehtiyatsızlıq edib bir tərəfini möhkəmcə divara sürtmüşdü. Maşına ciddi ziyan dəydi. Bu halda yola çıxmaq olmazdı. Təxminən 9-10 gün qalıb maşını abıra saldı və sonra yola çıxdı. Gələndə də gecikdiyinə görə işdən qovdular. Adam inanırdı ki, həmin gün yola çıxsaydı daha böyük bədbəxtlik baş verəcəkdi. Bir dəfə də hansısa qəzetdə bu mövzuya aid karikatura görmüşdü. Birinci şəkildə yeni evlənənlər "ZAQS"dan çıxırlar və qabaqlarına qara pişik çıxır. İkinci şəkildə isə göstərirlər ki, həmin cütlük o andaca geri dönüb təzədən "ZAQS"a boşanma ərizəsi yazırlar. Çünki qara pişik belə hökm edibmiş. Bəlkə də həmin cütlük "qara pişik" məsələsini doqma kimi qəbul etməsəydi, dünyanın ən xoşbəxt ailəsini qurardılar.

Belə adamlardan biri də Firəngiz müəllimədir. Yəqin tanıdınız, Səlcuqun anasını deyirəm. Firəngiz xanım tarix müəllimidir və Qazax rayonunda məktəblərin birində dərs deyir. Özü də fanatik turançıdır. Hər dərsdə proqramdan kənara çıxıb türk ellərindən, onun geniş sərhədlərindən danışmasa dayana bilməz. Firəngiz xanım bildiklərini öz sevimli şagirdlərinə verməyi özünün vətənpərvərlik borcu sayır. Yeri gəlmişkən, oğlunun adını da məhz həmin hisslərin təsiri altında seçib. Firəngiz müəllimə təkcə məktəbdə belə deyil, o, həm də evdə türk elləri, turançılıq ideyalarının təbliği ilə məşğuldur. Məhz buna görə Səlcuq da türkçü-turançı oldu. Onun facebook statuslarına fikir versəniz onların əksəriyyətinin bu mövzuda olduğunu özünüz görərsiniz. Orasını da deyim ki. Firəngiz müəllimənin də doqma xəstəliyi var. Adi bir el deyimini özü üçün doqmaya çevirib. Bu da hansı deyim olsa yaxşıdır? Elini hürküt, axsağından yapış! Bəli, Firəngiz xanım qatı olaraq bu düşüncədədir ki, oğlan evlənəndə öz kəndindən-kəsəyindən kənara çıxmamalıdır. Onun üçün başqa variant mövcud deyil.

Elə Firəngiz müəllimənin başına gələnlər də onun turançılığı və doqması ucbatından baş verdi. Səlcuq sonuncu kursda oxuyarkən evə xəbər göndərdi ki, Yardımlıdan olan bir qızı sevir və onunla evlənməyə hazırlaşır. Xəbər Firəngiz müəlliməni yerindən oynatdı. "Elini hürküt, axsağından yapış" deyərək, qətiyyətlə bildirdi ki, bu izdivaca imkan verməyəcək. Qohum-qardaş nə qədər yalvar-yaxar etsələr də Firəngiz müəllimə "elini hürküt, axsağından yapış" deyib durmuşdu. Səlcuq anasının xasiyyətini yaxşı bilirdi, onu fikrindən döndərməyin mümkün olmayacağına əmin idi. Onun razılığı olmadan isə evlənmək istəmirdi. Qərara aldı ki, özü anasının yanına gəlsin və elə onun özünün ideyaları ilə yola gətirsin. Elə də etdi. Anasının o üzündən, bu üzündən öpüb onu arxayın etdi ki, "elini hürküt, axsağından yapış" doqması çox doğrudur, həm də çox doğmadır. Çünki anası belə düşünür. Dedi, Üay ana, mən də sənin dediyin kimi etmişəm, elimi hürküdüb axsağından yapışmışam. Sən özün uşaq vaxtdan məni "Azərbaycan doğma elim" ruhunda tərbiyə etmədinmi? Bütün Turan ərazilərini bizim doğma elimiz adlandırdın. Əgər mən gedib Nepaldan, Madaqaskardan, Argentinadan özümə qız seçsəydim, onda sənin "elini hürküt, axsağından yapış" prinsipini pozmuş olardım. Azərbaycan bizim doğma elimizdir, Yardımlı da onun bir hissəsi. Səlcuqun bir izahatına Firəngiz müəllimənin deməyə sözü qalmadı. O da oğlunun ö üzündən, bu üzündən öpərək ona xeyir-dua verdi.

❑ **Tofiq YAQUBLU**

# "Bu şəxs indiyə qədər 180-ə yaxın insanın üzünə durub"

## Fərəc Kərimlinin məhkəməsində şahid barədə şok faktlar ortaya çıxdı

**Aprelin 8-də Bakı Ağır Cinayətlər Məhkəməsində Müsavat başqanının müavini Fərəc Kərimlinin prosesi davam etdirildi. Məhkəmədə başqan müavininə dəstək olmaq üçün çoxlu sayda partiya fəalı iştirak edirdi.**

Şəkər Məmmədovanın sədrliyi ilə proses 14:00-da şahidlərin ifadələri ilə başladı. İlk olaraq, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin baş əməliyyatçısı Hətəm Əliyev ifadə verdi: "Baş verən hadisədən sonra Fərəc Kərimlini tanımışam. İdarəyə iyulun 22-də onun barədə məlumat daxil oldu. Ceyhun İmamverdiyev rəhbərliyə məruzə etdi. Rəhbərlik onun saxlanılması barədə qərar çıxardı. 23 iyulda əməliyyat qrupu yaratdıq. Hadisə yerində özümüzü ona təqdim etdik. Onu idarəyə dəvət etdik. Hal şahidləri və vəkilin iştirakı ilə üzərinə baxış keçirdik. Üzərindən telefon, pul və sellofana bükülmüş heroin aşkar olundu. Fərəc Kərimli narkotiki 5 gün əvvəl yaşadığı binanın qarşısında yerdən tapdığını bildirdi. Vəkilin iştirakı ilə protokol tərtib olundu. Heç bir etiraz bildirmədi. Özü protokola qol çəkdi. O, həbs olunarkən üzərindən çıxan heroinin satışı, yaxud istifadəçisi olmaqla bağlı heç bir söz deməmi".

Şahidin ifadəsinin bu yerində hakim "bəs siz nə əcəb narkotiki nə məqsədlə üzərində gəzdirməsi barədə təqsirləndirilən şəxsə sual verməMdiniz" sualını verdi. H.Əliyev verilən sualdan yayındı. Müdafiə tərəfi buna etiraz etdi.

Müdafiə tərəfinin vəkili Nemət Kərimlinin "necə olur ki, ifadən əvvəlki şahid Ceyhun İmamverdiyevin ifadələri ilə hərf-hərf üst-üstə düşür" sualına da şahid cavab verə bilmədi. Ümumiyyətlə, şahid əksər suallardan yayınırdı.



Fərəc Kərimli

**Təqsirləndirilən şəxs həbs olunduğu zaman digərlərindən fərqli olaraq, yalnız Hətəm Əliyevin onunla mülayim davrandığını söylədi:** "Heç bir sualım yoxdur. Yalnız Hətəm həbs olunduğum zaman özünü tərbiyəli aparırdı. Başqalarından bununla fərqlənirdi. Buna görə ona sağ ol deyirəm. Təbii ki, verdiyi ifadələr yalandır. Heç biri ilə razı deyiləm".

**Məhkəmə hal şahidi Dərgah Quliyevin ifadəsi ilə davam etdi:** "Nərimanov rayonu ərazisində yaşayıram. Ustayam. İlk dəfə Fərəc Kərimlini idarədə görmüşəm. İyulun 23-də günorta saatlarında bir polis mənə yaxınlaşaraq, yaxınlıqda yerləşən idarəyə dəvət etdi. Hal şahidi qismində bir işdə iştirakçı olmağımı istədi. İdarəyə gəldik. Otaqda 3-4 nəfər var idi. İştirakımızla bu oğlanın üzərinə baxış keçirildi. Bir telefon, 52 manat pul və bir də narkotik maddə çıxdı. Özü etiraf etdi ki, yerdən tapıb. Protokol tərtib olundu. Onunla heç bir ədavətim yox idi. Könüllü olaraq, özü protokola qol çəkdi. Heç bir təzyiq olmadı".

Şahidin ifadələri zalda gülüşlə qarşılanırdı. O, əksər suallara gülməli cavablar verirdi. Əməliyyatda iştirakçı olanların heç birinin adını çəkmir, yalnız "balacaboy, keçəl adam idi" cavablarını verirdi. Təqsirləndirilən şəxsin üzərinə baxışın gah birinci, gah da yuxarı mərtəbələrdə aparıldığını qeyd edirdi.

**Fərəc Kərimli şahidə suallar zamanı onunla bağlı şok faktlar açıqladı:** "Bu insan Kürdəxanıda ad çıxarıb. Orada olan 80% məhbusun üzünə durub. Yalan ifadələrlə insanların taleyini bədbəxt edir. Prezidentin müşavirinin qarət edilən evinə görə həbs edilən şəxslərin də üzünə durub. Təsadüfi deyil ki, idarədə bunun özünü döydülər. Ünvanına ağır söyüşlər işlətdilər. Atasının adını, soyadını deyə bilmirdi. Bu şəxs indiyə qədər 180-ə yaxın insanın üzünə durub. 1 saylı Bakı İstintaq Təcridxanasında adı əzbərdir".

Hakim Dərgah Quliyevə indiyə qədər başqa məhkəmə proseslərində hal şahidi kimi iştirak edib-etməməsi ilə bağlı sual verdi. O, 2-3 məhkəmədə hal şahidi kimi iştirak etdiyini etiraf etdi.

Bununla da şahidlərin ifadələri başa çatdı. Hakim təqsirləndirilən şəxsin ifadəsinin olacağını bildirdi. Fərəc Kərimli hazırda özünü yaxşı hiss etmədiyini, növbəti prosesdə ifadə vermək istədiyini söylədi. Hakim bu səbəbdən məhkəmənin 15 aprel saat 14:30-a təxirə salındığını elan etdi.

❑ **Cavanşir ABBASLI**

# Yol polisi yol istədiyi yerdə dönmə edə bilərmi...

## **Kamran Əliyev:** "Yol polisi, təcili tibbi yardım, yanğından mühafizə xidməti maşınlarının qanunun tələblərindən kənara çıxmaq səlahiyyəti var"

**Paytaxt yollarında açıq lyuklar və dərin çuxurlar tez-tez sürücülərin qarşısına çıxır. Bu mövzuda yazan "Bizim Yol" qəzeti qeyd edir ki, yol hərəkətinin təhlükəsizliyi təmin olunmur. Müəllifin qeydlərinə görə, Dövlət Yol Polisi yollardakı təhlükə yaradan məsələlərin aradan qaldırılması üçün təqdimat verməyi "unudur".**

Ancaq bu təhlükə mənbələrini aşkarlayıb təcili təhlükəsizlik tədbirləri görmək və müvafiq qurumlardan təhlükə mənbələrinin aradan qaldırılmasını tələb etmək məhz DYP-nin vəzifəsidir. Qəzet xatırladır ki, "Polis haqqında" Qanunun 3-cü maddəsinin 16-cı bəndində (polisin vəzifələri barədə) göstərilir ki, polis yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görməlidir.





Kamran Əliyev

Yol polisinin vəzifə və səlahiyyətləri barəsində ikinci bir sual isə redaksiyamıza oxucular tərəfindən ünvanlanıb. Sürücülər yazırlar ki, yol patrul xidməti əməkdaşları YPX maşınlarını istədiyi yerdə saxlayır, istədiyi yerdə manevr edir, qoşa, yaxud tək xətt olan yerdə dönmə əməliyyatı edir. Yəni yol polisi özü yol hərəkət qaydalarını pozmuş kimi görünür. Şəhərin müxtəlif ərazilərində bu hallara rast gəlmək olar. Ancaq əslində necə olmalıdır, qanunda nə göstərilib?

**Baş Dövlət Yol Polisi İdarəsinin şöbə rəisi Kamran Əliyev** "Yeni Müsavat"ın suallarını cavablandırarkən bildirdi ki, açıq lyuklarla bağlı sual Bakı Şəhər Dövlət Yol Polisinə ünvanlanmalıdır. Onun sözlərinə görə, açıq lyuklarla bağlı probleme sözügedən idarə baxır.

K.Əliyev patrul xidməti maşınları barəsində isə bildirdi ki, onların qanunun tələblərindən kənara çıxmaq səlahiyyəti var.

BDYPİ rəsmisi qanunda yol polisi, təcili tibbi yardım, yanğından mühafizə xidməti maşınlarının qaydalardan kənara çıxmaq səlahiyyətinin olduğunu xatırlatdı. Yəni yol polisi maşını sayrışan işıqları qoşmaqla qadağan olunmuş yerdən dönə bilər. K.Əliyev bildirdi ki, yol polisi, təcili yardım, yanğınsöndürən maşınları sayrışan siqnalla gedəndə sürücülər ona yol verməlidir: **"Yol hərəkət iştirakçıları yol vermədiyi halda inzibati məsuliyyət daşıyır".**

❑ **EMİL**

YENİ MÜSAVAT
N 74 (6102) 9 aprel 2015



# “Hafka” yenidən “döyüşə” qaytarılır

## Hafiz Məmmədovun sirli dönüşünün nazirlə əlaqəsi varmı?; Mübariz Mənsimovun ona olan borcunu da qaytardığı deyilir

**Xəbər verildiyi kimi, Hafiz Məmmədov yenidən “Bank of Azerbaijan”ın Müşahidə Şurasının sədri seçilib. Xatırladaq ki, “Bank of Azerbaijan”ın səhmdarlarının 2014-cü ilin mayın 22-də keçirilmiş növbədənkənar yığıncağında bankın Müşahidə Şurasının sədri vəzifəsi Mehman İsmayılova həvalə edilmişdi. H.Məmmədovun qayıdışından sonra M.İsmayılov yenidən “Bank Technique”in Audit Komitəsinin sədri vəzifəsinə qayıdıb. Xəbərlərə görə, bankın yeni rəhbərliyi bu müddətdə ciddi səhvlərə yol verib, kredit ödəmək qabiliyyəti olmayan müştərilərə milyonlarla manat məbləğində pul ayırıb. Bankın yeni rəhbərliyinin yarım illik idarəçiliyi bu müəssisədə maliyyə durumunu kritik həddə pisləşdirib. Bankın yenidən “Hafka”ya qaytarılmasını bu səbəblə izah edənlər də var.**

Biznes çevrələrində “Hafka” ləqəbi ilə tanınan iş adamının iflası ötən bir ildə medianın ən çox müzakirə etdiyi mövzulardan biri idi. Əvvəl H. Məmmədovun prezidenti olduğu “Bakı” klubunda maliyyə problemləri yaşandı, sonra o, əsas səhmdarı olduğu “Bank of Azerbaijan”ın İdarə Heyətinə rəhbərlikdən uzaqlaşdırıldı, bank bütün qapılarını bağladı. Nəqliyyat naziri Ziya Məmmədovla şərikli olduğu “Baglan Group”un nəzarətində olan şirkətlərin təhvil-təslimi istənildi və hətta məhkəmə icraçıları “Nikol” banka borca görə onun villasından çıxarmaq üçün hərəkətə keçdilər. Onun “Eurovision” ərəfəsi Bakıya gətirdiyi 500-dən çox “London taksi”sinin gömrük rüsumunu ödəmədiyi də yada düşdü, taksilər yolda saxlanıb cərimə meydançasına aparıldı. H.Məmmədovun niyə vurulması haqda indiyədək bir çox versiyalar səslənib. Ona yaradılan şəraitdən başı gicəllənib, “mənəm-mənəmlik” edib; “yuxarılarla” hesablaşmaları “təmiz” aparmayıb; tapşırılan layihələri reallaşdırmağı bacarmayıb və hakimiyyətə başağrısı yaradıb və sairə. Həqiqətən də “Hafka” xarici mətbuatın gündəminə ekstravaqant oliqarx kimi düşür, müsahibələrində özündən razılığı hiss olunurdu. Onun hakimiyyətə “pul atdığı”na gəlincə, əksinə, müəyyən fondlara yığılan pulu verməkdən imtina etdiyi üçün cəzalandırıldığı da deyilirdi.

Əgər “Hafka”ya “naməlum əl” kömək etməsəydi nəqliyyat naziri Ziya Məmmədovun oğlu vaxtilə H.Məmmədova 20 milyon avroya başa gəlmiş “Lans” futbol klubunu da cəmi 2,5 milyon avroya onun əlindən alacaqdı. Özü də bu, oliqarxın imzasının saxtalaşdırılması ilə baş verəcəkdi. Ancaq “Hafka” “Point to Point” offşor şirkətinin adı altında fransız klubunu ondan almağa çalışanlara qarşı duruş gətirə bildi. Üstəlik, ad çəkməsə də ona qarşı cəbhə alan Məmmədovları hədələdi də.

Məlumatlara görə, H.Məmmədov “Palmali” Şirkətlər Qrupunun prezidenti Mübariz Mənsimovdan da borcunu geri alıb. Daha doğrusu, “yuxarıdan” deyilib ki, borc ödənilsin. Xatırladaq ki,"Hafka" 2009-cü ildə M.Mənsimovun 24 milyona olan təyyarəsini almaq üçün 8 milyon avro ödəyib. H.Məmmədov qalan 16 milyonu Mübariz Mənsimovun İsveçrə bankındakı borcunu bağlamalı idi. Səkkiz milyon ödədikdən sonra “Hafka”nın da vəziyyəti pisləşib və o, ödədiyi pulu geri istəyib. Bir müddət sonra “Palmali” pulun tən yarısını ödəsə də, 4 milyonu qaytarmayıb. Bu məsələ ictimailəşəndən sonra M.Mənsimovun “Hafka”ya qalan 4 milyonu da ödədiyi deyilir. Beləliklə, barəsində gah həbs ediləcəyi, gah biznesinin xaricə köçürəcəyi barədə məlumatlar yayılan H.Məmmədov yenidən əvvəlki mövqelərini bərpa edir. Bu sirli dönüşün əsl səbəbləri yəqin ki, yaxın aylarda bilinəcək. Mümkündür ki, “Hafka”nın yenidən meydana qaytarılması nəqliyyat naziri Ziya Məmmədovun zəiflədilməsi planının bir hissəsidir...

❑ **Xəbər xidməti**

# Prezidentin köməkçisi “Şərəf” medalı aldı

## Əli Həsənov: “Avrasiya iqtisadiyyat zirvələrində etdiyimiz müraciətlər nəticə verir”

**“Avrasiya İqtisadiyyat Zirvələrində etdiyimiz müraciətlər öz nəticələrini verir”. APA-nın Türkiyə müxbirinin məlumatına görə, bunu Azərbaycan prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov deyib. İstanbulda keçirilən XVIII Avrasiya İqtisadiyyat Zirvəsində iştirak edən Ə. Həsənov bildirib ki, Avrasiya İqtisadiyyat Zirvəsində iştirak edən dövlətlərin əksəriyyəti beynəlxalq qurumlarda təmsil olunur:**



“Məsələn, İslam Əməkdaşlıq Təşkilatı. Avrasiya İqtisadiyyat Zirvəsində iştirak edən ölkələr arasında İƏT üzvləri var. Bizim onlarla apardığımız iş sayəsində İslam Əməkdaşlıq Təşkilatı Ermənistanı təcavüzkar dövlət kimi tanıyıb və özünün bütün Zirvə toplantılarında Ermənistanı qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxmağa, BMT Təhlükəsizlik Şurasının qərarlarına əməl etməyə çağırıb. Burada Avropanı təmsil edən ölkələr də var. Bilirsiniz ki, Avropa İttifaqı, Avropa Şurası, Avropa Parlamenti və digər təşkilatlar da Ermənistanı Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxmağa və BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməyə çağırıb. Bu Zirvəyə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Xəzər-Qara dəniz bölgəsini təmsil edən digər qurumların nümayəndələri də qatılır. Onlar da bu çağırışlara müsbət reaksiya verirlər. Yəni bizim bu çağırışlar nəticəsiz qalmır. Azərbaycan nümayəndə heyətinin qaldırdığı məsələlər və Ermənistana təzyiq göstərilməsi üçün dəfələrlə etdiyi müraciətlər hardasa öz bəhrələrini verir. Sadəcə, Ermənistanın bizim torpaqlarımızdan geri çəkilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi qalır. Düşünürük ki, tez-gec buna da nail olacağıq”.

Qeyd edək ki, XVIII Avrasiya İqtisadiyyat Zirvəsində Azərbaycan prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov və energetika naziri Natiq Əliyev “Şərəf” medalı ilə təltif edilib.

# “Vəziyyət yaxşı deyil”

## “Azadlıq-2015” mövcud durumu müzakirə etdi; Pənah Hüseyn: “Bizim ciddi koalisiyaya ehtiyacımız var”

**Aprelin 8-də “Azadlıq 2015" seçki blokunun təşkilatçılığı ilə ”Dəyişən dünya və Azərbaycan: mövcud durum və perspektivlər" adlı dəyirmi masa keçirilib. Musavat.com-un xəbərinə görə, dəyirmi masada bloka daxil olan səkkiz partiyanın- KXCP, “Azadlıq”, AzDP, AXP, ALDP, VİP, BAP və Aydınlar Partiyasının təmsilçiləri iştirak ediblər. Blokun üzvü olmayan digər partiyaların təmsilçiləri də tədbirə qatılıblar. O cümlədən Müsavat Partiyasının təmsilçisi Arzu Səmədbəyli də tədbirdə iştirak edib. Həmçinin tədbirə tanınmış ekspertlər, politoloqlar da qatılıb.**





**KXCP sədri Mirmahmud Mirəlioğli** tədbir barədə məlumat verərək bildirib ki, dünyada gedən proseslərin Azərbaycana ciddi təsirləri olacağı şübhəsizdir. Bu səbəbdən baş verəcək, gözlənilən dəyişiklikləri müzakirə etmək vacibdir.

**AzDP sədri Sülhəddin Əkbər** isə çıxışında bildirib ki, müzakirə olunan məsələ çox genişdir: “Azərbaycandakı vəziyyəti düzgün qiymətləndirmək üçün ölkənin hansı mühitdə olduğunu bilməliyik. Azərbaycan kiçilən dünyanın kiçik bir parçasıdır. Dünyadakı proseslər təsir edir. Başlıca prosesləri nəzərə alıb vəziyyəti qiymətləndirməliyik”. O, dünyada baş verən vacib, önəmli prosesləri sadalayaraq onların arasında yumşaq iqtisadi gücün önəminin artmasını xüsusi vurğulayıb. S.Əkbər bildirib ki, dünyadakı vacib proseslərin fonunda ölkədə demokratiya və insan azadlıqları sahəsində vəziyyət getdikcə pisləşir. Siyasi müxalifət faktiki olaraq oyundan kənarlaşdırılıb. S.Əkbər siyasi hakimiyyətə vəziyyətdən çıxmaq üçün təkliflər də verib. Siyasi məhbusların azadlığa buraxılması təkliflər arasındadır.

**VHP sədri Sabir Rüstəmxanlı isə qeyd edib ki, bu cür müzakirələr vacibdir:** “Azərbaycanın vəziyyəti çox ağırdır. Çünki Azərbaycanın sükanı öz əlində deyil”. Onun sözlərinə görə, dünya reallıqda üçüncü dünya müharibəsinə hazırlaşmaqdadır. O, həmçinin ölkənin təhlükəsizliyindən narahatlığını vurğulayıb.

**AXP sədri Pənah Hüseyn isə qeyd edib ki, sanki bütöv toplumların, dövlətlərin, xalqların, kütlələrin, pul vahidlərinin belə ağlını itirdiyi dövrdə yaşayırıq. Onun sözlərinə görə, bir müddət əvvəl baş tutan iqtidar-müxalifət dialoqundan sonra cəmiyyətin müəyyən kəsimində ümid qığılcımı yaransa da, sonuc narahatedicidir:** “Amma müəyyənliyin, yeni bir situasiyanın olmaması cəmiyyətə fayda vermir, əksinə, məyusluğu bir qədər də artırmağa xidmət etməyə başlayır”.

**Onun sözlərinə görə, tədbirə Milli Düşüncə Mərkəzinin rəhbəri İsa Qəmbəri, Müsavat başqanı Arif Hacılını, Milli Şuranın sədri Cəmil Həsənlini, AXCP sədri Əli Kərimlini, o cümlədən bir neçə deputatı dəvət etsə də, onlar iştirak etmirlər:** “Bu adamların bu gün sözlərinin eşidilməsinə ehtiyac var”.

**P.Hüseyn vəziyyətdən çıxış yolu kimi bir araya gəlməyi təklif edib:** “Götür-qoy edib, bir araya gəlib milli birlik formasında bu məsələlərdən çıxmaq olar. Bu da bu il gözlənilən seçkilərdir. Bizim ciddi koalisiyaya ehtiyacımız var. Hətta hakimiyyətlə də seçki məsələsində konsensusa getmək lazımdır”.

**Ekspert Ərəstun Oruclu isə qeyd edib ki, Azərbaycanda demokratik keçid qeyri-mümkündür:** “Bunun üçün nə siyasi, nə iqtisadi, nə hüquqi baza var, nə zəruri institutlar var, nə seçki prosesi var. Heç bir amil yoxdur. Getdikcə də bu amillərin sayı artır. Siyasi fəaliyyət, demokratik keçid üçün bütün şərtlər aradan qaldırılıb. Biz nəyə baxıb optimist oluruq?” Onun sözlərinə görə, son iqtidar-müxalifət dialoqu vəziyyəti düzəltməyə hesablanmamışdı: “Bu, imitasiya idi, aldatmadır. Eyni ilə vətəndaş cəmiyyəti ilə də belə dialoq təşkil olunmuşdu”.

Tədbirdə çıxış edən digər siyasilər də mövcud durumun yaxşı olmadığını vurğulayaraq hakimiyyətdən çıxış yolu tapmağa çağırıblar.

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

# Kremlin xarici siyasət “qırğısından” Azərbaycana xəbərdarlıq

**Azərbaycan-ABŞ münasibətlərində son aylar müşahidə edilən gərginlik nisbətən səngiyib. Rəsmi Bakı “atəşə-atəş” taktikasını seçərək Vaşinqtondan yalnız tənqidlər gəldikdə ona cavab verir. Amerikanın Bakıya gələn yeni səfiri Robert Sekuta isə hələ ki “kəşfiyyat” aparır və ölkəni gəzdikdən sonra mediaya geniş açıqlama verəcəyini vəd edib.**



# Bakıdakı ABŞ səfirliyinə Rusiyadan sensasion ittiham

## Sergey Puşkov: “Bakıdakı səfirliyin fəaliyyəti bir sıra suallar doğurur...”; Dumanın komitə sədrinin ABŞ-la Azərbaycan arasında hərbi əməkdaşlıqla bağlı konfrans keçirildiyi gün açıqlama verməsi təsadüfə oxşamır...

Aprelin 8-də Bakıda Azərbaycan-ABŞ hərbçilərinin birgə konfransı keçirilib. Müdafiə Nazirliyinin Təlim və Tədris Mərkəzində baş tutan konfransda iki ölkə arasında müdafiə sahəsində həyata keçirilən işlər və ikitərəfli əməkdaşlığın perspektivləri, “Azərbaycan Müdafiə Nazirliyi ilə ABŞ-ın Avropa Komandanlığı arasında hərbi əməkdaşlıq üzrə 2016-cı il uçun İş Planı”nın layihəsi müzakirə edilib.

Tədbirdə Azərbaycan Müdafiə Nazirliyinin müvafiq idarə və xidmətlərinin, eləcə də Silahlı Qüvvələrin üç qoşun növünün təmsilçiləri, ABŞ tərəfdən isə Avropa Komandanlığının, ABŞ-ın Azərbaycandakı Hərbi Attaşeliyinin və Hərbi Əməkdaşlıq Ofisinin nümayəndələri iştirak ediblər. Qeyd edək ki, yüksək səviyyəli bu tədbir ciddi önəm daşıyır və gələcək əməkdaşlıq üçün yaxşı perspektiv vəd edir.

Maraqlıdır ki, Bakıda keçirilən konfransla eyni gündə Moskvada Dövlət Dumasının beynəlxalq işlər üzrə Komitəsinin sədri Aleksey Puşkov da mətbuat konfransı keçirib və Azərbaycan-ABŞ münasibətlərindən danışaraq sensasion açıqlamalar verib.

Kremlin Qərblə münasibətlərində ən sərt mövqeyi ilə seçilən Puşkovun mətbuat konfransında gözlənilmədən Azərbaycan-ABŞ münasibətlərinə diqqət yetirməsi sırf təsadüf də ola bilər. Çünki Kremlin yaxın qonşularının Amerika ilə əlaqələrinə qısqanclıqla yanaşdığı yeni fakt deyil. Amma bu dəfə Kremlin adamının konkret ittihamları da var ki, bunun indiki vaxtda səslənməsi təsadüf olmaya da bilər...

**Puşkov deyib ki, Azərbaycan Rusiya ilə münasibətlərini ABŞ-a qurban verməyəcək:** “Bizim ümumi sərhədlərimiz var, tarixi yaxınlığımız var, rus və Azərbaycan xalqları arasında çox yaxşı münasibətlər mövcuddur. Azərbaycan hökuməti bunu bilir və ondan çıxış edir ki, Rusiya onunla qonşu ölkələrdə stabillikdə və balanslaşdırılmış siyasi prosesdə maraqlıdır, başqaları kimi dövlət çevrilişləri həyata keçirmir”(virtualaz.org). **Puşkov “başqaları kimi dövlət çevrilişləri həyata keçirmir” deməklə də aydındır ki, ABŞ-ı nəzərdə tutur. Komitə sədri sonrakı fikirlərində ittihamın konkret hədəfini açıqlamaqdan çəkinməyib.** “Mənə elə gəlir ki, Amerikanın Bakıdakı səfirliyinin fəaliyyəti bir sıra suallar doğurur, o cümlədən onların fəaliyyətinin siyasi aspektləri. Axı Amerikanın xarici siyasətində ”narıncı inqilab" tematikasını heç kim ləğv etməyib" deyə, Puşkov bildirib. Puşkov əlavə edib ki, “ABŞ-ın bir sıra ölkələrdə ”narıncı inqilabları" inadla dəstəkləməsi Azərbaycan rəhbərliyi tərəfindən ABŞ-la münasibətlərdə nəzərə alınır". O, “ABŞ-la münasibətlər dövlət üçün çox təhlükəli olar” deyə, dolayısı ilə rəsmi Bakıya xəbərdarlıq da edib.

**Dövlət Dumasının komitə sədri onu da deyib ki, Azərbaycanın Qərbin hansısa sərfəli iqtisadi layihəsində iştirakının avtomatik olaraq Rusiyaya qarşı olduğunu düşünmür:** “Çünki Azərbaycanın özü üçün sərfəli olan hansısa imkanlarda istifadə etməməsi təəccüblü olardı” deyə, sözlərini bitirib.

Puşkov yuxarıda da qeyd etdiyimiz kimi, Kremlin xarici siyasətinin aparıcı fiqurlarından biridir və onun açıqlamasına xüsusi diqqət ayırmaq lazım gəlir.

**Bu ilin fevralında Bakıya səfər edən ABŞ dövlət katibinin Avropa və Avrasiya üzrə köməkçisi Viktoriya Nuland “Azərbaycanda ”rəngli inqilab"ların hazırlanması ilə bağlı Vaşinqtona ünvanlanan ittihamlara cavab vermişdi. Nuland aşıq demişdi:** “”Rəngli inqilablar" o zaman baş verir ki, hökumətlə vətəndaş cəmiyyəti arasında soyuqluq, gərginlik və bağlı qapılar olsun. Yəni onların bir-birilərinin ehtiyaclarını həll etmək üçün zəruri və lazımi şərait olmasın". Bununla da o, Amerika adından Azərbaycanda bu cür dəyişikliyə səbəb olacaq vəziyyəti görmədiyini ifadə etmişdi.

Rusiyanın narahatlığı əslində başa düşüləndir. Kreml son aylar Gürcüstanda heç şübhəsiz, Qərbin dəstəyi ilə eks-prezident Mixail Saakaşvilinin lideri olduğu Milli Birlik Partiyasının intensivləşən mitinqlərindən narahatdır. Və baş verənləri Amerikanın Cənubi Qafqazda itirilmiş mövqelərinin bərpası cəhdi kimi qiymətləndirir. Rusiya-ABŞ qarşıdurmasının yaxın illərdə yumşalmayacağını Kremldə də, Vaşinqtonda da, elə Bakıda da yaxşı bilirlər. Kreml Azərbaycanın balanslı siyasətindən razı olsa da, komitə sədrinin açıqlamasından da görünür ki, ABŞ-la münasibətlərin normallaşmasını qətiyyən arzu etmir. Bu səbəbdən də Amerikanın Bakıdakı səfirliyi barədə “narıncı inqilab” hazırlıqları barədə şübhələri ictimailəşdirir. Görünən budur ki, Kreml Azərbaycanın Amerika ilə münasibətlərinin gərginliyini arzu edir və bu tendensiya yaxın illərdə də dəyişməyəcək.

Dövlət Dumasının komitə sədri Puşkovun yuxarıdakı açıqlaması ilə bağlı ABŞ-ın Bakıdakı səfirliyi münasibət bildirməyə tələsmir. “Yeni Müsavat”ın sorğusunu qəbul edən səfirlikdən bildiriblər ki, bu iddialara cavab olacaq, lakin bu cavab operativ xarakter daşımayacaq...

❑ **Xəbər xidməti**

# Müsavat yürüş-mitinq təyin etdi

**Aprelin 8-də Müsavat Partiyasının başqanı Arif Hacılının yanında başqan müavinlərinin toplantısı olub. Toplantıda Müsavatın etiraz aksiyası keçirməsi ilə bağlı müzakirə aparılıb.**

Qərara gəlinib ki, 19 aprel saat 16.00-da “20 Yanvar” metro stansiyasının yanından başlayaraq Həsən bəy Zərdabi küçəsindən keçməklə, “Məhsul” stadionunda qətnamənin oxunması ilə yekunlaşan yürüş-mitinq üçün Bakı Şəhər İcra Hakimiyyətinə rəsmi məktub ünvanlansın, eyni zamanda birgə aksiyaların keçirilməsi ilə bağlı siyasi-ictimai təşkilatlarla məsləhətləşmələr aparılsın.

Xəbəri “Yeni Müsavat”a Müsavat Partiyası başqanının müavini Elman Fəttah verib.

E.Fəttah onu da bildirib ki, BŞİH-ə məktub yaxın bir-iki gün ərzində göndəriləcək.

Xatırladaq ki, Müsavat Məclisi 4 aprel toplantısında 19 aprelə aksiya təyin olunmasını təklif edib. Məclis məsələ barədə Divanda müzakirələr aparılması və bundan sonra son qərarın verilməsini məqsədəuyğun sayıb. 6 apreldə isə Divanın iclasında məsələ müzakirə edilib və məsələnin Sədrlər Şurasında da müzakirəyə çıxarılması qərarlaşdırılıb. Aprelin 7-də isə Sədrlər Şurası mitinq keçirilməsinə razılıq verib və yekun qərarın aprelin 8-də müavinlik tərəfindən verilməsi qərarlaşdırılıb.

❑ **E.SEYİDAĞA**

MÜSAVAT

# Türkiyə Rusiya ilə yaxınlaşa bilərmi?



**Azər RƏŞİDOĞLU**

**Ankaranın bölgədə artan nüfuzu belə bir sual yaradır - Türkiyə Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində əsas fiqura çevrilə bilərmi? Nəzərə alsaq ki, Türkiyə, ABŞ, Fransa və Rusiyanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ortaq öhdəlikləri var, adıçəkilən ölkələr Minsk Qrupunun üzvləridir, hətta Rusiya Vaşinqton, Paris və Moskva həmsədridir, bu suala müsbət cavab vermək mümkündür.**

Digər tərəfdən, Rusiyadan fərqli olaraq, Türkiyə münaqişənin həllində maraqlıdır. Ən azı ona görə ki, Qarabağda hərbi əməliyyatlar bərpa edilərsə, prosesə bu və ya digər baxımdan Ankara da qatılmış olacaq. Bu isə Ankara-Moskva qarşıdurması ilə başa çata bilər. Türkiyə isə bunda maraqlı deyil. Son 100 ilə baxsaq, Türkiyə Rusiya ilə qarşıdurmadan çəkinib. Ona görə Türkiyə münaqişənin həllində dinc vasitələrin işə salınmasına çalışır.

Eyni zamanda Türkiyə qlobal layihələrə cəlb olunub və enerjidaşıyıcılarına malik olmadığından tranzit ölkə kimi aparıcı rol alır. Bu baxımdan Cənubi Qafqazda hərbi münaqişənin başlaması Ankaranın maraqlarını zərbə altına qoya bilər.

Beləliklə, Türkiyə münaqişənin həllində maraqlıdır. Rusiya isə postsovet məkanındakı dövlətlərin Avropaya inteqrasiyasını dayandırmaq üçün bütün vasitələrdən istifadə edir və həll olunmamış münaqişələr birbaşa Kremlin maraqlarına cavab verir.

Sözsüz ki, Türkiyə-Ermənistan danışıqlarında bu və ya digər dərəcədə Qarabağ məsələsi müzakirə olunur.

Çünki Azərbaycan müstəqillik qazandıqdan sonra Türkiyə həmişə bəyan edib ki, Ankaranın İrəvanla münasibətlərinin qaydaya salmasının ilkin şərtlərindən biri Dağlıq Qarabağ münaqişəsinin həllidir.

Dağlıq Qarabağ münaqişəsi həll edilməmiş Türkiyə-Ermənistan münasibətləri normallaşarsa, bu, əlbəttə ki, Bakı-Ankara münasibətlərinə mənfi təsir göstərə bilər.

Ona görə də Türkiyə bu və ya digər dərəcədə Dağlıq Qarabağ münaqişəsinin həllində hər hansı irəliləyişin baş verməsində maraqlıdır ki, Ankara-İrəvan münasibətlərinin yaxşılaşması Bakı-Ankara əlaqələrinə mənfi təsir göstərməsin. Lakin problem yalnız Qarabağla bağlı deyil.

Türkiyənin özünün Ermənistanla münasibətlərdə həllini tapmamış ciddi problemləri var. Bu sıraya “soyqırım” və Türkiyəyə qarşı ermənilərin ərazi iddiaları daxildir.

Ankara öz maraqları çərçivəsində həmin problemləri həll edə bilsəydi, pozitiv bir məqam ola və Qarabağ probleminin də həllinə pozitiv təsir göstərə bilərdi.

Türkiyənin Ermənistanla münasibətləri normallaşdırması yönündəki addımlarla müqayisədə Azərbaycan üçün daha təhlükəlisi Ankara və Moskva arasındakı yaxınlaşmadır. Belə bir yaxınlaşma baş verərsə, Azərbaycan üçün çox ciddi problemlər yarana bilər. Rusiya Azərbaycanın qonşusu olan Gürcüstanın ərazisini işğal edib. Kreml Ermənistana milyonlarla dollar dəyərində əvəzsiz silah və sursat verib.

Nəzərə almaq lazımdır ki, Türkiyənin indiki hakimiyyəti öncəki xarici siyasət vektorunda ciddi dəyişikliklər edir.

Ankara sanki Qərbdən uzaqlaşır. Türkiyənin Avropa Birliyinə qəbulu prosesi uzadılır, üzvlük perspektivi real sayılmır. Amma gerçəklik odur ki, bu gün Türkiyədə Rusiyaya daha çox yaxınlaşmaq meyli var və bu, ciddi məsələdir. Qərbdən uzaqlaşan Türkiyə həm də islam, xüsusən ərəb dünyasına yaxınlaşır. İslam dünyasının liderinə çevrilmək cəhdlərində bulunan Ankara Azərbaycanla münasibətlərinə yetərincə qiymət vermir.

Keçən əsrin əvvəllərində Türkiyə müstəqilliyini qoruyub-saxlamaq problemi ilə üz-üzə qalmışdı və həmin dövrdə Rusiyanın Cənubi Qafqaza qayıtmasına mane ola bilmədi. Bu gün də Türkiyə və AKP iqtidarı xarici siyasətdəki dəyişiklikləri Rusiyanın Cənubi Qafqaza qayıtmasında yardımçı ola bilər. Belə bir perspektiv isə Bakının maraqları ilə ziddiyyət təşkil edir...

Yeni MÜSAVAT
N 74 (6102) 9 aprel 2015

**Bir zamanlar Bakı kəndləri Azərbaycanın sosial-siyasi durumunun barometri idi. Paytaxtda baş verən bütün proseslər öncə "2 addımlıqda" olan Bakı kəndlərinə təsir göstərirdi. Ölkə əhəmiyyətli bir çox məsələlər məhz Bakı kəndlərində keçirilən toplantılarda müzakirə edilir, qərarlar verilirdi.**



# "Xalq bilir ki, siyasətə qoşulmağın cəzası böyükdür"

## Hacı Zakir Quliyev: "Mənə deyirlər ki, o vaxt Ayaz Mütəllibova qarşı çıxmasaydınız, bu gün hər şey fərqli olardı"

*Son dönəmlərdə isə bu kəndlər siyasi-ictimai proseslərdən uzaq düşüb. Azərbaycan xalq hərəkatının fəallarından, uzun müddət Azadlıq meydanının, liderlərin, Xalq Cəbhəsinin baş qərargahının mühafizəsinə rəhbərlik edən Maştağa kəndinin ağsaqqalı Hacı Zakir Quliyevlə söhbətimizə də elə bu məqamdan başladıq. Hacı deyir ki, səbəb dolanışıq problemləridir.*

- İndi elə bütün ölkə kimi, Bakı kəndlərinin də əsas problemi gün-güzərandır. İşsizlikdir, məşğuliyyət yoxdur. Əvvəlki kimi insanların torpaqla əlləşib qazanmaq imkanları da tükənib. Səbəblər də hamıya bəllidir... Bəlkə 40 ildir ki, Bakı kəndlərindən ailələr daha çox Rusiyaya köçürdü. İndi Avropaya üz tutanlarımız da var. Hətta yaşlı ata-anası olanlar belə maddi çətinliyə görə ölkədən getməyə məcbur olub. Bir tanış ailə var, bir neçə ay qabaq Almaniyaya köçüb. Hökumət onlara ev verib, maaş ayırıb, dil öyrədir, uşaqlar məktəbə gedir. Vaxt var idi, ən pis adamlara "nemes" deyirdik, bu gün "nemes"i tərifləyirik. Neyçün? Çünki həmin o "nemes" insanlar üçün yaxşı yaşamaq şəraiti yaradır. Dövlət gərək öz vətəndaşı ilə belə rəftar etsin ki, insanlar ona bağlı olsun, dövlətin, hökumətin çətinliyi olanda vətəndaş da bir işin qulpundan yapışmaq istəsin. İndi insanları dindirəndə deyirlər ki, bu ölkənin səfasını kim görürsə, cəfasını da o çəksin. Qabaqlar bizdə orta təbəqə var idi. İndi orta təbəqə tamamilə aradan qalxıb. Əhalinin böyük hissəsi çox kasıb, çox az hissəsi isə həddən artıq varlı yaşayır. Pul, imkan, səlahiyyət də o kiçik hissənin əlindədir. Ona görə də nə siyasət, nə siyasi proseslər insanların yadına düşmür.

***- Maştağa Bakının ən varlı kəndlərindən olub, əhali Rusiya bazarına tərəvəz, gül çıxarmaqla yaxşı pul qazana bilib. İndi Rusiyada da iqtisadi vəziyyət çətinləşib. "O yan"dakılarımız geri qayıdırmı, gələnlər daha çox əllərindəki pulu nəyə yatırır? Ümumiyyətlə, ölkədə iş qurmaq imkanı varmı?***

- Maştağada uzun illər təbii qaz olmadığına görə istixanaların çoxu sıradan çıxdı. Sonra qanunlar, qaydalar dəyişdi, rəsmi, qeyri-rəsmi qadağalara görə xaricə məhsul çıxarmaq çətinləşdi. Bu imkanlar da əldən çıxdı. Sonra bizimkilər bir az tikinti işinə girişdilər. Böhrana görə bu sahədə də süstlükdür. Bütün hallarda pul qazanmaq çətinləşib. Kim ki neçə ilə qabaqdan Rusiyaya, ya da Ukraynaya gedib, iş-güc sahibi ola bilib, yenə ordadır. Rusiyada vəziyyət nə qədər çətinləşsə də Azərbaycan kimi ümidsizlik olmur, insanlar vəziyyətdən çıxa bilir. Ona görə də çoxları dözüb gözləməyə üstünlük verir, çünki qayıtsa, əlindəki 5-10 manatdan da olacaq. Burda iş qurmağa şərait yoxdur. Biz eşidirik ki, Avropa Rusiyanı iqtisadi məsələlər görə çox sıxır. Ancaq orda olanlarımız deyir ki, işləmək imkanları, çörək qazanmaq yolları var.

***- Hacı, siz Azərbaycanın müstəqilliyini bərpa edən xalq hərəkatının fəallarından olmusuz, mitinqlərdə iştirak etmisiz. İndi də siyasi, sosial tələblərlə mitinqlər keçirilir. İndi də mitinqlərə gedirsizmi?***

- Yox. Mitinqlərdə iştirak etmirəm. Maştağadan da ola bilər tək-tək insanlar mitinqə gedir, ancaq təşkilatlanmış şəkildə belə bir məsələ yoxdur. İnsanlar narazıdır, buna söz yox. Hətta mən deyərdim narazılıq çox yüksəkdir. Camaat necə narazı olmasın ki, hökumət bir gün deyir, manat möhkəmdir, heç bir proses ona təsir etməyəcək, 5 gün sonra pul 34 faiz qiymətdən düşür. Bu, vətəndaşa qarşı saymamazlıqdır. Heç bir rəsmi şəxs çıxıb bunun izahını vermir. İndi də söhbət gedir ki, hələ bir də ucuzlaşma ola bilər. Əgər ucuzlaşma inkar olunanda 34 faiz qiymətsizləşmə oldusa, demək, indi manat daha çox ucuzlaşa bilər. İnsanları düşündürən bayaq dediyim kimi, daha çox dolanışıq problemləridir. Çoxları siyasi məsələlərə qarışmağa maraqlı deyil. Bilirlər ki, cəzası böyükdür. Hamı özünü güclə dolandırır, kimsə həbsə getsə, onun ailəsinə-övladına kim baxacaq? Mənə bilirsizmi nə qədər iradlar olur? Deyirlər ki, hacı, əgər siz Ayaz Mütəllibova qarşı çıxmasaydız, hər şey başqa cür olardı.

***- Üstündən 25 il keçib. Hələ də "Ayaz Mütəllibov söhbəti" davam edir?***

- Bəli. Mənə deyirlər, sizin bərpa elədiyiniz bu müstəqillik bizə nə verib? Olanımızı da əlimizdən aparıb, niyə Ayaz Mütəllibovun qarşısında dayandız? Əgər bu müstəqillik yaxşıdırsa, onda milli sərvət hamının arasında bərabər bölüşdürülməli idi. Niyə biri sərhədsiz imkan sahibidir, digəri zillətlə yaşayır? Mən onların cavabını verirəm, deyirəm, başa salıram ki, dövlətin olması hər şeydən üstündür, biz Ayaz Mütəllibovu əsrlərlə Azərbaycanı əzən Rusiya imperiyasına yaxınlıq elədiyinə görə qəbul eləyə bilməzdik. Ancaq güzəran problemləri, məmur özbaşınalığı camaatı o qədər sıxıb ki, düzgün fikirləşmək imkanları da tükənib. İnsanlar dövlətin tayfa prinsipi ilə idarə olunmasını istəmir. Müstəqilliyin bərpasında da, Qarabağda gedən döyüşlərdə də Bakı kəndləri sübut elədi ki, biz tayfa yox, millətik. Heç bir tayfa hissi ilə yaşamırıq. Allahdan arzu eləyirəm ki, başqa bölgələrdən olanlar da millət olsunlar, tayfaçılıq ənənələrindən uzaqlaşsınlar, milləti bölməsinlər, hamını özününkü bilsinlər. Bakı kəndlərindən vəzifəyə dəvət olunan nə qədər insan vardı. İçimən qarışıq, heç birimiz vəzifə dalınca qaçmadıq. Şəxsən mənə dəfələrlə vəzifə təklif edilib, getməmişəm. Heç biz milli-azadlıq hərəkatına nə vəzifə, nə də hansısa imtiyaz fikri ilə qoşulmamışdıq - biz milli dövlət qurmaq istəyirdik. Düşünürdük ki, Azərbaycanın öz əhalisini yaxşı yaşatmaq üçün hər cür imkanı olduğu halda niyə Rusiyanın əsarətində yaşamalıdır? Bir dəfə İsa Qəmbər Maştağada böyük din alimi Əhmədağa Əhmədovgilə gəlmişdi. Söhbətdə İsa bəy Əhmədağa müəllimdən soruşdu ki, dövlət necə idarə olunmalıdır? Əhmədağa müəllim cavab verdi ki, Allah yer üzünü necə idarə edirsə, dövlət də elə idarə olunmalıdır. Günəşi, istisi də olmalıdır, yağışı, daşqını, qurbanı da. Bu, çox böyük hikmətdir. Nə isə... işlər belə gətirdi.

***- Milli Şuraya münasibətiniz necədir?***

- Mən ilk təsis toplantısına gəlmişdim. Hələ məclis başlamamışdan soruşdum ki, bu işin başında kim dayanacaq? Dedilər, Rüstəm İbrahimbəyov. Açığı təəccüb elədim. Çünki rejissoru həmişə Əliyevlərin yanında görmüşdüm. Dedim, axı necə olur, ailəyə yaxın bir adam indi müxalifətə rəhbərlik etmək istəyinə düşüb? Dedilər ki, 2-3 il qabaq araları dəyib. Elə ondan gözüm bu işdən su içmədi. Fikirləşdim ki, 20 il millətin günü-güzəranı, dolanışığı ilə bağlı bir dəfə ağzını açıb söz danışmayan Rüstəm İbrahimbəyov bu xalqa necə liderlik eləyəcək? Sonra baş verənlər mənim haqlı olduğumu göstərdi. Bizim camaatın belə ümidsiz vəziyyətə düşməsinə səbəb həm də güclü liderlərin olmamasıdır. Rəhmətlik Əbülfəz Elçibəydən sonra heç bir siyasi lider bütün xalqı birləşdirə bilmədi. O, hamıya eyni məsafədə dayana bilirdi, hamını özününkü bilirdi. Bu, çox vacib cəhətdir, belə olmasaydı, onun ətrafı boş olardı. Ancaq həyatının son gününə qədər ölkədəki siyasi proseslər bu insanın ətrafında baş verdi. Sonra belə bir lider yetişmədi.

**"Fikirləşdim ki, 20 il millətin günü-güzəranı, dolanışığı ilə bağlı bir dəfə ağzını açıb söz danışmayan Rüstəm İbrahimbəyov bu xalqa necə liderlik eləyəcək?"**

***- Hakimiyyət komandası Bakı kəndlərinin idarəçilikdən kənarda qalması haqqında danışanda çox vaxt deyir ki, kadrları yoxdur. Ölkə əhəmiyyətli çox savadlı, bacarıqlı kadrlar yetişdirən Bakı kəndlərində niyə belə problem yaranıb, sizcə?***

- Ölkənin ən ciddi problemi olan rüşvət məsələsinin ən çox ziyan vurduğu sahə təhsildir. Məktəblərdə dərsin keyfiyyəti aşağıdır, ayrıca müəllim tutmağa ailələrin imkanı yoxdur. Problemlər bir-birinə zəncir kimi bağlıdır. Buna görə də kadrlar azdır. Təxminən 10 il qabaq kadrların qiymətləndirilməsi, seçilməsi zamanı daha çox ayrı-seçkilik olurdu. İndi bu məsələdə bir az yumşalma var.



**"Vaxt var idi, ən pis adamlara "nemes" deyirdik, bu gün "nemes"i tərifləyirik. Çünki həmin o "nemes" insanlar üçün yaxşı yaşamaq şəraiti yaradır"**

***- Məzhəb davalarının Azərbaycana keçməsi ilə bağlı ciddi narahatlıqlar var. Bakı kəndlərində dini durum necədir? Qatı şiə əhalinin içərisində vəhhabi ocaqlarının yaradılmasından narahatlıq varmı?***

- Vəhhabi problemi əqidə, inanc məsələsi deyil. Bu məsələ də iqtisadi çətinliklərə bağlıdır. Bu gün Azərbaycandan gedib İŞİD-ə qoşulanların 90 faizindən çoxu acından bu yolu seçib. Adamlarımız pulun xətrinə ölümə gedir. Kim istəyər ki, evini-eşiyini qoyub qıraq bir ölkədə ölümə getsin? İnsanlar bunu ailələrini dolandıra bilmədikləri üçün edirlər. Kənd camaatı bilir, mən neçə vəhhabiyə saqqalını qırxdırmışam. Məcburən yox. Onlarla söhbət eləmişəm, başa salmışam ki, bu düz yol deyil, bu siyasəti kimlərin nə məqsədlə ortaya atdığını demişəm, bundan sonra özləri saqqallarını da qırxıblar, onları bu yola çəkənlərlə də əlaqəni kəsiblər. Cavanları bu tələbdən qurtarmaq lazımdı.

***- Payızda parlament seçkisi olacaq. Seçki ili olduğunu hiss eləyirsinizmi?***

- Seçki necə olar bilər ki, illərdir insanlar seçki yox, təyinat olduğunu görür? Şəxsən mən ilk bələdiyyə seçkisində namizədliyimi vermişdim, səs yığmışdım, səsim tanınmışdı, məni təbrik eləmişdilər. Sonradan seçkinin nəticələri ləğv olundu. İşi məhkəməyə çıxardıq. Seçildiyimə görə təbrik edən, əlimi sıxan dairə, məntəqə komissiyalarının da sədrləri orda idi. Belə məhkəmələr də 3-5 dəqiqə çəkir. Hakimdən söz alıb həmin sədrlərdən soruşdum ki, mən səs toplamışdım, siz məni təbrik eləmişdiz, əlimi sıxmışdız? Hamısı başını aşağı salıb dedilər ki, bəli, belə olub. Amma axırda hakim yenə sifariş edilən qərarı çıxardı və həmin yerə hakimiyyətin namizədi təyin olundu. Məhkəmə bitəndən sonra hakimə ağır söz dedim. İnanın ki, uşaq kimi ağladı, dedi, mən bu qərarı çıxarmasam, işimdən olacam, ailəm-uşağım var, məni başa düş. Gör neçə ildir ölkədə seçki bu üsulla davam edir. İnsanların seçkiyə inamı ola bilərmi? Bu hökuməti ən çox gözdən salan məsələlərdən biri seçki saxtakarlığıdır. Tərəfdarları az deyil ki, yaxşı işləsinlər, millətin qeydinə qalsınlar, insanlar da onlara səs versin. Niyə axı, ortada gəzən insanlar desinlər ki, deputat yeri 500 minədir, icra hakimi yeri 3 milyonadır? Bu söhbətlər hardan yaranıb, kim yayır bunları? Hökumət bu söz-söhbətlərdən narahat olmalıdır, tədbir görməlidir.

❑ **Aygün MURADXANLI**

**"Vəhhabi problemi əqidə, inanc məsələsi deyil. Bu məsələ də iqtisadi çətinliklərə bağlıdır. Bu gün Azərbaycandan gedib İŞİD-ə qoşulanların 90 faizindən çoxu acından bu yolu seçib"**

# Vəfa Quluzadədən Lex Valensaya plagiat ittihamı

**Polşanın keçmiş prezidenti, dünya çapında tanınmış siyasətçi Lex Valensa Rusiyanın bir neçə dövlətə parçalanacağını istisna etmədiyini açıqlayıb. Ukrayna mətbuatına müsahibəsində o bildirib ki, bəzi regionlar ayrıla, Rusiya isə əhəmiyyətli dərəcədə balacalaşa bilər: "Rusiyada azı 60 xalq var. Ölkə dağıla və cəmi 20 milyon əhali ilə qala bilər. Bu, parçalanmanın necə baş verəcəyindən asılıdır".**

## "Rusiyanın bir neçə dövlətə bölünəcəyi ilə bağlı mən illər öncə böyük bir beynəlxalq tədbirdə nitqimdə bəyan etmişəm"

Valensa həmçinin Rusiyanın Qərbdən 30-50 il geri qaldığını da vurğulayıb. Onun sözlərinə görə, Rusiya heç vaxt Qərb dünyasının prinsipləri ilə yaşamayıb. Bu ölkədə heç vaxt demokratiya və azadlıq olmayıb. Bu ölkə həmişə istəyib ki, düşməni olsun.

Rusiyanın gələcəyi ilə bağlı maraqlı proqnozları ilə fərqlənən sabiq dövlət müşaviri **Vəfa Quluzadə** Lex Valensanın dediklərinə münasibət bildirib. "Yeni Müsavat"a açıqlamasında Vəfa Quluzadə qeyd etdi ki, əslində Lex Valensa onun illər öncə dediklərinin təkrarlayıb: "Mən cənab Lex Valensanı plagiatlıqda ittiham edə bilərəm. Rusiyanın bir neçə dövlətə bölünəcəyi ilə bağlı mən illər öncə böyük bir beynəlxalq tədbirdə nitqimdə bəyan etmişəm. Mən istefaya gedəndən sonra uzun müddət Monakoya dövlət başçılarının sammitinə dəvət olunmuşam və 2000-ci illərin əvvəlində mən həmin sammitlərdə iştirak etmişəm. Sammitdə mənim çıxışım qoyulmuşdu. Mənim çıxışımın olacağı bir gün öncədən elan olunmuşdu. Çıxışımı dinləməyə birinci növbədə Baltik respublikalarının nümayəndələri gəldi. Birinci sırada Rusiya Federasiyasının nümayəndə heyəti əyləşmişdi. Nümayəndə heyətinin başçısı indi çox tanınmış Rusiya siyasətçisi cənab Slutiski idi. Mən orada çıxış edəndə dedim ki, çox təəccüb edirəm Rusiya nə barədə düşünür. Dedim ki, baxın, bütün imperiyalar dağılıb. Roma imperiyası dağılıb yerində İtaliya qalıb, Britaniya imperiyası dağılıb yerində İngiltərə qalıb, Osmanlı imperiyası dağılıb yerində Türkiyə qalıb. Odur ki, Rusiya mütləq dağılacaq, proseslər ona doğru gedir. Ruslar hələ də özlərinə məxsus sərhədləri məlum olan dövlət yaratmayıblar. Mənim bu çıxışım dəfələrlə alqışlandı. Mən Slutiskinin təmkinli və soyuqqanlı siyasətçi olmasını gördüm. Mən düşünürdüm ki, indi o durub məni parçalayacaq.


Vəfa Quluzadə

Ancaq o, sakit davrandı və dedi ki, Vəfa Quluzadəni maraqla dinlədim və onun fikirləri ilə razı ola bilmərəm. Bununla da məsələ bitdi. Bu məsələ barədə mən kitabımda da yazmışam. Dediyim odur ki, Lex Valensanın bu gün söylədiklərini mən təxminən 15 il öncə bəyan etmişəm. Mən Lex Valensaya minnətdaram. Görürəm ki, o mənimlə həmrəydir, mən də onunla həmrəyəm. Həqiqətən də artıq imperiya qala bilməz. Rusiya imperiyası böyük tarixə malikdir və bir çox xalqlar onun tərkibində əriyiblər. Həmin millətlər özlərini artıq rus sayırlar. Onlar Rusiyadan ayrı yaşaya bilməzlər. Amma bir çox millətlər, məsələn, tatarlar olduqca böyük millətdir, Yeltsinin dövründə onlar çox yüksək avtonomiyaya nail olmuşdular. Putin gəlib ləğv etdi. Başqırdıstan neftlə zəngindir, nə Küveytdən, nə Səudiyyədən əskikdir, özü-özünü idarə edə bilər. Dağıstan xalqları əsrlər boyu əldə silah vuruşublar. Bu və digər millətlər Rusiyadan ayrı normal şəkildə yaşaya bilərlər".

**Sabiq dövlət müşavirinin fikrincə, dəhşət ondadır ki, Rusiyadakı siyasi sistem Rusiyanın konfederativ dövlətə çevrilməsini faciə hesab edir:** "Əgər onlar ingilislər kimi soyuqqanlı düşünə bilsələr, indidən federasiyanı konfederasiyaya çevirə bilərlər, müstəqillik tələb edən millətlərə müstəqillik verərlər və onlarla normal regional əlaqələr yaradarlar. Belə etməsələr Rusiyanın sonu çox faciə ilə nəticələnə bilər, qeyri-sabitlik, vətəndaş müharibəsi və sair bu kimi proseslər başlayar. Mən şəxsən bunu arzu etmirəm. Mən arzu etmirəm ki, qonşuluğumuzdakı Rusiyanı bu cür böyük sarsıntılar bürüsün. Artıq dünyada başqa proseslər gedir, amma Rusiya geridə qalır. Bunun səbəbi Rusiyadakı siyasi sistem və bu ölkənin hələ də imperiya şəklində qalmasıdır. Putinin özü dünən çıxış edəndə şikayətləndi ki, Rusiyada biznesə, elmə şərait yoxdur, yaratmaq lazımdır. Adama deyərlər ki, bəs sən 15 ildir hakimiyyətdə nə işlə məşğulsan? Ona görə yoxdur ki, siyasi sistem imkan vermir. İlk növbədə siyasi sistem dəyişməlidir. Rusiya bu şəkildə uzun müddət davam edə bilməz, bu vəziyyətin ən böyük acılarını rus xalqı yaşayır və yaşayacaq".

❑ **Etibar SEYİDAĞA**

# Partiya sədrinin əli bala batıb...

## Əhməd Oruc seçkidə hansı halda iştirak edəcəyindən və inəklərini arı ilə dəyişməsindən danışdı

**"Azadlıq-2015" seçki bloku parlament seçkilərinə hazırlaşsa da blokun tərkibində seçkilərdə iştirak etməyin əleyhinə olanlar da var. Blokun təsisçilərindən olan Azadlıq Partiyasının sədri Əhməd Oruc bildirib ki, hazırkı seçki qanunu dəyişmədiyi halda seçkilərdə iştirakın mənası yoxdur. Hələ seçki qanununda dəyişikliklər olmadığı üçün parlament seçkiləri ilə bağlı yekun qərarı yoxdur: "Seçkilərə qatılıb-qatılmayacağımız seçki qanunundakı dəyişikliklərdən və demokratik seçki mühitinin yaradılmasından birbaşa asılı olacaq".**

**Əhməd Orucun** sözlərinə görə, saxtakarlıq olmayacağına müəyyən ümid və əsas yarandığı təqdirdə seçkilərə qatılacaq: "Seçki öncəsi bir daha bu məsələni dəyərləndirəcəyik. Hesab etsək ki, seçkilərin saxtalaşdırılmayacağına müəyyən təminatlar var, o zaman qatılacağıq. Əksinə, heç bir demokratik mühit olmayacaqsa bu məsələyə yenidən baxacağıq".

**Əhməd Oruc modern.az-a açıqlamasında manatın devalvasiyasının şəxsi təsərrüfatına vura biləcəyi zərərdən də danışıb. O qeyd edib ki, bir ilə yaxındır təsərrüfatının profilini dəyişib:** "Daha inək saxlamıram. İnəklərimi yaxın adamlarımızdan birinə təhvil verdim. Əvəzində başımı qatmaq üçün arıçılıqla məşğulam. Hələ ki arıçılıq məhsulunu satışa çıxarmamışam. İndi yaz fəsli olduğundan arıçılığın əsaslarını öyrənirəm. Çünki yaz vaxtı arıların sayını bir az da artırmaq olar. O məsələlərlə çox ciddi məşğulam. Əgər çoxalda bilsəm, arıçılıqdan satış məqsədi ilə də istifadə edəcəyəm. Hələlik arılarıma manatın devalvasiyaya uğramasının elə bir təsiri olmayıb. İkincisi, hesab edirəm ki, devalvasiya qaçılmazdır. Çünki Azərbaycan iqtisadiyyatı dünyaya açıqdır. Dünyada dolların kursundan birbaşa asılı olan neft istehsalı da Azərbaycanın büdcəsinin əsas formalaşdırıcısıdır. Bu proseslərin Azərbaycana təsir etməməsi mümkünsüz idi. Sadəcə, devalvasiyanın təsirini azaltmaq üçün hakimiyyət çoxsaylı addımlar atmalıdır".


Əhməd Oruc

Partiya sədri arıçılıq təsərrüfatını Bakıda, yoxsa hansısa rayonda saxladığı barədə açıqlama verməyib.

Xatırladaq ki, Əhməd Oruc mal-qaradan ibarət təsərrüfatından bir neçə il öncə "Yeni Müsavat" qəzeti geniş reportaj hazırlamışdı. Partiya sədrinin belə bir fəaliyyətlə məşğul olması maraqla qarşılanmışdı.

❑ **E.SEYİDAĞA**

# Pişəvərilərin ruhu bizi dindirmir...



**Hüseynbala SƏLİMOV**

**Telekanalların birində hər bazar ertəsi gedən debatlarda növbənin Seyid Cəfər Pişəvəriyə çatacağını gözləyirdik...**

**Ola bilməzdi ki, 20 - ci əsr Azərbaycan tarixində öz yeri olan bu adam anılmasın. Bir dinləyici kimi etiraf edirəm ki, veriliş mənim üçün çox maraqlı, həm də bir az təsirli oldu. Tarixçi olmadığımdan deyə bilmərəm ki, bu adam haqqında nələr deyildi, nələr yaddan çıxdı...**

Bütün hallarda maraqlı veriliş idi. Amma mənim ürəyimdə bir nisgil qaldı. Bəli, o vaxtın nəsli siyasətdə sözünü dedi. Ondan sonrakılar da buna cəhd etdi.

Bəs bizə nə olub?..

Özümüzü bir az əvvəlki nəslə aid edərək bu sualdan qaça bilərik. Amma özümüzdən, bəli, özü-özümüzdən ki, qaça bilməyəcəyik! Verilişdə mənə daha çox bilirsiniz nə maraqlı göründü? Pişəvəri böyük siyasətə daxil olanda təxminən bizim yaşda imiş...

Ona görə yenə də soruşuram: bizə nə olub? O nəsli ki, biz özümüzə lider elan etmişdik, onlar işlərini bitmiş hesab edir. İndi də oturub tarixin ədalətli və qərəzsiz hökmünü gözləyirlər...

Təbii ki, nə vaxtsa onların haqqı veriləcək. Ən azı soruşulacaq ki, bəs 1988-ci ildən 1993-cü ilə qədər Azərbaycanda nə baş verib? Onda çox şey yada düşəcək, Xalq Cəbhəsi də, Meydan da... Amma o dövrdən bizim payımıza nə deşəcək?

Həmin illərin liderləri ilə bizim aramızda 10 il yaş fərqi olardı. Biz də özümüzü bu adamlarla birgə hesab edib tarixdən payımıza düşən bir qətrə diqqətlə kifayətlənə bilərik. Amma bu, bizi qane edirmi?.. Şeyx Xiyabani hərəkatı ilə Seyid Cəfər hərəkatı arasında çox vaxt olmamışdı - cəmi 20-25 il...

Nədən biz, 80-ci illərin nəsli, yeni reallıqlar yaratmaq iqtidarında deyilik? Bəlkə bu, heç deyilən qədər də irreal deyil. İndi praqmatik siyasətçi olmaq çox dəbdədir, hamı özünü prezidentliyə namizəd kimi hiss edir. Amma heç kim də prezident ola bilmir...

Bəlkə elə gələcəyin prezidentliyinə də yol başqa istiqamətdən keçir? Bu gün özlərini "praqmatik" hesab edənlər 80-ci illərin sonunda belə olsaydılar onda nə olardı? Onların payına tarixdən bir səhifə də düşməzdi...

Mənim xoşum gələn bir şüar var. Deyir ki, realist olun, real olmayanı arzu edin... Bu şüarı ötən əsrin 60-70-ci illərində Avropada gənclər səsləndiriblər...

Maraqlı şüardır. Onu bir neçə dəfə qeyd etmişik ki, bəlkə özünə qapılmış bəzi siyasət adamlarını hərəkətə gətirdi...

Amma hərəkətə gətirmir... Tez-tez düşünürəm ki, görən, biz hansı məsələdən yapışa bilərik ki, o, bizi böyük siyasətə aparıb çıxarmış olsun?..

Burada mən "biz" deyəndə özümü deyil, cəmi müxalifəti nəzərdə tuturam. Düşünürəm ki, heç şübhəsiz ki, bu, Güney problemi ola bilərdi...

Yazının əvvəlini Seyid Cəfərlə başlamağım da bununla bağlıdır. İndi bizim şüarlara baxanda yalnız "qarın-mədə" savaşına tuşlanmış fikirlər görürsən. O səbəbdən də düşünürəm ki, bəlkə sosial problemlər elə doğrudan da bu xalqın diqqətinə layiq deyil?..

Sosial problemlərlə məşğul olan partiyalar tapılacaq. Bizsiz də bunu edəcəklər. Amma inanmıram ki, yaxın vaxtlarda onlar da bununla nəyəsə nail ola bilsinlər. Heç nəyə nail ola bilməyəcəklər...

Siyasət də elmdir. Elmdə olduğu kimi siyasətdə də böyük problemlər qoymağı, böyük problemlərin həllinə girişməyi bacarmaq lazımdır. Bizim indi diqqət yetirdiyimiz məsələlər bilirsiniz nəyi xatırladır?

Avropada kiçik partiyalar var. Onlar abortlarla bağlı və ya buna bənzər problemlər qaldırırlar. Bizim də yalnız sosial problemlərə köklənməyimiz elə buna bənzəyir-insanlar eşidir və əllərini yelləyir, sonra da hamı özü problemini həll etməyə yollanır...

Tez-tez özümdən soruşuram ki, bu sosial problemlər bizi hara aparacaq? Bəlkə biz daha bir sosialist inqilabı yapmaq istəyirik? Axı sosial problemlərin ucundan tutub ucuzluğa getmək bundan başqa heç nə vəd etmir...

Amma böyük milli problemlər, məsələn, Güney problemi tamam başqadır və onların ardınca düşmək tamam başqa siyasi tale vəd edir...

Bunu deyəndə qayıdırlar ki, bəs camaat acından ölür, biz də başlayaq Güneydən danışmağa? Məsələ də bundadır ki, camaat heç də acından ölmür. Bu, sadəcə, bizə belə gəlir...

Camaatın başqa məsələlərə, mənəvi məsələlərə aclığını yaratmaq lazımdır. Bu halda bizim indi köklendiyimiz sosial problemlər də həllini tapacaq -böyük və güclü millət üçün bir "mədə" problemini həll etmək nə çətindir ki?..

Yeni MÜSAVAT
N 74 (6102) 9 aprel 2015



# Dilbəyi

Zamin HACI
zaminhaci@mail.ru

**Deputat Sabir Rüstəmxanlının ana dilimiz uğrunda mübarizəsi hər cür hörmət və diqqətə layiqdir. Örnək üçün, təzəlikcə məmləkətin işıqlı salonlarından birində "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə, ölkədə dilçiliyin inkişafına dair dövlət proqramı"nda nəzərdə tutulan vəzifələrin həyata keçirilməsi və dövlət proqramlarının qəbul edilməsinin iki illiyi" adlı tədbir qayırılmışdır. Tədbirin birinci saatı onun adının anlaşılmasına həsr edilmişdir, ancaq qəti bir fikrə gəlinməmişdir. Qərara alınmışdır ki, tədbirin adının ana dilimizə çevrilməsi üçün xüsusi komissiya yaradılsın, bu komissiya növbəti dövlət proqramı qəbul edilənədək ortaq bir mövqe ortaya qoysun, lazım gəlsə, amerikalıların NASA-Kuriositi-Mars proqramından, Avropanın nüvə araşdırmaları mərkəzlərindən kömək istənilsin. İkinci saatda isə Sabir bəy dilimizi korlayanlara qarşı çox kəskin çıxışlar etmişdir. Bizi maraqlandıran da əsasən elə budur.**

**Sitat:** "Ölkə başçısının ana dilimizdə necə gözəl danışdığının şahidiyik. Amma baxmaq lazımdır ki, məmurlarımız dilimizdə necə danışır. 20 ildir ki nazirdir, amma Azərbaycan dilində danışa bilmir. Ana dilinə sayğı göstərməyən adamın dövlətin idarəçiliyində rolu necə ola bilər?".

Diqqət edirsinizsə, Sabir bəy burda vurğunu hansısa şəxsin 20 il nazir qoyulmasının anormallığına yönəltmir. Çünki belə baxanda 20 il nazir işləmək, kresloya kök atmaq, bütün strukturlara qohum-əqrəbaları yerləşdirmək bizim ölkədə təbii qarşılanır. Korrupsiya normal şeydir, ancaq bu korrupsiyanı başqa dildə həyata keçirmək isə ana vətənimizə, ana dilimizə ögeylikdir, manqurtizmdir, Ərgənəkon ideallarına arxa çevirməkdir. Misal üçün, biri var nazir səni çağırıb "Day sto rubley" deyə, biri də var "Yüzlük ver, işini aşırdım" söyləyə. Biri var sənə idarədə "Mani, mani, mani" mahnısını oxuyub dingildəşələr, biri də var məmur əlini qoya qulağının dibinə, zəngulə vura:

*"Bu yerlərin üç yolu var, üçü də balam getməli,*
*Biri eniş, biri yoxuş, biri düz,*
*Eniş sənin, yoxuş sənin, düz mənim yar, düz mənim,*
*Bilirəm, gəlməlisən gəlməli...*
*Ayda bir yol, həftədə bir yol, gəlməlisən gəlməli..."*

Bunu oxuyan məmurun qapısında illərlə sürünsən ruhun inciməz.

Ümumiyyətlə, Sabir müəllimin qaldırdığı məsələ çox aktualdır. Örnək üçün, biz qabaqlar elə bilirdik Balığ Hafiz yazılır. Lakin belə dil müzakirələrindən sonra öyrənmişik ki, əslində Balıx Hafiz də yox, ən düzgünü Balık Hafiz yazmaq imiş.

Dil, vətən, ana yurdumuz, millət problemləri hər zaman şair və yazıçılarımızı düşündürən məsələlər olmuşdur. Məsələn, bir xalq şairimiz var idi, yaxşı yadımdadır, bir dəfə intervü verib demişdi: "Nəvələrimə bahalı konfetlər hədiyyə edirlər. Həmişə belə anlarda kasıb uşaqları düşünüb ağlayıram". Görün necə humanist insan idi! Millətin halına hər zaman belə ziyalılar ağlamışdır. Əlbəttə, yaxşı olardı həmin konfetlərdən bir-iki qutu da kasıb uşaqlara verəsən, ancaq bu kasıb uşaqları birdirmi, ikidirmi... Qırılmış elə çoxdur ki. Ziyalı, ana dili düşünəri bunun hansına konfet çatdırsın? Bəyəm ziyalının konfet zavodu var? Yoxdur.

Sözümün canı odur ki, ana dilini qorumalıyıq. Ana dilini pis bilən jurnalistlər də var, sözgəlişi. Misal üçün, bu yaxında yazmışdılar ki, Sabir bəyin oğlunu nəqliyyat nazirinin tabeliyindəki yol yeyintisi idarəsinə *("Azəryolservis"in ana dilimizdə adı belənçikdir)* başqan yardımçısı qoyublar. Özüm "sədr müavini" yazmadım, dilimizi qoruyuram. Çünki Sabir bəy Ziya Məmmədovun qardaşı ilə quda imiş. Ancaq Sabir bəy bu qərarı şərh eləyib dedi ki, oğluna vəzifəni özünə görə, öz bacarığı üçün veriblər, burda qohumluq əlaqələrinin qəti rolu yoxdur. Əlbəttə. Bizim buna şübhəmiz yoxdur. Heç avtovağzalın müdirinin də nazirin qardaşı olmasında hansısa tapşırıq-zad görmürük. Onu yazan jurnalistlər ana dilimizə hörmətlə yanaşmırlar.

Bir təklif də irəli sürmək istərdim: meşəni qoruyanlara meşəbəyi, toyu aparanlara masabəyi deyildiyi kimi, yaxşı olardı ana dilimizi qoruyanlara da dilbəyi adı verilsin.

Yazını isə dahiyanə deyilmiş sözlərlə bitirmək istərdim: "Mən fəxr edirəm ki, azərbaycanlıyam!"

• "Bizim qonaq"



# "1 dollar 1,5-2 manat səviyyəsinə kimi gəlib çata bilər"

## Millət vəkili Vahid Əhmədov: "Yəqin Avropa Oyunlarından sonra da müəyyən ciddi islahatlar gedəcək"

**Qlobal iqtisadi böhran, neftin dəyərdən düşməsinin məntiqi nəticəsi olaraq əksər ölkələrin milli valyutalarının devalvasiyası bu dəfə Azərbaycanı da öz ağuşuna aldı. Bu gün ölkə insanının rahatlığını pozan manatın getdikcə dəyərsizləşməsi, güzəranın ağırlaşması, bazarda qiymətlərin sürətlə artması nəticəsində perspektivin daha qaranlıq görünməsidir. Azərbaycanda iqtisadi-siyasi şərhlərinə, təhlillərinə ciddi etimad bəslənilən deputat, Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədovla vəziyyəti geniş şəkildə dəyərləndirmək üçün istiqlalçı millət vəkilini "Yeni Müsavat"a dəvət etdik. Baş redaktor Rauf Arifoğlu, baş direktor Ələsgər Süleymanov, redaktorlardan Zahid Səfəroğlu, Nazim Sabiroğlu və bu sətirlərin müəllifinin iştirakı ilə keçən söhbətimizi sizə təqdim edirik.**

***- Vahid bəy, paytaxtda yeni bir ajiotaj var. Biz elə günlərdə görüşürük ki, "dollar, manat, devalvasiya" ifadələri ən populyar ifadələrdir. Azərbaycanı, onun insanlarını ikinci devalvasiya dalğası təhdid edirmi, insanların narahatlığına əsas varmı? Bu sahənin mütəxəssisi kimi istərdik bununla bağlı fikirlərinizi bölüşəsiniz.***

- Narahatlıq təbii ki, var. Elə bizim özümüzdə də narahatlıq var. 21 fevral devalvasiyasından sonra Azərbaycan Mərkəzi Bankının İdarə Heyəti sədrinin bizə verdiyi rəsmi məlumat oldu. Komitə iclasında biz onu təsdiq edəndə müəyyən suallar vermişdik. Bir sual da bu idi. Dedi ki, keçən son vaxtlar biz manatı stabil saxlamaq üçün 1 milyard dollar xərcləmişdik. Biz aprelin əvvəlində onu təsdiqlədik... İndi də manatı həmin səviyyədə saxlamaq üçün təxminən 600-700 milyon vəsait xərcləyirlər. Yəni manat öz həqiqi, real yerini gəlib almayıb.

***- Nə qədərdir real qiymət?***

- Onu demək olmaz, bu, neftin qiymətindən asılıdır. Ümumiyyətlə, manatın devalvasiyası getmədi, əslində bu, neftin devalvasiyası idi. Çünki manat birbaşa neftlə əlaqədardır. Neftin qiyməti qalxacaqsa, manatın da qiyməti qalxacaq, neftin qiyməti düşəcəksə, manatın da qiyməti düşəcək. Çünki bizim ixracımızın 93 faizi neft məhsullarıdır, yalnız 7-8 faizi qeyri-neft məhsullarıdır. Neft nə qədər çox ixrac olunarsa, Azərbaycana dollar bir o qədər çox gələr. Ona görə də bu, labüd haldır. Amma burda bəzi məsələlər var. Devalvasiya prosesi Azərbaycanda çoxdan getməliydi.

***- Nə zamandan?***

- Hesab edirəm ki, bu, 2013-cü ildən başlamalıydı.

***- Bu da neftlə bağlıdır?***

- Bəli. Biz hələ o vaxt proqnozlara baxanda demişdik ki, 2013-cü ildən başlayaraq neft hasilatı ildə təxminən 5-6 faiz aşağı düşəcək. Elə belə də oldu. Amma biz onda heç neftin qiyməti barədə fikirləşməmişdik. İnanmırdıq ki, neftin qiyməti gəlib hardasa 50-60 dollar səviyyəsinə enər. Biz onu nəzərə alıb deyirdik ki, manat devalvasiyaya uğramalıdır, neftdən gələn gəlirlər azalacaq, dövlət büdcəsində problemlər yaranacaq. Ancaq çox təəssüflər ki, onda buna getmədilər. Son vaxtlar MDB məkanında devalvasiya prosesi getdi, Rusiyaya qarşı sanksiyalarla, neftin qiymətinin aşağı düşməsi ilə əlaqədar olaraq bölgədə çox ciddi problem yaranıb. Ona görə Azərbaycan da bu addımı atmağa məcbur oldu. Amma o vaxt biz yumşaq devalvasiyaya getsəydik, əlbəttə, belə bir duruma gəlib çıxmazdıq, yəni Azərbaycanda şok-terapiyaya ehtiyac qalmazdı.

***- İkinci devalvasiya bu qədərmi qaçılmazdı və olsa, çoxmu kəskin olacaq, yenə sərt devalvasiyamı yaşanacaq?***

- Bizim hesablamamıza görə, əgər neftin qiyməti bu səviyyədə saxlanacaqsa - hardasa 55-60 dollar səviyyəsində - əlbəttə, devalvasiya gedəcək. Bayaq dediyim kimi, devalvasiyanın iki variantı var: yumşaq və sərt. Yumşaq devalvasiya aparsalar, hardasa ilin axırına, gələn ilin ortalarına qədər manat gəlib öz dəyərini ala bilər. Yəni təxminən 1 dollar 1,5-2 manat səviyyəsinə kimi gəlib çata bilər. Yox, sərt devalvasiyaya gedilsə, bu, çox ciddi rezonansa səbəb ola bilər.



### "Milli Məclisin tərkibi əsasən YAP-ın deputatlarından ibarətdir, onlar qanunu boykot edə bilirlər"

***- Sizdə məlumat varmı ki, hökumətdəki iqtisadi komanda Azərbaycanı devalvasiyanın saldığı vəziyyətdən, əhalini, iqtisadiyyatı bu durumdan çıxartmaq üçün işlər görürmü və bunlar hansılardır?***

- Görülən işlər hamısı göz qabağındadır. Ümumiyyətlə, burda manatı bu vəziyyətdən çıxartmaq üçün birinci variant bank sisteminin çevik işləməsidir, ikincisi də qeyri-neft sektorunun inkişafıdır. Yadınızdadırsa, 21 fevralda devalvasiyaya gediləndə məlumat verdilər ki, Azərbaycanın ixracyönümlü məhsullarının faizini artırmaq üçün buna gedilir. İxracyönümlü məhsulların faizini bir gün artırmaq mümkün deyil, bunun üçün illər lazımdır. Hansısa məhsulu xaricə çıxartmaq üçün 5-10 il vaxt lazımdır ki, sən o məhsulu istehsal edə biləsən.

***- Bizdə istehsal potensialı varmı?***

- Hələlik yoxdur, bununçün vaxt lazımdır. Bizdə xaricə çıxarılan yeganə məhsullar kənd təsərrüfatı məhsullarıdır, hansı ki, biz qonşu MDB ölkələrinə ixrac edirik. Digər elə bir məhsulumuz yoxdur, bunun üzərində işləmək lazımdır. O mənada bu fakt özünü o qədər də doğrultmur ki, xaricə məhsul çıxartmaq üçün devalvasiyaya gedirik. Biz devalvasiyaya gedəndə Azərbaycanın təqribən 50 milyarda yaxın ehtiyatı var idi. Bunun müəyyən hissəsi xərcləndi. Mərkəzi Bankın özünün 15 milyard dollara yaxın ehtiyatı var idi, hazırda hardasa 10 milyard qalıb.

***- Deməli, ehiyatlar baxımından vəziyyət kritik deyil...***

- Bəli, ehtiyatlar var. Amma ehtiyatı birdən-birə xərcləmək də olmaz, bunun sabahı da var. Sabah neftin qiyməti gəlib 20 dollara düşdü, onda neyləyəcəksən? Onda gərək 1 dollar 3-4 manat olsun. Bunu etmək olmaz axı. Hökumət bunları da fikirləşir. Mənim aldığım məlumata görə, fevral ayında hökumətin yumşaq, digəri sərt devalvasiya ilə bağlı variantı olub. Müəyyən şəxslər yumşaq devalvasiya təklif ediblər, buna razılaşmayıblar, ona görə də birdən-birə sərt devalvasiyaya gedilməsinə qərar verilib. Çünki Rusiyada vəziyyət ciddi gərginləşdi, bizim də Rusiya ilə müəyyən qədər ticarət əlaqələrimiz var. Qazaxıstanda milli valyuta qiymətdən düşdü, Türkmənistan və digər dövlətlər də məcbur olub buna getdilər. Yəni burda başqa yol da yox idi. İqtisadiyyatı müəyyən qədər qoruyub-saxlamaq üçün devalvasiyaya getmək lazımdır. Bundan sonra da buna gediləcək, ilin axırına kimi bunun şahidi olacağıq.

### "Neftin qiyməti qalxacaqsa, manatın da qiyməti qalxacaq, neftin qiyməti düşəcəksə, manatın da qiyməti düşəcək"

***- Vahid bəy, əvvəlki iqtisadi komandaya daxil olan sabiq nazirlərdən biri Fikrət Yusifov deyib ki, Səudiyyə Ərəbistanı istiqamətində açılımlar etmək doğrudur, biz ordan milyardlar cəlb edə bilərik. Bizim gördüyümüz görüntülər doğrudan bu cəlbiyyat istiqamətindədirmi və siz bu variantı real sayırsınızmı ki, ərəb sərmayəsi Azərbaycanı qurtara bilər?***

- Bundan əvvəl Səudiyyə Ərəbistanının baş naziri burda səfərdə idi. Ondan sonra da cənab prezident ora səfər etdi. Yeri gəlmişkən, cənab prezidentin və ailə üvlərinin İslam dünyasının müqəddəs şəhəri olan Məkkəyə gedərək Ümrə ziyarətində olması da təqdirəlayiqdir, xüsusi rəğbətlə qarşılanır. Ayrı-ayrı analitiklər, ekspertlər bu səfərin müəyyən məqamlarına toxunurlar. Amma mənim fikrimcə, səfərdə ilk məqsəd ondan ibarətdir ki, neftin qiyməti ilə əlaqədar cənab prezidentdə də dəqiq məlumat olsun. Yəni ilin axırına qədər, yaxud yaxın aylar üçün neftin qiymətində daha hansı problemlər yarana bilər. Səudiyyə Ərəbistanı ilə Azərbaycanın münasibətləri həmişə yaxşı olub. Ola bilər ki, cənab prezident investisiya yatırımının, müəyyən layihələrin həyata keçirilməsi üçün Ərəbistanın investorlarını Azərbaycana cəlb etsin. Bizdə gələn il Azərbaycanda İslam Həmrəylik Oyunları keçiriləcək, bununla bağlı müəyyən xərclər tələb olunacaq. Bu problem ola bilər. Amma mən dəqiq deyə bilmərəm ki, səfərin əsas məqsədi nədən ibarətdir. Hesab edirəm ki, indiki vəziyyətdə bu, çox önəmli bir səfər idi. Çünki Səudiyyə Ərəbistanı neft ixrac edən əsas ölkələrdən biridir, həm də ABŞ-ın müttəfiqidir. Yəni məlumatlı bir dövlətdir, onun kralı da məlumatlı şəxsdir. Ona görə də cənab prezident yəqin o məlumatları əldə etmək istəyib.

***- Azərbaycana sərmayə axınının olması variantını necə, real sayırsınız?***

### "Səudiyyə Ərəbistanı neft ixrac edən əsas ölkələrdən biridir, həm də ABŞ-ın müttəfiqidir. Yəni məlumatlı bir dövlətdir, onun kralı da məlumatlı şəxsdir. Ona görə də cənab prezident yəqin o məlumatları əldə etmək istəyib"

- Ola bilər. Mən bu fikri qəbul edirəm. Çünki Səudiyyə Ərəbistanı vəsaitə ehtiyacı olmayan bir dövlətdir, kifayət qədər ehtiyatı var və istənilən zaman Azərbaycana sərmayə qoya bilər, burda problem ola bilməz.

***- Vahid bəy, siz Azərbaycan hökumətinə rəhbərlik etmiş şəxslərdən birisiniz, millət vəkilisiniz, çox önəmli bir komitənin - İqtisadi siyasət komitəsinin üzvüsünüz, həm də ölkədə rəyi olduqca mötəbər qəbul olunan bir ekspertsiniz. Mən xatırlayıram, devalvasiya vaxtı bir müsahibə vermişdiniz, bir neçə günə oxucu sayı 40 mini keçdi... İndi hamı vəziyyətin təsvirini verir, şəklini çəkir, sözlə deyir. Biz bilirik ki, siz çox yüksək səviyyəli mütəxəssissiniz, sizdən vəziyyətə dair təkliflər paketi istənilsə, varınızdırmı? Yəni bu şəraitdə Azərbaycanın daha az itkilərlə çıxması üçün sizcə, nələr etmək olar?***

- Bizim belə təkliflərimiz var. Birincisi, Azərbaycanda struktur islahatları getməlidir. Müstəqillik əldə etdikdən sonra Azərbaycanda struktur islahatları getməyib. Azərbaycan bazar iqtisadiyyatına uyğun bir dövlət strukturu qurmalıdır. Yəni elə bir struktur olsun ki, bu, bazar sistemində fəaliyyət göstərmək imkanına malik olsun. İkincisi, biz ixracyönümlü məhsulların istehsalına nail ola bilməsək, Azərbaycan ciddi problemlərlə üzləşəcək. Biz kənd təsərrüfatına diqqəti çox ciddi artırmalıyıq. İşlək əhalimizin 40 faizi kənd təsərrüfatındadır. Bizim orda imkanımız var ki, bəzi məhsulları ixrac edək, Azərbaycandan kənara çıxaraq, ordan müəyyən qədər valyuta qazanaq. Hesablamalarımıza görə, ildə təqribən 500 milyon manat sərmayə qoymaq lazımdır ki, o sahədən ildə 10-12 faiz ixracyönümlü məhsullar əldə edək. Bu, əsas prinsiplərdən biridir. Mən həmişə demişəm, biz istehsal prosesində çox gecikirik. Sovet vaxtı Azərbaycanda neft-maşınqayırma sənayesi var idi. Biz SSRİ-nin 75 faiz neft-maşınqayırmasını məhsullarla tanış edirdik. Azərbaycan Neft Şirkəti indi ölkəyə həmin məhsulları xaricdən dollarla alıb gətirir. Bizim mütəxəssislərimiz də, imkanımız da var, zavodlarımız da olub. Yəni hökumət bu məsələlər üzərində daha çevik işləməlidir. Üçüncü, ən ciddi məsələlərdən biri Azərbaycanda olan korrupsiya və rüşvətxorluq məsələləri aradan qaldırılmalıdır.

***- Korrupsiyaya Qarşı Mübarizə İdarəsi var... Başqa nə etmək olar?***

- Düzdür, idarə də var, cənab Ramiz Mehdiyevin rəhbərliyi altında komissiya da var, müəyyən işlər də görülür. Açığını deyim, dünən mən Hesablama Palatasının rəyini oxuyurdum, 2014-cü ildə 83 nəzarət həyata keçiriblər və harda nəzarət mexanizmi işləyibsə, orda korrupsiya da var, rüşvətxorluq da. Elə bir təşkilat yoxdur ki, orda bu hallar olmasın. İnsanları cərimə də edirlər, o vəsaiti geriyə də alırlar, hətta prokurorluğa verirlər, Korrupsiyaya Qarşı Mübarizə İdarəsi də məşğul olur. Amma yenə insanlar bundan əl çəkmir. Yəni bunun kökündə başqa məsələlər var, onları həll etmək lazımdır. Ümumiyyətlə, variantlar çoxdur.

***- Gömrük, vergi sistemi ilə bağlı hansı qeydləriniz var? İddialar səslənir ki, bahalığın olmasının bir səbəbi də monopoliya və gömrük monopoliyasının olmasıdır...***

- Monopoliya Azərbaycanda ən ağır məsələlərdən biridir. Bizdə monopoliyada olmayan heç nə yoxdur. Hər şey monopoliyadadır. Ona görə də Azərbaycanda idxal olunan məhsulların qiyməti çox yüksəkdir. Bir dəfə bizim həmkarımız Qubad İbadoğlu idxalla bağlı bir analiz aparmışdı. Yəni Azərbaycana nə qədər məhsul daxil olub, amma ölkədə necə qeydə alınıb və s. Aralarında təqribən 4-5 dəfə fərq var idi. Yəni bu, faktdır. Ona görə də gömrüklə, vergi ilə əlaqədar şəffaflıq olmasa, vəziyyətin dəyişməsi qeyri-mümkündür. Mən demirəm ki, 100 faiz... 2006-cı ildə cənab prezident Rəqabət Məcəlləsini Milli Məclisə göndərib. Biz onu iki oxunuşda qəbul etmişik, üçüncü oxunuşda qəbul edə bilmirik. Bu günə kimi qoymurlar ki, Rəqabət Məcəlləsini qəbul edək. Demirəm ki, onu qəbul edən kimi birdən-birə monopoliya aradan qaldırılacaq. Müəyyən qədər təsir edəcək, dövlət başçısının rəhbərliyi altında komitə yaradılacaq və həmin komitə bu işlərlə məşğul olacaq. Yəni monopoliya Azərbaycanda çox güclüdür. O cümlədən gömrükdə, vergidə də olan hadisələr, münasibətlər onu göstərir ki, bu proseslər şəffaflıq səviyyəsində həll olunmasa, müsbət nəticəyə nail olmaq qeyri-mümkündür.

***- O qanunun qəbuluna imkan verməyən kimdir?***

- Monopolistlər.

***- Onlar deputatlardımı?***

- Milli Məclisin tərkibi əsasən YAP-ın deputatlarından ibarətdir, onlar qanunu boykot edə bilir, problem deyil.

***- 2005-ci ildə gəlir bəyannaməsi haqqında qanun qəbul edildi. Siz dediyiniz korrupsiya və rüşvətxorluğa qarşı mübarizə, şəffaflıq kontekstində aparılan tədbirlərdən biri kimi niyə bu qanun icraya yönəldilmir?***

- Bu məsələ də bir neçə dəfə qaldırılıb, elə bir ciddi problem də yoxdur. Mən televiziyada izlədim, Ukrayna prezidenti Poroşenko 2014-cü ildəki gəlirləri ilə əlaqədar olaraq deklorasiyanı təqdim edib. Hətta mən dedim əgər bu məsələdən çəkiniriksə, gəlin maliyyə amnistiyası tətbiq edək. Cəmiyyət bilsin ki, bunlar Azərbaycanda olan varlı insanlardır. Yəni biz onlara toxunmayacağıq, onlarla işimiz yoxdur. Çox dövlətlərdə bunu ediblər. Amma biz demirik ki, onun kapitalına amnistiya verək, istədiyi kefi eləsin. Amnistiya veriləndən sonra maliyyə mənbələri hamısı yoxlanılmalı, baxılmalıdır. Azərbaycan dövləti, insanı üçün istifadə edəcəksə, buyursun. Lakin bu kapitalın hamısını aparıb xaricə yatıracaqsa, əlbəttə, ona heç bir dövlət getməz, icazə verməz.

***- İstinad etdiyiniz Poroşenkonun köməkçisi Saakaşvilidir. Biz bu məsələdə Gürcüstan təcrübəsindən də istifadə edə bilərik...***

- Təcrübə çoxdur.

***- Bəs iradə?***

- İradə də var. Mən cənab prezidentin iradəsini görürəm. Son vaxtlar Torpaq və Xəritəçəkmə Komitəsini ləğv etdi, "Azərenrji" sistemində çox böyük dəyişikliklərə qərar verdi, "Azərişıq" yaradıldı. Hesab edirəm ki, yəqin Avropa Oyunlarından sonra da müəyyən ciddi islahatlar gedəcək. Mənə sual verilir ki, məgər bank sistemində Elman Rüstəmovdan başqa kadr yox idi sədr qoymağa? Sizə açığını deyim, son vaxtlar bank sistemində çox güclü kadrlar əmələ gəlib. "PaşaBank", "KapitalBank", "AzəriqazBank", "UniBank"da xaricdə oxuyub gələn gənc mütəxəssislər həddən artıq çoxdur. Rəhbərlikdə olan o insanlar hamısı bank sistemini idarə etmək qabiliyyətinə malik və layiq olan şəxslərdir, onlardan istifadə etmək, onlara səlahiyyət vermək lazımdır. O insanlar daha az korrupsiya və rüşvətxorluğa meylli olur.

***- Vahid bəy, siz bunları indiki bank sistemi ilə müqayisədə deyirsiniz?***

*(davamı gələn sayımızda)*

❑ Söhbəti qələmə aldı:
Elşad PAŞASOY
FOTOLAR: Məhəmməd TÜRKMƏN

### "Bizdə monopoliyada olmayan heç nə yoxdur"





### "2006-cı ildən bu günə kimi qoymurlar ki, Rəqabət Məcəlləsini qəbul edək"

# Abbas Abbasova ultimatum verildi və şərt qoyuldu

## "Milyarderlər İttifaqı"nın ən iddialı fiquruna Rusiya və Azərbaycan prezidentlərinə edilən şikayətlərin ardınca son xəbərdarlıq edildi: "Ya "AzerRos"un birləşdirici qurultayına qatıl, ya da çıx get!"; RATİ üzvünün 4 gün vaxtı qalıb...



**Azərbaycanlıların Federal Milli-Mədəni Muxtariyyəti - "AzerRos" ətrafında situasiya gərgin olaraq qalır. Ötən yazılarımızda qeyd etdiyimiz kimi, səbəb "Milyarderlər İttifaqı" kimi tanınan Rusiya Azərbaycanlıları Təşkilatları İttifaqının (RATİ) əsas fiquru Abbas Abbasovun qurum daxilində parçalanma yaradıb öz hədəflərinə çatmaq səyləridir.**

Məlum olduğu kimi, Rusiyanın siyasi dairələrində, hüquq-mühafizə orqanlarında mühüm dəstəyə və himayəyə malik olan Abbas Abbasov fevralın 20-də alternativ qurultay keçirərək faktiki surətdə "AzerRos"u parçalayıb. Təhlilçilər onun özünü bunca sərbəst və arxayın aparmasını, mövqeyini bəyənmədiyi tanınmış soydaşlarımızı mütəmadi şəkildə sıxışdırıb təhdid eləməsini, onları əsassız yoxlamalarla, hətta həbslərlə hədələməsini məhz bu amillə izah edirlər.

Belə bir qənaət hasil olur ki, Azərbaycan baş nazirinin sabiq 1-ci müavini və ətrafı "kim bizimlə deyil, bizim düşmənimizdir" bolşevik məntiqinə sadiq qalaraq hərəkət eləməkdə və "AzerRos"u da bu yöndə vasitəyə çevirmək niyyətindədirlər. Bu və digər səbəblərə görə ötən həftə Azərbaycan diasporunun üzdə olan tanınmışları və fəalları hətta heç Rusiya vətəndaşı olmayan Abbas Abbasovun əməlləri ilə bağlı iki prezidentə - Vladimir Putinə və onun azərbaycanlı həmkarı İlham Əliyevə şikayət ünvanlayıb, iki prezidentdən kömək istəyiblər.

***

Vəziyyət isə hələ ki böhranlı olaraq qalır və hətta ümumrusiya səviyyəsinə qalxıb. Situasiya ilə bağlı "AzerRos"un demək olar, bütün regional bölmələri həyəcan təbili çalıb və çalmaqdadır. O sırada Ulyanovsk şöbəsi açıq müraciət yayaraq, qurumun "özəlləşdirilməsi" cəhdlərinin qarşını almağın, Abbas Abbasovun şəxsi ambisiyaları və maraqlarından doğan təxribatçı fəaliyyətini durdurmağın vacibliyini bəyan edib.

**Bu mövzuda rusiyalı jurnalistə danışan şöbənin rəhbəri İslam Hüseynov Abbas Abbasovu hüquqazidd hərəkətlərlə "AzerRos"u məhvə sürükləməkdə ittiham edərək deyib:** "Hər şey Söyün Sadıqovun sədrlikdən getməsi və onu Abbas Abbasovun əlaltısı Asif Məhərrəmovun əvəzləməsindən sonra başladı. Abbas Abbasovun özü isə "Ağsaqqallar Şurası"na sədr oldu *(artıq Şura ləğv edilib - S.Ş.)* O vaxtdan daxili problemlər, çəkişmələr, münaqişələr başlayıb. Qurumun bölmələri bu iki şəxsə etiraz olaraq tədricən rəhbərlikdən uzaqlaşıb... Yaranmış durum Məhərrəmovu vadar elədi ki, istefaya getsin. Amma nədənsə Azərbaycan vətəndaşı olan Abbas Abbasov kənara çəkilmək istəmir və bilinmir nə məqsədləri var. Özünün hüquqazidd hərəkətləri ilə o, "AzerRos"u, hamımızı məhvə aparır".

**Çıxış yoluna gəlincə, regional şöbənin sədri bunu söyləyib:** "Çox istərdik ki, "AzerRos"un gələcəyi olsun. Çünki bu - Azərbaycan-Rusiya münasibətlərində mühüm rol oynayan böyük və güclü təşkilatdır. Lakin o halda belə bir rol qalacaq ki, parçalanmanın qarşısı alınsın. Bundan ötrü vahid, birləşdirici, tamamilə legitim bir qurultaya ehtiyac var. Elə bir qurultay ki, orada demokratik qaydada, nizamnaməyə uyğun surətdə bütün aktual problemlər həllini tapsın, qapadılsın. Birləşdirici qurultay aprelin 14-də olacaq. Əfsus ki, çağırışlara məhəl qoymaq əvəzinə, Abbas Abbasov və ətrafı fevralın 20-də öz "qurultaylarını" keçiriblər. Ancaq aprelin 14-ə kimi hələ vaxt var... Abbas Abbasov ya birləşdirici qurultaya qatılmalıdır, ya da "AzerRos"dan çıxıb getməlidir..."

***

Göründüyü kimi, "Milyarderlər İttifaqı"nın əsas fiquru və ətrafına faktiki surətdə ultimatum verilib və şərt qoyulub. Bəs Abbas Abbasov birləşdirici qurultaya gələcəkmi? Düşünmək üçün indi onun cəmi 4 gün vaxtı var. Ancaq bir şeyi dəqiqliklə söyləmək olar ki, onun qərarına Kremldən gələn mesaj, veriləcək komanda həlledici rol oynayacaq. Putinə ünvanlanan şikayətlərin təsirli olub-olmadığı da məhz onda bilinəcək.

❑ Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 74 (6102) 9 aprel 2015



# "Əfv olacaq"

## Səidə Qocamanlı: "Yəqin ki, mayın ilk ongünlüyündə bununla bağlı sərəncam veriləcək"; Siyavuş Novruzovun əfv açıqlamasına hüquq müdafiəçiləri və məhbus ailələrindən reaksiya gəldi

**Mərhum eks-prezident Heydər Əliyevin doğum günündə - Avropa Oyunları ərəfəsində əfv sərəncamının veriləcəyi barədə xəbərlər yayılıb. Daha əvvəl mayda böyük amnistiya veriləcəyi deyilsə də, yayılan xəbərlərdə bunun əfv olacağı bildirilir.**

**Deputat Siyavuş Novruzov** mətbuata açıqlamasında yayılan xəbərlərə münasibət bildirib: "Müəyyən vaxtlarda Azərbaycanda amnistiya olub. Amma sözügedən ərəfədə amnistiya gözlənilmir. Bunun üçün qanunvericilik təşəbbüsü də yoxdur".

**Deputat qeyd edib ki, hazırda növbəti əfvlə bağlı işlər gedir:** "Bildiyiniz kimi, ənənəvi olaraq bayramlar və xüsusi günlərdə cənab prezident İlham Əliyev əfv sərəncamı imzalayır. Çox güman ki, bu dəfə də əfv sərəncamı imzalanacaq".

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu** da may ayında əfv sərəncamı veriləcəyinə ümid edir.

S.Novruzovun əfvlə bağlı açıqlamasına hüquq müdafiəçilərinin və məhbus ailələrinin mövqeyini öyrəndik.

**Mirvari Qəhrəmanlı deputatın fikirlərinə maraqlı münasibət sərgilədi:** "Siyavuş Novruzov deyibsə əfv olacaq, görünür, ona mötəbər mənbələrdən nəsə pıçıldayıblar. Mən də istəyirəm ki, əfv olsun və həbsdə siyasi məhbus qalmasın. Amma mən deyə bilmərəm əfv mütləq olacaq. Siyavuş Novruzovun yalançısı olmaq istəyirəm. Yəni istəyirəm ki, ictimaiyyət sonradan məni yox, Siyavuş Novruzovu qınasın. Çox istərdik ki, siyasi məhbuslar əfvlə azad edilsin".

**Hüquq müdafiəçisi Səidə Qocamanlı əfv xəbərinin doğru olduğunu qeyd etdi:** "Əfv olacaq. Yəqin ki, mayın ilk ongünlüyündə əfv sərəncamı veriləcək. Çox güman ki, o əfvə qədər İnsan Haqları üzrə Birgə İşçi Qrupu toplaşacaq. Bir daha söhbətimizin davamını edəcəyik. İnanıram ki, bir çox şəxslər bu əfvlə azadlığa buraxılacaqlar".

**Müsavat başqanının həbsdəki müavini Tofiq Yaqublunun qızı Nigar Yaqublu yayılan xəbərləri yalanladı:** "İnamım yoxdur. Hakimiyyətin yalanlarından biridir. Yüksələn etiraz səslərini azaltmaq üçün işlədilən manevrdir. İndiyə qədərki əfvlər hər şeyi sübut etdi. Məhbusların, xüsusən də Tofiq Yaqublunun seçkilərə qədər azad olunacağına inamım yoxdur. Konkret ümid etmirik".

**Müsavat başqanının həbsdəki digər müavini Yadigar Sadıqovun Hüquqlarını Müdafiə Komitəsinin sədri Elman Fəttah deputatın əfv açıqlamasının real olmadığını bildirdi:** "Hakimiyyət əfv məsələsini siyasi məhbuslardan kənarda bir oyunbazlığa çevirib. Son 3-4 əfvdə guya 100-dən çox məhbusun əfv edildiyi görünür. Amma orada 1-2 siyasi məhbusun azadlığa çıxdığını ya görürük, ya da görmürük. Bu məsələlərə artıq ciddi yanaşmıram. Vicdan məhbuslarının veriləcək əfvdə azadlığa çıxacağına inanmıram. Hakimiyyət başa düşməlidir ki, siyasi məhbusların azadlığa çıxma yollarını tapmalıdır. Əfv xəbəri reallaşana qədər ciddi yanaşmıram".

**NİDA-çı gənc Ömər Məmmədovun atası Əlyar Məmmədov ümidsizdir:** "Mən birtəhər dözürəm. Amma bu cür açıqlamalar Ömərin anası üçün çox ağırdır. Gündə bir bəyanat verirlər. Mayda olacaq əfvə inanmıram. İnandırıcı gəlmir. Novruza çox inanırdıq. Allah eləsin, azad olunsunlar. Hamıdan çox istəyirik. Ömərin özü deyir ki, belə bir söhbət gəzir. Amma biz valideyn kimi inamımızı itirmişik".

**Daha bir həbsdəki NİDA-çı gənc Əbdül Əbilovun anası Nurcahan Əbilova da mayda oğlunun azadlığa buraxılacağına inanmır:** "İnamım bitib. Artıq ümid etməkdən yorulmuşam. Yalnız Allaha inamım qalıb. Sonuncu dəfə onunla martın 15-də görüşmüşəm. Amma hər həftənin cümə günü danışırıq. Özü mənə dedi ki, mayda yox, yanvarda azad olunacağına inamı var. Ondan sonra ümidlərim tamam öldü".

❑ Cavanşir ABBASLI

# Manatı xilas etmək mümkün olacaqmı?



**Samir Əliyev:** "Kəskin devalvasiya gözlənilmir"



**İlham Şaban:** "Hökumət cəmiyyətlə informasiya siyasətini düzgün qurmayıb"

**Manat yenidən ucuzlaşıb. Dünən dolların rəsmi məzənnəsi 0,2% bahalaşaraq 1,0517 manat səviyyəsinə qalxıb. Xatırladaq ki, ötən gün rəsmi məzənnə 1.0496 manat olub. Avronun məzənnəsinə gəlincə, manata nəzərən avro ucuzlaşaraq 1,1399 (1.1482) manat təşkil edib.**

Dolların cüzi bahalaşması valyuta bazarında yenidən ajiotaja səbəb olub. Mətbuatda valyutadəyişmə məntəqələrinin müvəqqəti olaraq fəaliyyətlərini dayandırması haqqında xəbərlər yer alıb. İnsanları ən çox narahat edən sual bundan sonra manatın taleyinin necə olacağıdır.

**İqtisadçı ekspert Samir Əliyevə** görə, növbəti aylarda da manatın yumşaq devalvasiyası davam edəcək: "Bu, gözlənilən idi. Mərkəzi Bankın rəhbəri Elman Rüstəmov da açıqlama verməşdi ki, idarə olunan, üzən məzənnəyə keçirik, manatın məzənnəsi neftin qiymətinə adaptasiya olunacaq. Artıq bu açıqlamalardan görünürdü ki, manatın qiyməti vəziyyətdən asılı olaraq dəyişməkdə davam edəcək. Bununla hökumət yumşaq devalvasiyaya gedəcəyini etiraf etdi. Bazarda panika var. Mərkəzi Bank ictimaiyyətlə, mətbuatla işi düzgün qurmadığından belə şayiələr getdikcə artır. Hazırkı dövrdə Mərkəzi Bank ictimaiyyətə maksimum açıq işləməlidir".

**Bundan sonra nə baş verəcəyinə gəlincə, S. Əliyev kəskin devalvasiyanın gözlənilmədiyini bildirdi:** "Cüzi olaraq yumşalma gedəcək. İlin sonuna qədər forsmajor hadisə baş verməsə, kəskin devalvasiya olmayacaq".

**İqtisadçı ekspertin fikrincə, büdcədə ciddi ixtisarlar da ola bilər:** "Gözləntilərdən biri də odur ki, hökumət gələn aydan büdcəyə yenidən baxa bilər və xərcləri müəyyən qədər ixtisar edə bilər. Büdcənin icrası üçün bu gün neftin qiyməti ən önəmli amildir və hökumət bu cür devalvasiyadan sonra büdcə xərclərini azaltmaqla gərginliyi yumşalda bilər".

**Neft Araşdırmaları Mərkəzinin rəhbəri, iqtisadçı İlham Şaban hökumətin neftin ucuzlaşmasından sonra həyata keçirdiyi siyasəti tənqid edərək bunun manatın devalvasiyası prosesini gücləndirəcəyini vurğuladı:** "Ölkə iqtisadiyyatında elə də böyük bir ajiotaj yoxdur. Elman Rüstəmov Milli Məclisdə çıxışında faktiki olaraq bu anonsu vermişdi. Azərbaycanın bu durumunu regiondakı neftdən asılı olan digər ölkələrlə müqayisə etmək lazımdır. Rusiyada, Qazaxıstanda, Türkmənistanda da milli valyutanın devalvasiyası baş verdi. Ancaq Rusiya bu prosesdən çıxış yolu tapdı və hazırda devalvasiyadan sonra milli valyutanın möhkəmlənməsi prosesi gedir. Bunun birinci səbəbi odur ki, neftin qiymətində müəyyən artım var. Neftin bir bareli 59 dollara qalxıb. İkincisi, Rusiya antiböhran tədbirlərinə başlayıb, ilin əvvəlindən etibarən xaricdən idxal edilən məhsulların bir qismini öz daxilində istehsal edir. Digər tərəfdən, sanksiyalarla əlaqədar olaraq xaricdən Rusiyaya gətirilən məhsullara qadağa qoyub. Üçüncü bir faktor isə ondan ibarətdir ki, insanların əlində pul az olduğundan valyutaya ehtiyac yaranır. Əgər idxaldan asılılıq azalırsa, istər hüquqi, istərsə də fiziki şəxslərdə xarici valyutaya ehtiyac qalmır. Bu da milli valyutaya xarici təsirin yükünü azaldır. Nəticədə milli valyutanın məzənnəsinin artması baş verdi. Azərbaycana gəldikdə isə cari ilin ilk ayında belə bir proses yox idi. Mərkəzi Bank 1,230 milyard manat vəsait xərclədi ki, manatın məzənnəsini stabil saxlasın. Növbəti aylarda da böyük bir vəsait xərcləndi".

**İlham Şaban ölkənin idxaldan asılılığının həddindən artıq çox olmasının manatın taleyinə də təsir edəcəyini qeyd etdi:** "Bu asılılıq davam edir. Bizim vəziyyətimizi qonşu Rusiyadan, Qazaxıstandan, Türkmənistandan, İrandan daha problemli edən odur ki, onların gələcəkdə neft hasilatının artması gözlənilir, bizdə isə yaxın 5 ildə hasilat azalır. Bu il proqnozlara görə, təxminən 45 milyon ton neft istehsal edəcəyik, ancaq 2020-ci ildə ən yaxşı proqnoza görə, hasilatımız 7 milyon ton azalacaq. Çünki yataqlarımız köhnəlir. Manatın arxasında Elman Rüstəmovun da qeyd etdiyi kimi, neft dururdu. Azərbaycan neftinin 130-140 dollar olan vaxtları olub, indi isə 55 dollara düşüb. Bu situasiyanı hökumət nəzərə almalı idi. Qeyri-neft sektorunda nefti dəyər vasitəsilə əvəz edə biləcək istehsal sahələri yaranmalı idi. Hazırda Azərbaycanın ixrac etdiyi məhsulların 92 faizi enerji sektorunun - yəni neft və neft məhsullarının payına düşür. Bunu əvəz edə biləcək məhsul yoxdur. Hökumət bunun üzərində işləməlidir ki, qeyri-neft sektorundan nə ortaya çıxarmaq olar".

**İqtisadçının proqnozlarına görə, manatın tam üzən məzənnəyə keçməsi də istisna deyil:** "Mərkəzi Bankın ehtiyatları çatmadığından manat öz axarına buraxılacaq ki, məzənnəni bazar müəyyənləşdirsin. Bu isə o deməkdir ki, artıq manatın kursunun hər həftə, hər ay dəyişməsinin şahidi ola bilərik. Ancaq bunun maksimum və ya minimum nə qədər olacağını demək çətindir".

**Devalvasiyanın hər mərhələsində cəmiyyətdə yaranan ajiotajın səbəbini izah edən iqtisadçı bildirdi ki, hökumət cəmiyyətlə informasiya siyasətini düzgün qurmayıb:** "Cəmiyyətlə hökumət arasında qarşılıqlı inam yoxdur. Məsələn, Rusiyada hökumət bir həftədə bir neçə dəfə toplanır və bu, bütün televiziyalarda nümayiş etdirilir. Ancaq bizdə rüb ərzində bircə dəfə prezidentin yanında iclas keçirilib, hətta devalvasiya olan zaman da bir hökumət nümayəndəsi ictimaiyyət qarşısına çıxmır. İctimaiyyətə dəqiq rəqəmlər açıqlanmalı idi. Ancaq indi insanların milli valyutaya inamı yoxdur. Bu da xarici valyutanın milli valyutaya təzyiqini gücləndirir. Bu ona gətirib çıxaracaq ki, ilin sonuna qədər iqtisadiyyatın bütün sahələrində dollarlaşma prosesi gedəcək. Bununla biz dayanıqsız iqtisadiyyat mərhələsinə qədəm qoyuruq".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 74 (6102) 9 aprel 2015

**Təhsil naziri Mikayıl Cabbarov iki gün öncə keçirilən tədbirlərdən birində maraqlı təkliflə çıxış edib. O bildirib ki, təhsil müəssisələri gənclərin elmə cəlbi, gənc alimlərin müəyyən vəzifələrə təyin edilməsi üçün universitetlərin daxilində bu istiqamət üzrə fəaliyyətlərini daha sistemli şəkildə həyata keçirməlidirlər. Nazirin sözlərinə görə, istənilən gənc alimin aşkar edilməsi onun fəaliyyətinə "ağsaqqallıq" edən peşəkarların, elm xadimlərinin fəaliyyətindən, karyera yüksəlişi mexanizmlərindən asılıdır:**

# Rektorlardan və ekspertlərdən təhsil nazirinə cavab gecikmədi

"Ali təhsil müəssisələrinin rəhbərlərinə üzümü tutub demək istəyirəm ki, universitetlər daxilində bu fəaliyyəti daha sistemli şəkildə həyata keçirməliyik. Kafedralarda olan vəzifələr rəhbər həmkarlar, dövlət qulluğunda çalışan həmkarlar tərəfindən tutulur. Gənc alimlərin də aşkarlanması üçün təbii dəyişiklik mexanizminin axtarılıb tapılması zəruridir".

Bu, təhsil naziri tərəfindən yeni islahatlara bir çağırış kimi də qəbul edilə bilər. Xüsusən ali məktəblərdəki rəhbər vəzifələri yaşlı nəslin zəbt etdiyini nəzərə alanda, bu, haqlı məqamdır. Amma bununla yanaşı, "indiki gənclər rəhbər vəzifələrdə təmsil olunacaq qədər yetişməyib" yanaşmasını da unutmaq olmaz. Kim daha çox haqlıdır və universitetlər nazirin bu çağırışına riayət edəcəkmi?

**"21-ci əsr Təhsil Mərkəzi"nin rəhbəri Etibar Əliyev** hesab edir ki, bu, xoş niyyət və səmimi çağırışdır. Onun sözlərinə görə, universitetlərdə gənclərin vəzifələrə çəkilməsi çox nadir hallarda baş verir: "Universitetdaxili vəzifələr, kafedra müdirləri, dekan, dekan müavinləri, prorektorlar, elmi tədqiqat mərkəzi rəhbərləri - hamısı yaşlı nəsildir. Bugünkü durum həqiqətən də acınacaqlıdır. Bir az irəli çəkilən gənclərin böyük əksəriyyəti isə demək olar ki, universitetdə elm və təhsillə bağlı vəzifələrdə təmsil olunmur. Ya inzibati təsərrüfat, ya da təlim-tərbiyə üzrə vəzifələrə çəkilirlər. Burda gənclərin elmi dərəcəsi olmaya da bilər. Bu, xüsusi istisna təşkil etməlidir. Gənclərin irəli çəkilməsi yeni ab-havanın yaranmasına səbəb ola bilər. ADA universitetində, Ali Neft Akademiyasında belə hallar var. Bunun da müsbət nəticələrini görürük".

**E.Əliyev hesab edir ki, ən mühüm məqamlardan biri dövlət proqramı ilə xaricdə təhsil alan gənclərin qayıdıb bu ölkədə fəaliyyətinə üstünlük verilməsidir. Müsahibimizin sözlərinə görə, onlar daha yüksək təhsil alırlar və aldıqları təhsil, təcrübə də elmi istiqamətlərdə yeni təcrübələrin bölüşməsinə gətirib çıxara bilər:** "Gənclərin dissertasiya müdafiəsində, doktorantura və aspiranturaya qəbulunda süründürməçiliyin aradan qaldırılmasına çalışmaq lazımdır. Yaşlı professorların vərdişinə çevrilib bu məqam. Yaşlı nəsil maneçilik törədir. Tədbirlər planı işlənməlidir. Ali məkəb rəhbərləri Təhsil Nazirliyindəki gəncləşmə prosesinə diqqət edib, öz işlərini müəyyən dərəcədə korrektə etməlidir".



**Etibar Əliyev:** "Universitetlərdə bir az irəli çəkilən gənclər elm və təhsillə bağlı vəzifələrdə təmsil olunmur"



**Əhməd Vəliyev:** "Təhsil müəssisələrinin birbaşa borcudur ki, gəncləri irəli çəksinlər"



**Şəmsəddin Hacıyev:** "Mexaniki deyil, xüsusi bir müsabiqə yolu ilə həmin gənclər keçməli və qiymətləndirilməlidir"

**Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev bildirdi ki, nazirin bu çağırışı Heydər Əliyevin dövlətçilik strategiyasının əsasını təşkil edir. "O həmişə deyib ki, gənclərimizin gücündən istifadə etmək lazımdır" deyən Ə.Vəliyevə görə, hazırda da Azərbaycanda gənclərlə bağlı siyasət dünyanın heç bir ölkəsində yoxdur:** "Mikayıl müəllim də bu gün təhsil naziri olaraq gənclərlə işləyir, onun tərəfindən gənclərin irəli çəkilməsi təqdirəlayiq addımdır. Təhsil müəssisələrinin birbaşa borcudur ki, gəncləri irəli çəksinlər. Ən azı müəyyən təcrübəyə malik olan insanların yanında işə başlasınlar ki, gələcəkdə onlar yaşlı nəsli əvəz edə bilsinlər. Həyat təcrübəsindən gedir söhbət. Yoxsa ki, gənc nəsil yüksək səviyyədə formalaşıb. Mikayıl müəllim təhsil naziri təyin ediləndən fundamental addımlar atır. Bizim universitetdə də gənclərimiz elmi şuraların üzvləridir. Magistrlər, gənc alimlər, onların hamısı universitetin bütün ictimai-siyasi həyatında iştirak edirlər. Hər bir qrup, fakültə üzrə gənclər təşkilatının sədri var. Respublikada keçirilən o konkurslarda, hər yerdə onlar bizi təmsil edirlər. Yüksək səviyyədə olanları işə dəvət etmişəm".

**Milli Məclisin Elm və təhsil komitəsinin sədri Şəmsəddin Hacıyev isə bunu problem yox, tendensiya adlandırdı. Onun sözlərinə görə, gəncləşmə tendensiyası olmalıdır:** "Gənclərin irəli çəkilməsi, gənc kadrların vəzifəyə gətirilməsi. Amma yaşlı, orta yaşlı insanların da təcrübəsindən də maksimum istifadə etmək lazımdır. Xüsusən elmi təşkilatlarda, elmi tədqiqat institutlarında, kafedralarda buna ciddi fikir verilməlidir. İllərlə bir nəfər haqqında deyirik ki, cavandır-filan, amma bir də görürük ki, illər keçib, adam orta yaşdan da keçib. Amma inkişaf yoxdur, adam yerində sayır. Sonra da deyirik ki, artıq yaşı keçib. Yaradıcı gənclərimiz olduqca çoxdur. Mexaniki deyil, xüsusi bir müsabiqə yolu ilə həmin gənclər keçməli və qiymətləndirilməlidir. Əməkhaqqında da stimullaşdırıcı diferensial yanaşma olmalıdır. Bu halda daha yaxşı nəticə verə bilər".

❑ **Sevinc TELMANQIZI**

# Gədəbəydə sui-qəsdə məruz qalan komandirin ölümü ilə bağlı yeni şok iddia

## Etibar Əmiraslanov: "Cahangir Rüstəmov yanına gəlib "qoşunları geri çək, əvəzində nə istəsən verərək" deyən adamları tanıdığını demişdi, həmin sözdən sonra onu məhv etdilər..."

**Şəmkirli iş adamı Elpərəst Həsənli "Lamiyə işi"ndə əsas fiqurant, Şəmkirin sabiq icra başçısı, sonradan kənd təsərrüfatı nazirinin müavini olmuş Aslan Aslanovu 6 ölüm işində suçlandırmışdı. "Yeni Müsavat"ın 10 mart tarixli sayında "İş adamı Aslan Aslanovun "ölüm eskadronu" qurbanlarının adlarını açıqladı" sərlövhəli yazıda Elpərəst Həsənlinin dilə gətirdiyi ölümlər sırasında Gədəbəy batalyonunun komandiri Cahangir Rüstəmova sui-qəsd haqda məlumat da yer alırdı. E.Həsənli iddia etmişdi ki, sui-qəsddən əvvəl C.Rüstəmova 10 kiloqram qızıl müqabilində Şınıx bölgəsindəki mövqelərdən çəkilməsi təklif olunub. Lakin komandir bu təkliflə yanına gələn şəxsi qovub.**

**Həmin yazıdan sitat:** "Cahangir sayılıb-seçilən komandirlərdən idi, Aslanovun onun işlərinə qarışmasına imkan vermirdi. Onun maşınını Nəbi adlı şəxsin vasitəsilə minaya saldılar. Cahangir öldü, sürücüsü sağ qaldı. Bu məsələni araşdıran müstəntiqi də öldürdülər".

**C.Rüstəmovun oğlu Faiq Rüstəmov** "Yeni Müsavat"a müsahibəsində atasının ölümündə sabiq müdafiə naziri Səfər Əbiyevdən şübhələndiyini söyləmişdi.

**Mövzu ilə bağlı Tovuz özünümüdafiə batalyonunun sabiq komandiri Etibar Əmiraslanov** "Yeni Müsavat"a danışıb. O, Cahangir Rüstəmovu çox yaxşı tanıdığını deyib. Bildirib ki, Tovuz və Gədəbəy birinci Qarabağ savaşında bir qarış torpağını da ermənilərə verməyib: "Biz 1989-cu ildən - ermənilər torpaq iddiasına düşüb müharibəyə başlayan andan ön xətdə - Əlibəyli kəndində müdafiə qurduq. Gədəbəydə də Cahangir Rüstəmov könüllülərdən ibarət dəstələrlə düşmənə qarşı döyüşürdü. Gədəbəyin ermənilərə verilməməsində Cahangir Rüstəmovun müstəsna xidmətləri var. O vaxt təxribatçı dəstələr vardı. Gəlirdilər ki, o hündürlüyü verin, buradan çıxın. Pulla, bahalı ev və maşınla bizi də ələ almaq istəyirdilər. Cahangir Rüstəmova da belə təklif etmişdilər. O, bir xətaya yol verib demişdi ki, mən sizi tanıyıram. Onlara demişdi ki, gedib ANS-ə, "215 KL"-ə çıxacağam. Onu həmin sözdən sonra məhv etdilər".

*- Həmin adamlar kim idi?*

- Mən o adamları tanımırdım.

*- Cahangir Rüstəmov həmin adamları haradan tanıyırdı?*

- Bilmirəm. Biz onunla iclasdan çıxanda dedi ki, bu alçaqlar mənə təklif edirlər ki, qoşunu ordan çək.



*- Nə iclas idi, harada keçirilirdi?*

- Şəmkirdə korpusda keçirilirdi. Orada iclas qurtarandan sonra çıxdı dedi ki, bu alçaqlar mənə deyir ki, qoşunu Şınıxdan Yasamal aşırımına *(Gədəbəydəki Yasamal aşırımını nəzərdə tutur - E.M.)* qədər geri çək. Bundan əvvəl mənə də belə bir təklif etmişdilər. Deyirdilər ki, torpağı qoy çıx. Harada desən ev-eşik, pul, qızıl, maşın verək. Mən də o adamları qovmuşdum. Cahangir Rüstəmov da onları söyüb qovub. Səhvi onda olub ki, onlara "sizi tanıyıram" deyib.

*- Korpusda keçirilən iclasa kim rəhbərlik edirdi?*

- Rəhbərlik edənin kimliyi dəqiq yadımda deyil. İclasın özü döyüş hazırlığı ilə bağlı idi. Həmin adamlar da iclas keçirilən zala girə bilirdilər. Təxribatçılar idi. Cahangir Rüstəmovun həyatına sui-qəsd olandan sonra işi aparan müstəntiq həmin adamların izinə düşmüşdü. Həmin müstəntiqi də aradan götürdülər.

*- Müstəntiqə nə oldu?*

- Onu da Cahangir Rüstəmov kimi partladıb öldürdülər.

*- Cahangir Rüstəmov necə komandir idi?*

- Xalqını sevən, mərd insan idi. Şərəfini pula satmışlar onu pulla almaq istəyirdilər. O gedib evində rahat otura bilərdi, amma gəlib o yaşında döyüşürdü. Mən onunla döyüşlər zamanı tanış olmuşam. Dadaş Rzayev də gəlmişdi. Çənlibeldə *(Tovuzun Əlibəyli kəndində yüksəklik-red.)* görüşmüşdük. Cahangir çox yaxşı komandir idi. O, Şəmkirdəki hərbi aerodromu götürmüşdü. Biz də gedib oradan texnika yığıb Tovuza aparmışdıq. Onu öz satqınlarımız aradan götürdü. İşin izinə düşən müstəntiqi də öldürdülər, aradan götürdülər.

*- Həmin iclasa sizi kim çağırmışdı?*

- İclaslar olurdu, bizi də briqadadan çağırırdılar. O iclasda elə bir müzakirə ediləsi mövzu da yox idi. Fasilədə Cahangir Rüstəmov mənə dedi ki, ehtiyatlı ol, bu alçaqlar torpağı vermək istəyirlər. Mən də ona dedim ki, mənim yanıma da gəlmişdilər. Gələnləri ona təsvir etdim, dedi ki, onun yanına gedənlər elə həmin adamlar olub.

*- Sizin yanınıza gələnlər nə millətdi idi?*

- Özümüzünkülər idi. Mənim yanıma gəlmişdilər, görmüşdülər ki, alınmır. Mən onlara demişdim ki, rədd olun, sizi güllələyərəm. Bundan sonra Cahangir Rüstəmovun yanına getmişdilər ki, onu razı salsınlar, Gədəbəydəki mövqeləri təhvil versin. Cahangir Rüstəmov da onları qovmuşdu. İstədikləri bu idi ki, Gədəbəyi düşmənə təslim edib Tovuzu blokadaya salsınlar.

*- Cahangir Rüstəmov o adamlarla razılaşsa idi nə olacaqdı?*

- Vəd etdikləri pulu, qızılı, var-dövləti alıb torpağı ermənilərə qoyub çıxmalı idi. Onlar Gədəbəyi alsaydılar, bu gün Şəmkir də yox idi. Yüksəklikdən Şəmkiri də, Tovuzu da vuracaqdılar. Cahangir Rüstəmov döyüşdü, bir qarış da olsun torpaq vermədi. O, qəhrəmandır.

*- Sizə nə təklif etmişdilər?*

- Ev, pul, qızıl. Deyirdilər ki, əlini hansı evin üstünə istəyirsən qoy, sənindir.

*- Həmin var-dövləti Ermənistanda təklif edirdilər?*

- Yox, Azərbaycanda. Deyirdilər ki, sən torpağı qoy çıx, qalanı sənlik deyil.

*- Həmin adamlar döyüş gedən zonaya necə gəlib çıxırdılar?*

- Bilmirəm. Onların bir maşını vardı. "Qırmızı Xaç"ın maşınları var, ciplər, qabağında uzun antena, bax, o maşınlardan varları idi. Nömrəsiz maşın idi. Özləri də eynəkdə, kostyumda "blatnoy" görkəmdə idilər.

*- Cahangir Rüstəmov ANS-ə gedib çıxa bilmişdi?*

- Yox, ona imkan vermədilər, öldürdülər.

*- Danışsa idi nə olacaqdı?*

- O adamların kimliyini deyəcəkdi və yeqin bir tədbir olacaqdı.

*- Sizə demişdi ki, ona 10 kiloqram qızıl təklif olunub ki, qoşunu mövqelərdən geri çəksin?*

- Elə o təklif haqda danışdı ki, belə bir təklif ediblər. Onun sözünü ağzında qoyub dedim ki, belə bir təklifi mənə də ediblər.

*- Cahangir Rüstəmov mina partlayışında dünyasını dəyişəndən sonra ona olan təkliflər haqda dövlət orqanlarına məlumat verdiniz?*

- O vaxt dövlət orqanlarına deməyin mənası nə idi? Kimə müraciət edəydik axı? Sadəcə, hamı bildi ki, vəziyyət nə yerdədir, Cahangiri nəyə görə öldürüblər. Cahangir Rüstəmov çox "dastoyni" komandir idi, düşmənə bir qarış torpaq vermədi. Allah ona qəni-qəni rəhmət eləsin.

Yada salaq ki, Elpərəst Həsənli iddia edirdi ki, C.Rüstəmovun Aslan Aslanovun əli ilə zəhərlənib, sonradan isə maşınına mina qoyularaq öldürülüb. E.Həsənli iddia edirdi ki, bu ölümlərə Aslan Aslanovun aidiyyəti var. O, bu və digər ölüm işlərinin araşdırılmadığını söyləmişdi.

❑ **E.MƏMMƏDƏLİYEV**

**P.S.** *Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

YENİ MÜSAVAT
N 74 (6102) 9 aprel 2015



# 1 milyon manatın olsa...

**Samir SARI**

**Redaksiyada oturub saytlarda dolların bir-iki qəpik bahalaşması, ancaq daha çox bahalaşacağı, Mərkəzi Bankın bu xüsusda təkzibini oxuyub qara-qara düşünürdüm. Çünki bilirəm, benzindir, dollardır, bunlar bahalaşdısa, hər şey bahalaşır və xalqın (içində də özümüz) güzəranı pisləşir. Adam qorxur ki, manat ucuzlaşa-ucuzlaşa gedə, Zimbabve dollarının gününə düşə.**

*(Bilməyənlər üçün deyim ki, Zimbabvedə 1 yumurta almaq üçün 5-6 milyon dollar pul verməк lazımdır. O ölkədə hamı dollar milyonçusudur, adi dilənçinin cibində də azı 20 milyon dollar tapmaq olar).*

Bax, bu cür qara-qara düşüncələrdəydim ki, qonşu masada işləyən həmkarlardan biri qəfildən soruşdu: "Hocam, 1 milyon manatınız olsa, nə edərdiniz?"

Sual qəfil olduğu qədər də kəskin idi və onun müəllifi gözünü zilləyib konkret cavab gözləyirdi. O, sualı bir daha təkrar etdi və mən istər-istəməz, o istiqamətdə düşünməli oldum. Fəqət əlimdə 1 milyon manat kərəvəngə qalmışdım: indi bunu necə edim, nə cür xərcləyim, hara yatırım.

Köhnə söhbətdir, deyirlər, çoxlu pulu qazanmaq çətindir, amma çoxlu pulu xərcləmək ondan da çətindir. Hərdən Türkiyə mediasında lotereyada milyonlar udan, ancaq qısa müddətdən sonra əlindəki pul-paranı lotulara, özləri demişkən, "pavyon qadınları"na, cürbəcür dələduzlara, oğrulara qapdıran, əvvəlkindən də kasıb duruma düşən "şanslı"lar barədə yazılar gedir. Oxuyursan, görürsən ki, bəli, çox pul qazanmaq üçün adamda ağıl, fərasət və bəxt kimi şeylər olmalıdırsa, pulu qoruyub saxlamaq üçün ağıl da lazımdır, fərasət də, bəxt də, dərin savad da, hiyləgərlik də, karlı day-day da, etibarlı və dürüst köməkçilər də. Yoxsa vallahi, girəvələyib adamın əlindən o pulu elə çıxararlar ki, bir milyon borcu olan birinə dönərsən.

O da yadıma düşdü ki, bu sualı 3-4 il qabaq bir sıra tanınmış qələm-kağız, mikrofon-klaviatura adamlarına vermişdilər, onların sırasında mən də vardım və dövrün konyukturasına uyğun cavab vermişdim. Bu saat konkret olaraq yadımda deyil, amma cavabımda, deyəsən, bir milyon manatın bir xeyli hissəsi xeyriyyəçiliyə-filana gedirdi.

Əlbəttə, indinin özündə də o qədər pulun bir hissəsini xeyriyyəçilik üçün xərcləməsən, haram olar, yeyə bilməzsən, amma artıq vəziyyət dəyişib, indi gərək pulu daha səmərəli xərcləyəsən, durub "Porşe", "Ferrari", "Bentli" kimi bahalı maşınlara verib küçələrdə "ğorrrrrrr" edə-edə ora-bura şütüməyəsən.

Amma mən deyiləm, sizsiniz, birdən əlinizə düşən milyonu artırmaq fikrinə düşərsiniz, inşaat sektoruna, qida sənayesinə qoymağa, şadlıq sarayı-filan tikdirməyə qalxarsınız. Mümkün deyil, pulu batırarsınız. Tutaq ki, gedib Seneqaldan 300 min dollarlıq banan gətirmək istədiniz, o bananı ölkənin sərhədindən içəri keçirməyə qoyarlarmı? Qoymazlar. Hamısı da sərhədin o üzündə xallayıb çürüyər, gedər. Mobil telefon alverinə girərsiniz, elə vəziyyət yaradarlar ki, gömrükdən ən yaxın dostuna təcili yardım zəngi etməyə telefon tapa bilməzsən.

Hökumət adamları səndə bu qədər pulun olduğunu bilsələr, kənddə yaşayan balaca qardaşının cibinə nəşə atıb tutdurar, deyərlər, filan qədər gətir, buraxaq. Aparıb verərsən. Görərlər, verirsən, əvvəlki məzənnəyə qane olmazlar, bu dəfə böyük qardaşının belinə daha ağır maddə şələyərlər, yenə aparıb verərsən.

Qohum-əqrəba "bir aya qaytararam" şərtli xahişlə üstünə cumar, oğul evləndirmək, qız köçürmək, ölü götürmək üçün pul istəyər, verməyə bilməzsən, bir də görərsən, bay, verdiklərinin bir manatı geri qayıtmır, amma pul xahişləri də tükənmir. Bir gün borc verdiyin adamların birindən pulunu geri istəyərsən, dərhal düşmən elan edər, ictimai yerlərdə deyərlər, bir qəpiklik adam deyil, altında milyonu var, bir qohumunun yaralı barmağına ilk tibbi yardım göstərmir.

Ona görə də cavab gözləyən gənc həmkarıma dedim ki, mənim 1 milyonum olsa, noutbukumu da götürər, bir kruiz gəmisinə oturub, bədii, publisistik yazılar yaza-yaza rəssam Qo Genin iziylə Taiti adasına gedərəm, ordan dolanıb Alyaskaya keçər, sonra Çiliyə, CAR-a yollanar, dünyanı gəzərəm, 5-6 aydan sonra bir neçə hazır kitabla qayıdıb gələrəm.

Düzgün cavab isə belədir: 1 milyon manatın varsa təcili aparıb dollara çevirmək lazımdır. Gənc nəsil çox praqmatikdir...

# Xaricdəki valyuta ehtiyatlarımız manatı xilas edə bilərmi...

**Manatın yumşaq devalvasiyasının davam etməsi hökumətin manatın məzənnəsini sabit saxlamaqda aciz olmasının göstəricisidir. Bir tərəfdən dövlət ehtiyatlarının, digər tərəfdən neft gəlirlərinin azalması hökuməti əlavə tədbirlər həyata keçirməyə vadar edir.**



**Vüqar Bayramov:**
"Bununla manatı saxlamaq həmin vəsaitlərin valyuta bazarında əriməsinə gətirib çıxara bilər"



**Qadir İbrahimli:**
"Neft Fondunun vəsaitləri daşınmaz əmlakda və qiymətli kağızlarda saxlanıldığından onları qısa müddət ərzində gətirmək mümkün deyil"

Bəs görəsən, belə olan halda Dövlət Neft Fondunun xaricdə saxlanılan valyuta ehtiyatlarının ölkəyə gətirilməsi məsələsi yenidən gündəmə gələ bilərmi? Xaricdəki vəsaitlərin ölkəyə gətirilməsi hansı hallarda son iqtisadi proseslərin qarşısını ala bilər?

Dövlət Neft Fondunun xaricdə banklarda saxlanılan və müxtəlif sahələrə yatırılan valyuta ehtiyatlarının taleyinə gəlincə, iqtisadçı ekspertlər bildirdilər ki, bu vəsaitlərin qısa zaman ərzində ölkəyə gətirilməsi mümkün deyil.

**Məsələyə münasibət bildirən iqtisadçı ekspert Vüqar Bayramov "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, xaricdəki vəsaitlərin hamısını qısa müddətdə ölkəyə gətirmək mümkün deyil:** "Dövlət Neft Fondunun valyuta ehtiyatlarının 87 faizi qiymətli kağızlarda saxlanılır, digər 5 faizi qızıl da daxil olmaqla, digər sahələrə, daşınmaz əmlakın alınmasına yatırılır. Qalan hissəsi isə valyuta şəklində saxlanılır. Bunlar daha çox Rusiya və Türkiyədə saxlanılan vəsaitlərdir ki, səhmlərə yönəldilib, ancaq səhmlərdə dollar və avro ilə deyil, yerli valyuta ilə saxlanılır. Dövlət Neft Fondunun rəsmi hesabatında qeyd olunur ki, bu qurumun nağd likvitliyi təxminən 1 faizdir. Bu o deməkdir ki, Dövlət Neft Fondunun nağd şəkildə saxlanılan valyuta ehtiyatlarının həcmi təxminən 300 milyon dollarda artıqdır. Likvit vəsaitlərin həcmi Dövlət Neft Fondunun vəsaitlərinin 1/3-i qədərdir. Bu baxımdan banklarda nağd şəkildə saxlanılan vəsaitlərin həcmi elə də çox deyil. Ona görə də Dövlət Neft Fondunun xaricdə olan vəsaitlərinin ölkəyə gətirilməsi müzakirə mövzusu deyil. Ancaq təbii ki, likvit vəsaitlər var. Dövlət Neft Fondunun hazırkı rezervlərinin həcmini nəzərə alsaq, təxminən 9 milyard artığı likvitdir, bunları qısa zamanda nağd pula çevirib ölkəyə gətirmək mümkündür. Bunlar likvit rezervlərdir ki, ehtiyac olduğu halda Dövlət Neft Fondu tərəfindən istifadə oluna bilər. Ancaq rezervlərin əhəmiyyətli hissəsi qiymətli kağızlarda saxlanıldığı üçün onların razılaşdırılması müəyyən zaman tələb edir. Bu baxımdan bütövlükdə dövlət rezervlərinin strukturu onu göstərir ki, Azərbaycanda likvit vəsaitlərin həcmi 9 milyard, nağd vəsaitlərin həcmi təxminən 300 milyon dollardır. Digər vəsaitlər isə ABŞ bondları və digər qiymətli kağızlarda saxlanılır".

**Ekspertin sözlərinə görə, yaxın zamanlarda bu vəsaitlərin bir qisminin ölkəyə gətirilməsi müzakirə oluna bilər:** "Neftin dünya bazarında qiymətinin ucuzlaşdığını nəzərə alsaq güman etmek olar ki, o vəsaitlərin bir qismi Azərbaycana gətiriləcək. Çünki dövlət büdcəsi qarşısında Dövlət Neft Fondunun öhdəliklərini yerinə yetirməsi üçün əlavə vəsaitə ehtiyac olacaq. O da mümkündür Dövlət Neft Fondunun 2015-ci il üçün nəzərdə tutulan gəlirləri dövlət büdcəsindən transferlərin məbləğindən az olsun. Bu baxımdan Neft Fondunun rezervlərindən istifadə olunacaq. Ancaq rezervləri ölkəyə gətirib bununla manatın məzənnəsini sabit saxlamaq düzgün addım olmazdı, bu, rezervlərin valyuta bazarında əriməsinə gətirib çıxara bilər. Bu baxımdan indiki halda rezervlər hesabına manatın məzənnəsinin saxlanılması doğru addım deyil".

**İqtisadçı ekspert Qadir İbrahimli "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, indiki mərhələdə Azərbaycan hökumətinin həmin vəsaitləri ölkəyə gətirməsi gözlənilmir:** "Rəsmi məlumatlara görə, ölkənin valyuta ehtiyatlarının həcmi 53 milyard dollara yaxındır. Bunun da 14-15 milyard manatı Mərkəzi Bankın, qalanı isə Dövlət Neft Fondunun ehtiyatlarıdır. Neft Fondunda olan vəsaitlərin əhəmiyyətli hissəsi xaricdə daşınmaz əmlakda və qiymətli kağızlarda saxlanılır. Bu baxımdan Azərbaycan hökuməti istəsə belə, həmin vəsaitləri qısa müddət ərzində gətirmək mümkün deyil. Yalnız mərhələli şəkildə həmin vəsaitlər tədricən ölkə iqtisadiyyatına cəlb edilə bilər. Bu vəsaitlərin bir qismi dollarla, bir qismi avro ilə saxlanılır. Bir hissəsi isə daşınmaz əmlaka yönəldilib. Mən hesab etmirəm ki, indiki mərhələdə Azərbaycan hökuməti həmin vəsaitlərin ölkəyə gətirilməsinə çalışacaq. Əgər həmin vəsaitlər büdcə kəsirlərinin örtülməsinə yönəldilsə, onlar da qısa müddət ərzində tükənəcək və yenidən hazırkı vəziyyət yaranacaq. Bu səbəbdən hökumət daha çox iqtisadiyyatı şaxələndirmək haqqında düşünməlidir".

**❑ Nərgiz LİFTİYEVA**

# "1 qəpik də borcumuz yoxdur"

## İri vergi ödəyiciləri dövlətə borclarının olmadığını deyirlər

**"Hazırda dövlətə iri vergi ödəyicilərinin 2,2 milyard manat borcu var". "Bizim Yol" qəzetində yer alan məlumata görə, bu borcların ildən-ilə azalması yalnız kağız üzərindədir. "İri vergi ödəyiciləri"arasında "AZAL", "Azərsu", "Azəriqaz", "Azərişıq", Bakı Metropoliteni, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi kimi dövlətdən külli miqdarda vəsait alan qurumların adı çəkilir:**

"Fitch" Ratings hesabatında "Azərenerji"nin 2013-cü ildə dövlət büdcəsinə 700 milyon manat borcu olduğunu göstərmişdi. Bundan əlavə, "Azərenerji"nin Dövlət Neft Şirkətinə qaza görə borcu 1 oktyabr 2014-cü il tarixinə 385 milyon manata çatıb. Eyni vəziyyət, vergi ödənişlərinə məsuliyyətsiz yanaşma digər iri vergi ödəyicilərində də mövcuddur. Dövlət Neft Şirkəti istisna olmaqla, demək olar ki, onların hamısının "Azərenerji" ASC-nin, "Azərbaycan Dəmir Yolları" QSC-nin, Rabitə və Yüksək Texnologiyaları Nazirliyinin, "Azərsu" SC-nin, "Azərbaycan Hava Yolları"nın (AZAL), Xəzər Dəniz Gəmiçiliyinin və Bakı Metropoliteninin yalnız adları "iri vergi" ödəyicisi olaraq qalır. "Bakıelektrikşəbəkə"nin isə səlahiyyətləri yeni yaradılan "Azərişıq" ASC-yə verildiyindən dövlətə borclar sırasında bu qurumun da adını çəkmək olar. Bu strukturların hər biri büdcədən həm dotasiya, həm də investisiya xərcləri əldə etməklə, dövlət vəsaitlərinin səmərəsiz və qeyri-şəffaf istifadəsi ilə məşğuldurlar. Eyni zamanda xarici maliyyə qurumlarında dövlət zəmanəti əsasında böyük həcmdə kreditlər alırlar. Əlbəttə, onların geri qaytarılmasının böyük əksəriyyəti dövlət büdcəsinin boynundadır".

Bu məlumatın ardından yuxarıda adları çəkilən qurumların mətbuat xidmətləri ilə əlaqə saxladıq.

**"Azərbaycan Hava Yolları"nın xidmət rəisi Məhərrəm Səfərli bildirdi, bu şirkətin heç bir vergi borcu yoxdur:** "AZAL-ın heç bir borcu yoxdur. O fantastik rəqəmlər yalandır. Bizim bir qəpik də borcumuz yoxdur".

**Bakı Metropoliteninin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayev də vergi borclarının olmadığını bildirdi:** "Bakı Metropoliteninin 1 manat da vergi borcu yoxdur".

**"Azərişıq" ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev bildirdi ki, "Bakıelektrikşəbəkə" təhvil alınan zaman 1 qəpik də vergi borcu olmayıb:** "Bunu vergi-audit yoxlamaları da təsdiqləyib ki, qurumun heç bir borcu yoxdur. "Azərişıq" isə hələ tam fəaliyyətə başlamayıb, hələ təhvil-təslim prosesi gedir, nizamnamə təsdiq olunmayıb. 1 aylıq fəaliyyətin nə qədər vergi borcu ola bilər?"

**"Azərbaycan Dəmir Yolları" QSC-nin mətbuat xidmətinin rəhbəri Nadir Əzməmmədov** isə bu məsələ ilə maliyyə şöbəsinin maraqlandığını və onda bu haqda məlumatın olmadığını bildirdi.

Qeyd edək ki, "Yeni Müsavat" bu qurumların ümumilikdə nə qədər vergi borcunun olması ilə bağlı Vergilər Nazirliyinə sorğu göndərib və məlumat yaxın günlərdə açıqlanacaq.

**Mövzunu davam etdirəcəyik.**

**❑ Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 74 (6102) 9 aprel 2015



# Prezident Avropa İttifaqının komissarını qəbul etdi

**Prezident İlham Əliyev Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları üzrə komissarı Yohannes Hanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

APA-nın məlumatına görə, görüşdə Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlıq əlaqələrinin bütün istiqamətlərdə, o cümlədən iqtisadi, enerji, mədəni, turizm və digər sahələrdə inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanıb, insan haqları məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Söhbət əsnasında Azərbaycanda bu istiqamətdə uğurlu işlərin həyata keçirildiyi bildirilərək ölkəmizdə sərbəst toplaşma azadlığı, media, fikir, internet və digər azadlıqların təmin olunduğu qeyd edilib, bu sahədə əməkdaşlığın genişləndirilməsi üçün də yaxşı imkanların olduğu vurğulanıb.

# YAP-çı gəncdən Cavid Qurbanova şok müraciət

## "Öcalanın Moskvadakı nümayəndəsinin əmisi oğlu Anar Əsgərov QSC sədrinin köməkçisi kimi insanları cana yığıb"

**"Azərbaycan Dəmir Yolları" QSC-nin yeni sədri Cavid Qurbanovun köməkçisindən ona şikayət var. YAP-ın dəmir yolundakı təşkilatının Gənclər şöbəsinin sədri Fuad Rəsulov redaksiyamıza yolladığı məktubda yazır ki, dəyişikliklərdən sonra dəmiryolçular yeni bir bəla ilə üzləşiblər. "PKK lideri Abdulla Öcalanın Moskva nümayəndəliyinin səlahiyyətlisi Həjar Şamiloğlunun əmisi oğlu Anar Əsgərov QSC sədrinin köməkçisi kimi insanları cana yığıb. Hamıya qarşı kobud rəftarı, soyuq münasibəti, bir bəhanə ilə işinə ləkə vurmaq istəyi adamın canında var.**

Bizə məhəbbəti hardan olsun ki? Qohumları 30 ildir türkləri qanına-qəltan eləyir. Görəsən, Dədə Şəmşirin nəvəsi Cavid Qurbanov bilmirmi ki, bu adam dəmiryolçuları axırda ona qarşı qaldıracaq? Axı indi rəhbəri olduğu təşkilatda uzun zaman işləyib. İnsanları belə bir acıdil, heç kəsə hörmət qoymayan bir köməkçinin öhdəsinə qoymaq olmaz axı! Azərbaycan Respublikasının prezidenti, YAP sədri cənab İlham Əliyev hər çıxışında deyir ki, biz sıravi insanlara görə varıq. Qəbulları sadələşdirin, insanları dinləyin. Anar Əsgərov bunları eyninə almır. İndi heç kim onun sifətini belə görmək istəmir. Nə olsun, işi-peşəsi adam satmaq, sədrin yanında gözdən salmaq olan birisi bu gün at belindədir. Cavid Qurbanov bilmirmi ki, onu atasının saxtakarlığına görə 2011- ci ildə Prezident Administrasiyasından biabırcasına qovublar? Və əşyalarını belə götürməyə icazə verməyiblər. Anar Əsgərov hələ bilmir ki, onun vəzifəsi dəmiryolçularla sədr arasında körpü yaratmaqdır, körpü uçurmaq yox. Yetər insanlara belə zülm etmək. İndi də camaatı yarımştat iş rejiminə keçirməklə bezdirmək istəyirlər".

**F.Rəsulov yazır ki, belə dözülməz hallara etiraz edərək işdən çıxıb.**

❑ **E.HÜSEYNOV**

# İran ordusu hərəkətə keçdi

**İran Səudiyyə Ərəbistanı və müttəfiq dövlətlərin husilərə qarşı hərbi əməliyyatların keçirildiyi Yəməndə hərbi varlığını qorumaq üçün hərbi gəmilərini bölgəyə göndərib. ANS PRESS-in məlumatına görə, İran Hərbi Dəniz Qüvvələrinin komandiri, kontr-admiral Həbibullah Səyyari bildirib ki, Alborz dağıdıcı gəmisi və Buşehr köməkçi gəmisi Ədən körfəzinə göndərilib.**

Həbibullah Səyyari gəmilərin hansı məqsədlə göndərildiyini də açıqlayıb: "Hərbi gəmilər İranın gəmiçiliyinin təhlükəsizliyini təmin etmək və açıq dənizdə İranın maraqlarının qorunması missiyası üçün göndərilib".

Qeyd edək ki, Səudiyyə Ərəbistanı başda olmaqla, antihusi koalisiyası Yəməndə hava əməliyyatları həyata keçirir. Belə ki, qırıcılar Yəməndə husilərin mövqelərini bombardman edirlər.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Ərəb bankları Azərbaycana gətirilir

## Siyavuş Novruzov: "Yəqin ki, Səudiyyə Ərəbistanı banklarının Azərbaycanda filialları açılacaq"



**YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov prezident İlham Əliyevin Səudiyyə Ərəbistanına səfərinin nəticələrinə münasibət bildirib.**

YAP-çı deputat publika.az-a açıqlamasında deyib ki, İlham Əliyevin Səudiyyə Ərəbistanına səfəri uğurlu və müqəddəs ziyarət idi. Onun sözlərinə görə, keçirilən rəsmi və qeyri-rəsmi görüşlər böyük əhəmiyyət kəsb edir: "Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanında keçirdiyi həm rəsmi görüşlər, həm də müqəddəs yerlərin ziyarəti çox uğurlu olub. Hər bir müsəlmanın da ən böyük arzusudur ki, bu cür Ümrə ziyarəti həyata keçsin".

S.Novruzov Səudiyyə Ərəbistanının dünya siyasətində böyük rola malik olduğunu söyləyib: "Bilirsiniz ki, Səudiyyə Ərəbistanı dünya siyasətində öndə gedən ölkələrdən biridir. İstər iqtisadiyyatı, istər neft siyasəti, istərsə də Yaxın və Orta Şərqdə baş verən proseslərə təsir etmək baxımından rolu və əhəmiyyəti böyükdür. Ona görə də Azərbaycan Prezidentinin indiki məqamda Səudiyyə Ərəbistanına səfəri çox vacib və səmərəlidir".

**Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanı rəsmiləri ilə neftin ucuzlaşmasından danışıb-danışmaması məsələsinə də toxunan S.Novruzov deyib:** "Burada başqa məsələlər də var. Birincisi, Azərbaycanla Səudiyyə Ərəbistanı arasında hər zaman isti münasibətlər olub. Vaxtilə ulu öndər Heydər Əliyev də Səudiyyə Ərəbistanına səfər etmişdi və Ümrə ziyarətində olmuşdu. Həmin vaxtı cənab Prezident də ümummilli lideri müşayiət edirdi. Keçirilən görüşlərdən də göründüyü kimi, cənab prezident İlham Əliyevin Səudiyyə Ərəbistanına səfəri çox yüksək qarşılandı. Müəyyən məsələlər ətrafında da geniş fikir mübadiləsi aparıldı. Azərbaycan və Səudiyyə Ərəbistanı neft ixrac edən ölkələrdir. Odur ki, hər iki ölkə rəhbərinin görüşüb fikir mübadiləsi aparması və perspektivləri müzakirə etməsi təbiidir. Həmçinin cənab prezident Azərbaycan və Səudiyyə Ərəbistanı bankları arasında birgə fəaliyyəti ilə bağlı müzakirələr aparıb və razılıq əldə olunub. Müştərək banklar olacaq. Yəqin ki, Səudiyyə Ərəbistanı banklarının Azərbaycanda filialları açılacaq. Detallar mənə tam bəlli olmasa da, bu istiqamətdə danışıqlar getdiyini bilirəm. Ona görə də səfər çox uğurlu olub".

# Paytaxtda 218 min sürücü cərimələnib

**Paytaxtda yol polisi tərəfindən 218 min inzibati protokol tərtib edilib. Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin ictimai qurumlarla əlaqə bölməsinin rəisi Vaqif Əsədovun APA-ya verdiyi məlumata görə, bu il yanvarın 1-dən aprelin 5-nə qədər paytaxt ərazisində 233 yol qəzası baş verib.**

Nəticədə 67 nəfər ölüb, 286 nəfər xəsarət alıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə yol qəzalarında ölüm hallarının sayı 2 fakt azalsa da, qəza hadisələrinin sayı 12 fakt, xəsarət sayı isə 39 fakt artıb. Hesabat dövründə qəzaların 49%-i sürət həddinin aşılması, 51%-i piyadaların vurulması, 27%-i təhlükəli manevr qaydasını pozma səbəbindən baş verib.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33

# Rusiya və Yunanıstan liderləri 2015-16-cı illər üçün hərəkət planı imzaladı



**Rusiyaya qarşı sanksiya siyasətinə etiraz etdiyinə görə Avropa Birliyi ilə münasibətləri gərgin olan Yunanıstanın baş naziri Aleksis Cipras Moskvada səfərdədir. Musavat.com Rusiya qaynaqlarına istinadən xəbər verir ki, Rusiya prezidenti Vladimir Putinlə görüşdən sonra tərəflər 2015-16-cı illər üçün hərəkət planı imzalayıblar.**

Bundan əlavə, iki ölkə rəhbərləri 2-ci Dünya savaşında qələbənin 70-ci ildönümü ilə bağlı birgə bəyanat və görüşlərin yekununa dair 2016-cı ildə Yunanıstanda Rusiya, Rusiyada isə Yunanıstan günlərinin keçirilməsi barədə birgə memorandum imzalayıblar.

Razılaşmalardan danışan Putin Rusiyanın Yunanıstanda özəlləşdirmədə iştirak etməyə hazır olduğunu və bu zaman Rusiya üçün bərabər, başqalarından fərqli pis şərtlərin qoyulmayacağına ümid elədiyini söyləyib.

Görüşlərdən sonra Kreml başçısı rəsmi Afinanın Moskvaya maliyyə yardımı üçün müraciət etmədiyini də deyib.

❑ **Musavat.com**

# Kəndlilərin 100 min manatını mənimsəyən qadın axtarışa verildi

**Baş Prokurorluq Qazaxda baş verən dələduzluq hadisəsiilə bağlı məlumat yayıb. Qurumun mətbuat xidmətindən ANS PRESS-ə verilən məlumata görə, Qazax rayon sakini Xatirə Əsgərova və qeyrilərinin Pərvanə Səfərova tərəfindən aldadılaraq müxtəlif banklardan kreditlə götürdükləri nağd pullarının dələduzluq yolu ilə ələ keçirilməsi faktı ilə bağlı Qazax Rayon Polis Şöbəsinin İstintaq Bölməsində Cinayət Məcəlləsinin 178.2.2-ci (dələduzluq) maddəsi ilə cinayət işi başlanıb.**

Aparılmış istintaqla P.Səfərovanın, X.Əsgərova tərəfindən ayrı-ayrı rayon sakinlərinin adlarına müxtəlif banklardan aldığı 103 min manat məbləğində vəsaiti dələduzluq yolu ilə ələ keçirməsində əsaslı şübhələr olduğundan Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilməsi barədə qərar qəbul edilmiş, lakin istintaqdan qaçıb gizləndiyi üçün barəsində axtarış elan olunub.

İstintaq eyni zamanda X.Əsgərovanın qeyd edilən kreditləri hansı banklardan, kimlərin adına və hansı məbləğlərdə götürdüyü xüsusatlar araşdırılır, nəticəsindən asılı olaraq onun əməlinə hüquqi qiymət veriləcək. Hazırda iş üzrə P.Səfərovanın tutularaq istintaqa cəlb edilməsi və vətəndaşlara dəymiş ziyanın müəyyənləşdirilərək ödətdirilməsi istiqamətində zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.



# Bakıda MTN-in polkovniki intihar etdi

**Aprelin 8-də Nərimanov rayonu, Həsənoğlu küçəsində yerləşən çoxmərtəbəli binadan özünü ataraq faciəli şəkildə dünyasını dəyişən şəxsin MTN-in zabiti olduğu məlum olub. Nərimanov Rayon Prokurorluğundan virtualaz.org saytına bildiriblər ki, ölən şəxs MTN-in polkovnik-leytenant rütbəli zabiti Azər Əliyevdir.**

Faktla bağlı araşdırma aparılır və xüsusi xidmət zabitinin ölümünün təfərrüatları aydınlaşdırılır. Faktla bağlı Cinayət Məcəlləsinin 125-ci (intihar həddinə çatdırma) maddəsi ilə cinayət işi açılıb və araşdırma aparılır.

# "Azərbaycanda İslam adı altında aktivləşmək istəyən radikal dini cərəyanlar var"

**Aprelin 8-də Bakı Ali Neft Məktəbində "Dini radikalizmə qarşı mübarizədə gənclərin rolu" mövzusunda konfrans keçirilib. APA-nın məlumatına görə, tədbirdə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı İslam adı altında Azərbaycanda aktivləşmək istəyən radikal dini cərəyanların olduğunu deyib. Komitə sədri həmin cərəyanlardan bəzilərinin adlarını açıqlayıb. Onun sözlərinə görə, bunlar nurçuluq, sələfilik, vəhhabilik, xəvaricilik və digər cərəyanlardır.**

Komitə sədri qeyd edib ki, ölkədə azərbaycanlılar üçün ən müqəddəs şey Vətən və onun bütövlüyüdür: "Bizim üçün müstəqilliyimiz, bütövlüyümüz ən böyük nemətdir. Ona görə də müstəqilliyimizi nə təhdid edirsə, biz onun qabağında dayanmalıyıq. Təsəvvür edin ki, biz ayrı-ayrı İslam adı altında İslama zidd olan bu radikal cərəyanlara rəvac verək, məktəblər açaq, məscidlərdə onlara imkan yaradaq. Onu da nəzərə alın ki, zərərli viruslar xeyirli ələmətlərdən daha çox yayılır. İndi bütün bunlara əsasən, biz bu cərəyanlara göz yumsaq onlar tez bir zamanda ölkədə siyasi hakimiyyətə, dövlətə ciddi təhdidə çevriləcək. Siyasi hakimiyyət demokratik yolla formalaşır. Siyasi müxalifət də olmalıdır. Amma siyasi müxalifət adı altında din pərdəsi varsa və bu, zərərli verdiş kimi yayılırsa, buna qarşı durmaq lazımdır. Ona görə də başqa ölkələrdə baş verənləri göz önünə gətirərək vaxtında addım atırıq. Yəni o ölkələrdəki paralel yapı, yaxud əvvəl məscidlərdə, sonra siyasi səhnədə üstünlüyü ələ alan, yaxud silahlı birləşməyə çevrilən dini cərəyanları görərək özümüz də bunun qarşısını vaxtında almalıyıq".

# "Sovetski" camaatını aldadana ağır cəza verildi

## Nazim Səmədov "dələduzluğa cəhdə" görə 6 il müddətinə azadlıqdan məhrum olundu

**Aprelin 8-də Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluğa cəhddə təqsirləndirilən "DES Consulting" şirkətinin baş direktoru Nazim Səmədov, şirkətin prezidenti Asəf Hacıismayılov, proyekt meneceri Orxan Fərhadovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. Hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. İttihama görə, "DES Consulting" "Sovetski" sakinləri üçün Gəncə prospektində 810 mənzilli, 16 mərtəbəli doqquz binanını tikəcəyi adı ilə həmin mənzilləri hər kvmetri 375 manatdan sakinlərə satacaqlarını vəd edib.**

Yasamal, Səbayel rayonu və eləcə də Bakı Şəhər Prokurorluğunun əməkdaşları "DES Konsalt"inqin ofisində araşdırmalar aparıb. Şirkətin vətəndaşlarla müqavilələr bağladığı, lakin onlardan hər hansı məbləğdə pul almadıqları məlum olub. Faktla bağlı Cinayət Məcələsinin 29.178-ci (dələduzluğa cəhd) maddəsi ilə cinayət işi başlanıb və hər 3 şəxs istintaqa cəlb olunub.

**N.Səmədovun müdafiəçisi İradə Cavadova** məhkəmədəki çıxışında deyib ki, müvəkkilinə və digər təqsirləndirilən şəxslərə qarşı irəli sürülmüş ittihamlar öz təsdiqini tapmayıb. Müdafiəçi "Dələduzluq cinayətlərinə dair işlər üzrə məhkəmə təcrübəsi haqda" Ali Məhkəmə Plenumunun 31 yanvar 2002-ci il tarixli qərarını hakimlərin diqqətinə çatdırmaqla fikrini əsaslandırıb: "Həmin qərarda göstərilir ki, Cinayət Məcəlləsinin 178-ci maddəsində nəzərdə tutulmuş dələduzluq, yəni etibardan sui-istifadə və ya aldatma yolu ilə özgəsinin əmlakını ələ keçirmək və ya əmlak hüquqlarını əldə etmə o halda dələduzluq hesab edilir ki, təqsirləndirilən şəxsin niyyəti əmlakı ələ keçirərkən və ya əmlak hüquqları əldə edərkən hər hansı öhdəliyin yerinə yetirilməsinə deyil, özgənin əmlakını əvəzsiz və qanunsuz olaraq öz mülkiyyətinə keçirməsinə və yaxud əmlak hüquqları əldə etməsinə yönəlmiş olsun. Əgər Ali Məhkəmənin sözügedən qərarından çıxış etsək, təqsirləndirilən şəxslərin CM-in 28,178.3.2-ci maddəsi ilə təqsirləndirilmələri üçün hazırki cinayət işi üzrə təqsirləndirilən şəxslərin hərəkətləri özgənin əmlakını əvəzsiz və qanunsuz olaraq öz mülkiyyətinə keçirməsinə və yaxud əmlak hüquqları əldə edilməsi məqsədi ilə olmalıdır. Lakin hazırkı cinayət işinin materiallarında, həmçinin cinayət işi üzrə tərtib edilmiş ittiham aktından açıq-aşkar görünür ki, təqsirləndirilən şəxslərin əməlində Cinayət Məcəlləsinin 178-ci maddəsini əks etdirən cinayət tərkibi mövcud deyil".

**Müdafiəçi fikrini məhkəmənin nəzərinə təqsirləndirilən şəxslərin məqsədini çatdırmaqla davam etdirib:** "Bu adamların məqsədi prezidentin "Sahibkarlıq sahəsinə" verdiyi dəstəkdən yararlanmaqla əhali üçün münasib ev tikmək, "Sovetski" adlanan ərazinin sakinlərini sərfəli qiymətlərlə mənzillə təmin etmək olub. Bu məqsədlə təqsirləndirilən şəxslər hüquqi şəxs kimi "DES" MMC şirkətini təsis edib hüquqi şəxslərin dövlət qeydiyyatından keçmiş və ən əsası isə nizamnamə əsasında fəaliyyət göstəriblər. Təqsirləndirilənlər "Sovetski" adlanan ərazinin sakinləri üçün "DES" MMC şirkəti olaraq "Həyat" tikinti şirkətinin çıxardığı smeta üzrə hər kv.m üçün 380 manat olmaqla 16 mərtəbəli, 9 bloklu, 1, 2 və 3 otaqdan ibarət 810 mənzillik bina tikdirmək niyyətləri var idi. Bu məqsədlə mənzil əldə etmək istəyən şəxslərin tikintinin tikilməsi üçün hər kvadrat metri 380 manat məbləği kooperativin hesabına yatırılacaqdı ki, həmin ümumi puldan binanın tikintisini həyata keçirəcək "Həyat" tikinti şirkətinə tikinti üçün sərf edilən xərclər ödəniləcək, eyni zamanda gələcəkdə yığılacaq puldan 3 milyon manat torpaq sahəsinin alınmasına və yerdə qalan hər kvadrat metrdən təxminən 5 manat pul isə «DES» MMC-nin hesabına köçürüləcəkdi. Həmin puldan vergi və digər xərclər ödəməklə yerdə qalan məbləğ onların göstərəcəyi xidmətə yönəldilməsini planlaşdırmışdılar. İttiham aktından da açıq-aşkar görünür ki, təqsirləndirilən şəxslərin niyyət və məqsədləri cinayət əməlinin törədilməsi ilə bağlı olmayıb. Bu səbəbdən təqsirləndirilən şəxslərin əməli hər hansı bir cinayət tərkibini yaratmır".

Müdafiəçi məhkəmə qarşısına çıxarılan təqsirləndirilənlərə bəraət hökmü çıxarılmasını istəyib.

İ.Cavadovanın çıxışından sonra məhkəmə müşavirəyə yollanıb və oradan qayıdaraq hökmü elan edib. Hökmə əsasən N.Səmədov 6 il müddətinə azadlıqdan məhrum edilib. A.Hacı - İsmayılov və Orxan Fərhadova isə şərti azadlıq cəzası verilib.

❑ **E.MƏMMƏDƏLİYEV**






# "Nar" mobil operatoru yeni vizual görünüşünü mətbuat nümayəndələrinə təqdim etdi

## Jurnalistlər yeni logo və kreativ platforma haqqında məlumat aldı, mətbuat klubunda ənənəvi ziyafət verildi

6 aprel tarixində "JW Marriott Absheron Baku" otelində möhtəşəm bir bayram ab-havasında fəaliyyətini yeni vizual görünüşü ilə davam etdirdiyini ictimaiyyətə elan etmiş Nar, 7 Aprel tarixində mətbuat konfransını keçirdi. "Hilton Baku" otelində keçirilən mətbuat konfransında çıxış edən "Azerfon" MMC-nin baş icraçı direktoru Kent Maknili "Nar" brendinin və "Nar Bağı kreativ platformasının fəlsəfəsi haqqında jurnalistlərə ətraflı məlumat verərək, mobil operatorun keçdiyi inkişaf yolundan danışdı. O, "Nar" ticarət nişanının yeni mərhələyə addım atmağa hazır olduğunu xüsusi vurğulayaraq, brendin daha böyük hədəflər haqqında düşündüyünü bəyan etdi.

"Nar" operatorunun keçdiyi inkişaf yolu bir uğur hekayəsidir. Bu, komanda ruhunun hakim olduğu kollektivimizin hər bir fərdinin uğurudur, bizim ümumi qələbəmizdir. Fəaliyyət göstərdiyimiz illər ərzində biz daima şəbəkəmizi təkmilləşdirməyə, abunəçilərimizə münasibliyi və müxtəlifliyi ilə seçilən tarif planlarını və innovasiyaları təqdim etməyə, o cümlədən müştəri xidmətlərimizin səviyyəsini yüksəltməyə can atmışıq. Artıq yeni mərhələyə qədəm qoyuruq və daha yüksək nəticələrə doğru inamla irəliləyəcəyik", - deyə Kent Maknili çıxışında xüsusilə qeyd etdi.

Mətbuat konfransında iştirak edən Azərbaycan Respublikası Rabitə və yüksək texnologiyalar nazirinin müavini İltimas Məmmədov da mobil operatorun rəhbərliyini və bütün əməkdaşları təbrik etdi, "Nar" ticarət nişanının Azərbaycanın rabitə bazarında daha da çox yeniliklər gətirəcəyinə əminliyini bildirdi.

Mətbuat konfransının ardından jurnalistlər, bloggerlər və digər ictimaiyyət nümayəndələri «Nar» mətbuat klubundakı ənənəvi ziyafətə dəvət edildilər. Bu il Mətbuat klubunda keçirilən birinci görüş həmişə olduğu kimi istirahət formatında təşkil edildi. Qeyri-rəsmi şəraitdə və şən əhval-ruhiyyədə keçən görüşdə ilk dəfə olaraq lotereya oynanıldı və jurnalistlərə müxtəlif hədiyyələr təqdim edildi. İndiyədək keçirilən bütün görüşlərdə iştirak etmiş və hər zaman aktiv olmuş 5 jurnalistə "Nar" Mətbuat klubunun daimi üzvü" sertifikatı verildi.

# "Nar Mobile" öz yeni vizual görünüşünü təqdim edir

**6 aprel tarixində, "Nar Mobile" brendi kimi tanınan "Azerfon" MMC, öz yeni yeni vizual görünüşünü və brend platformasını ictimaiyyətə təqdim etdi. Bundan sonra, Azərbaycanın ən sürətlə inkişaf edən mobil operatoru "Nar" kimi tanınacaq.**

**Strateji brendinq və dizayn üzrə Böyün Britaniyanın tanınmış "Landor" agentliyi tərəfindən tərtib edilmiş yeni vizual görünüş, "Nar" brendinin ictimaiyyət arasında mədəni rezonans doğuracaq yeni və açıq xarakterini təqdim edib. Yeni loqotip, nar formasında və rəngində olmaqla, "ünsiyyət buludunun" daxilində sözdən ibarət olan "Nar" ticarət nişanını əks etdirir.**

**"Azerfon" şirkətinin baş direktoru Kent MakNili şirkətin yeni brendini şərh edərək, ona aydınlıq gətirib: "Biz daima müxtəlif tarif planlarımız və yeniliklərlə zəngin məhsullarımızı təqdim edərək müştərilərimizin ehtiyaclarının təmin olunmasına böyük diqqət yetiririk. Biz çalışırıq ki, insanlara öz sözümüzü sadə və əlçatan formada bildirək ki, onlar bizim çatdırmaq istədiyimiz fikirləri anlaya bilsinlər. Mən hesab edirəm ki, biz həmçinin reklamlarımız vasitəsilə insanların emosiyalarına toxunmağa çalışmışıq ki, reklamlarımız insanlar üçün maraqlı olaraq, onların zövqünü oxşasın. Bu gün biz növbəti addımı etməyə hazırıq. "Nar" sözünün qüdrətindən qaynaqlanan yeni "Nar Garden"(Nar Bağı) brend platformamızı təqdim etməyə son dərəcə şadıq. Belə ki, Nar meyvəsi Azərbaycan xalqının ənənələri, mədəniyyəti və mənəvi həyatında xüsusi yer tutur".**

**Şirkətin "Y&R Moscow" kreativ agentliyi tərəfindən hazırlanmış "Nar Bağı" brend platforması, yeni brendin fəlsəfəsini mükəmməl şəkildə əks etdirən bir aləmi - istənilən ağacın əkilib-becərilə, böyüdüb-başa çatdırıla və meyvələrindən bəhrələnmək mümkün olan bağçaya bənzəyən bir məkanı təqdim edir. Brend platforması insanları "Nar" brendinin "Gəlin birlikdə böyüyək!" giriş şüarı ilə salamlayaraq, hər kəsin üzünə açıq olan bir dünyanı təqdim edir.**

**Həmçinin, qeyd etmək lazımdır ki, "Nar" brendinin ruhunu təcəssüm edən mağazanın yeni konsepsiyası, "Shopworks" beynəlxalq riteyl dizayn və araşdırma konsaltinq agentliyi tərəfindən yaradılıb.**

**Daim inkişaf edən şəbəkə, xidmətlər üzrə çox əlverişli qiymətlər, həmçinin müştərilərə göstərilən yüksək səviyyəli xidmətlər ilə "Nar" brendi müştərilərin ehtiyaclarının təmin olunması strategiyasına sadiq qalmaqda davam edir.**

**"Nar"-ın yeni loqosunu bu linkdən endirə bilərsiniz:**
**https://www.nar.az/pages/default/pageName=logo/**


# Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com**
**doktor Vaiz Səmədov.**



# Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34



## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

## Elan

**Hüseynova Fəxriyyə Vaqif qızına məxsus evin çıxarışı (Bakı şəhəri Həzi Aslanov qəsəbəsi 5-ci Daiqəvi küçəsi mən.106) itdiyi üçün etibarsız sayılır.**

## Elan

**Jeleznovodsk şəhəri, stansiya Beştau, Qlinki-15 ünvanında ikimərtəbəli binanın 1-ci mərtəbəsində tam təmirli 2 otaqlı mənzil, kombi sistemi ilə təchiz olunub, avadanlıqları ilə birlikdə Bakı şəhərinin istənilən yerində mənzillə dəyişdirilir.**

**Əlaqə nömrəsi: +79283706928**

YENİ MÜSAVAT
N 74 (6102) 9 aprel 2015




# Teleməkan "palatka toyu"na çevrilib

## Xeyli insan yerli kanallara baxmaqdan imtina edib; tənqidçilər vəziyyətin son illər daha da pisləşdiyini deyirlər

**Son vaxtlar telekanallar ailədaxili və şəxsi münasibətlərdən bəhs edən, bayağı müğənnilərin iştirakı ilə təşkil olunan şou-verilişlərlə üstünlük verir. Bu verilişlərin aparıcıları da bayağı davranışlar sərgiləyir və faktiki olaraq teleməkan "palatka toyu" təsiri bağışlayır.**

Nöqsanlı hallar, aparıcıların qeyri-peşəkar davranışı cəmiyyət tərəfindən narazılıqla qarşılanır. Hətta bu tip verilişlərə görə Azərbaycan kanallarından imtina edən insanlara da rast gəlmək mümkündür. Artıq neçə illərdir efirin bu tip verilişlərlə doldurulmaması haqda müzakirələr aparılıb tənqidlər edilsə də müsbət bir nəticəsi olmayıb. Əksinə, efirdə bayağı mövzulu verilişlərin sayı çoxalıb. Bəs bunun səbəbi nədir?

**Jurnalist, teletənqidçi Qulu Məhərrəmli** bu gün televiziyaların əsas tamaşaçı kütləsinin evdar qadınlar və savadsız insanlar olduğunu dedi: "Azərbaycan teleməkanının ümumi səviyyəsi son 5-6 ildə tamamilə aşağı düşüb. Mövzu dairəsi tam məhdudlaşıb, peşəkarlıq həddindən artıq aşağıdır. Bəsit və məişət səviyyəsində düşüncə özünə geniş yer alıb. Hesab edirəm ki, televiziyalar elə mövzular var ki, onlara toxunmağa ya ehtiyat edir, ya da ki, qorxurlar. İctimai problemlər müzakirə edilmir. Mən siyasi məsələləri bir yana qoyuram. Millətin taleyi, tarixi, dili, mədəniyyəti, ictimai düşüncə, milli mənəvi problemlərlə bağlı diskussiyalar yoxdur. Maarifçi verilişlər demək olar ki, yoxdur. Televiziyaçılar bunu onunla əsaslandırırlar ki, həmin verilişlər reytinq gətirmir. Özəl televiziyaları haradasa anlamaq olar. Amma büdcədən maliyyə alan kanallarımız var. İş orasındadır ki, həmin kanallar da bu cür müzakirələr təşkil etmirlər. Onlar məişət zəminində olan bəsit verilişlərə alternativ yarada bilmirlər. Nəticədə televiziyalar tamaşaçı auditoriyasının xeyli hissəsini itirir. Bizim televiziyaların bu dəqiqə ən aktiv tamaşaçı auditoriyası evdar qadınlar və təhsilsiz insanlardır. Onlar aşağı səviyyəli, bayağı verilişlərə hind filmi kimi baxır və bundan zövq alırlar. Bu çox ciddi bir məsələdir ki, televiziya ictimai missiyasını bu gün yerinə yetirə bilmir. Bu da peşəkarlığın aşağı səviyyədə olması ilə bağlıdır. Bu tip verilişlər xarici ölkələrdəki kanallarda da var. Amma onların sayı Türkiyədəki ümumi ictimai düşüncəni gündəmə gətirən kanallarla müqayisədə çox azdır və bu verilişlərin tamaşaçıları da yüksək deyil. Bizdə isə kanalların əksəriyyəti bu cür şou verir. Kanalın öz siyasətini bunun üzərində qurması yolverilməzdir. Biz elə geosiyasi coğrafiyada yaşayırıq ki, bizim tamaşaçımız şüurlu, düşüncəli olmalı, dünyada gedən prosesləri bilməli, xəbərdar olmalıdır. Ona görə də hesab edirəm ki, televiziyalar bu baxımdan öz missiyasını yerinə yetirə bilmir".







**Televiziyalarda artıq xəbərlərin də şoulaşdırıldığını deyən tənqidçi xəbər aparıcısının ciddiliyinin qorunmasının vacib şərt olduğunu bildirdi:** "İnfo teymend" deyilən bir tərz var. Yəni xəbərin müəyyən dərəcədə şoulaşdırılması. Bəlli bir dərəcədə buna yol vermək mümkündür. Amma bütövlükdə xəbəri bunun üzərində qurmaq olmaz. Geyimlə bağlı isə dünyada qəbul olunmuş bəlli bir standart var ki, xəbər aparıcısının geyimi, davranışı və danışığı ciddi olmalıdır. Xəbər aparıcısı xəbər proqramının siması hesab edildiyi üçün onun ciddi fonu mütləq gözlənilməlidir. Bəzən xəbər aparıcıları sərbəst olmağa, xəbərə jest və mimikaları ilə münasibət bildirərək danışmağa çalışır. Amma bu çox şit çıxır. Xəbərə maraq yaratmağın ən yaxşı yolu yaxşı və tamaşaçı üçün vacib olan xəbərlər verməkdir. İndi də televiziya tamaşaçısı çox həssasdır. O, süniliyi dərhal sezir. Hər şey səviyyə və peşəkarlıqla bağlıdır".

**Televiziya mütəxəssisi Zeynal Məmmədli isə dedi:** "Xəbər aparıcısının xəbərin özündən, olaylardan diqqətini yayındıracaq hər hansı bir özəlliyi qeyri-peşəkar davranışdır. Xəbər aparıcısı ilə şou proqram aparıcısı fərqlənməlidir. Televiziyada gedən proseslər əslində gözlənilən bir olaydır. Yəni televiziya bütövlükdə ucuz formada əyləncələşir. Əyləncənin bahalı, ağıllı növləri də var ki, ondan vasitə kimi istifadə edilir. Amma son məqsəd məlumatlandırmaq, heyrətləndirmək, xəbər verməkdir. Amma Azərbaycanda təəssüf ki, əyləndirmək yavaş-yavaş bizim xəbər proqramlarının da vasitəsinə yox, məqsədinə çevrilib".

**Televiziyada "palatka" tipində, ailə daxili, şəxsi münasibətlərə həsr olunan verilişlərə gəlincə, mütəxəssis bunun cəmiyyətlə bağlı olan bir məsələ olduğunu dedi:** "Bütün bunlar söz və mətbuat azadlığının, cəmiyyətin səviyyəsi ilə bağlı olan məsələlərdir. Televiziyaçı düşünür ki, necə xəbərlər təqdim edim ki, heç kimlə münasibətim korlanmasın, cəzalanmayım və sairə. Burada önəmli bir detal da tamaşaçılardır. Tamaşaçılardan niyə Milli Teleradio Şurasına kütləvi yazılı, şifahi müraciətlər gəlmir? Bu qurum bundan ötrüdür ki, tamaşaçı şikayətlərinə baxsın. Biz nəticədən danışırıq, amma daha çox səbəbləri müzakirə etməliyik".

**Keçmiş telejurnalist İlhamiyyə Rza bir sıra verilişlərin insanlarda qıcıq yaratdığını dedi:** "İnsanın təbiətində hər zaman başqaların həyatına maraq olub. İnsanların bu marağını nəzərə alaraq reytinq toplamaq üçün ailədaxili və şəxsi münasibətlərə həsr olunan verilişlər, şoular yaradırlar. Onların əksəriyyəti xeyriyyəçi və mərhəmət şouları kimi təqdim olunur. Verilişin gedişatında da görürsən ki, kimlərinsə hansısa problemləri həll olunur. Bu da fraqmental həll olunur. Çünki eyni problemdən əziyyət çəkən digər insanlar kənardan baxa-baxa qalır. Hesab edirəm ki, cəmiyyətdə problemləri verilişlər həll etməməlidir. Müzakirəyə çıxarılan məsələlərin əksəriyyəti hüquqi problemlərdir. Onların da hamısı bəlli bir dövlət müəssisələrinin işləməməsi, öz işini kifayət qədər yaxşı yerinə yetirməməsi ucbatındandır. Təbii ki, verilişin də əsas məqsədi burada şou etməkdir. Bu tip verilişlərə jurnalist ekspertləri də toplayır. Amma ekspertlərin özləri də insanların taleyinə çox naşı yanaşır, onları qınayırlar. Bu tip verilişlər əksəriyyət tamaşaçı də qıcıq yaradır. Bunu ətrafımda olan insanlardan bilirəm. Bu məsələni müzakirə edəndə əsas arqument kimi bu tip verilişlərin reytinq qazandığını göstərirlər. Mənim ətrafımda kifayət qədər insanlar var ki, onlar bu tip verilişləri bəyənmir və baxmır. Bu tip verilişlərin səmimiyyətinə inanmıram. Onlar çox adama kömək edirlər. Amma televiziyanın məqsədi bu deyil. Aparıcılara gəlincə isə indi həvəskar aparıcılar çoxdur. Xəbər aparıcısı öz saçı, makiyajı və ya gözəlliyi ilə diqqəti xəbərdən yayındırmamalıdır. Bu xəbər aparıcılığının əlifbasıdır. Sovet dönəmində hansı diktorun xəbəri oxumağından asılı olaraq biz bilirdik ki, bu xəbərə inanmaq olar ya yox. Çünki bilirdik ki, filan diktor ömründə yalan deməz. O hökumət, dövlətlə üz-üzə gələr, başı ağrıyar, işdən qovular amma yalan xəbəri deməz. Amma indi kukla kimi çıxıb xəbəri oxuyurlar. Bizdə xəbərlər də düzgün olmur. Aparıcının özü verdiyi xəbərin dürüstlüyünə inanmır, bilir ki, yalan xəbərdir. Məndən inciməsinlər. Amma hər şeyin bir tərzi, əlifbası var".

❑ **Günel MANAFLI**



# "Bələdiyyə sədrinin əlindən özümü yandırmaq həddindəyəm"

## Lənkəran sakini prezidentdən kömək istəyir; "30 ildir istifadəmizdə olan torpaq sahəsini kənd bələdiyyəsi əlimizdən alıb başqa adama satır"



**Lənkərən şəhər Digah kənd sakini Məryəm Həşimova prezident İlham Əliyevə, birinci ledi Mehriban Əliyevaya, daxili işlər naziri Ramil Usubova, baş prokuror Zakir Qaralova, ekologiya və təbii sərvətlər naziri Hüseyn Bağırova müraciət ünvanlayaraq kömək istəyib. O, müraciətinin mətbuatda da dərc edilməsi üçün redaksiyamızdan kömək istəyib.**

M.Həşimova bildirir ki, Digah kəndinin də tabe olduğu Şiləvar bələdiyyəsinin sədri Malik Fərzullayev onun və ailəsinin 30 ildən çoxdur istifadəsində olan torpaq sahəsini mənimsəyərək başqa adama satmaq istəyir: "Mənim həyat yoldaşım 12 il öncə rəhmətə gedib. Ondan sonra 11 sotluq həyətimizdə əkib-biçib balalarımı böyütmüşəm. Həmin 11 sot torpaq sahəsinin 6 sotu hələ ərim sağ olarkən onun adına rəsmiləşdirilmişdi. Qalan 5 sot torpağın isə 2013-cü ilin avqust ayında bələdiyyəyə rəsmi müraciət edərək, oğlum Həşimov Vüsalın adına keçirilməsini xahiş etdim. Həmin ərazini biz 30 ilə yaxındır əkib biçirik, həmin sahədə yaşı 100 ilədək olan ağaclar vardı. Bələdiyyə sədri məndən buna görə 5 min manat pul istədi. Bildirdim ki, kasıb adamam, maksimum 500 manat ödəyə bilərəm, qanuni rüsum bundan artıq eləmir. Dedi, yox. Bundan bir qədər sonra bizə bəlli oldu ki, bələdiyyə sədri bizim torpaq sahəmizi əlimizdən alıb qonşumuz Kamran Əzimova satmaq istəyir. Bunun üçün bələdiyyə sədri özünün və icra hakimiyyətində işləyən qaynı İlkin Rəhimovun imkanlarından istifadə edərək, həmin torpaq sahəsinin bizim istifadəmizdən alınaraq bələdiyyənin sərəncamına verilməsi üçün Lənkəran Şəhər Məhkəməsində qərar çıxartdırdı. Sonra da qonşu Kamran Əzimova guya yol vermək adı ilə torpaq sahəmizin hasarını uçurtmaq və yaşıllığı məhv etmək istədi. Biz vəkil tutduq, Apelyasiya Məhkəməsinə, Ali Məhkəməyə şikayət etdik. Mən savadsız adamam, vəkil də məhkəmədə qarşı tərəflə işbirliyinə getdi, nəhayət bizə qarşı çıxarılan qərar qüvvəsində qaldı. Məhkəmələr, məmurlar məni - kimsəsiz adamı əşitmədi. Əksinə, saxta bir sənəd yazıblar ki, guya Kamran Əzimov həmin torpaq sahəsinin əvəzində bizə başqa yerdə torpaq alıb verəcəyinə dair öhdəlik götürüb. Əvvələ, bu yalandır, ikincisi də mən 30 illik torpağımı niyə başqa boş sahə ilə əvəzləməliyəm, oğlum yanımdan köçüb gedib başqa yerdə ev tikməlidir? Əslində Malik Fərzullayev bələdiyyə sədri işlədiyi 15 il ərzində - bələdiyyə yaranan gündən indiyədək saxtakarlıqla o seçilib - kənddə bir qarış torpaq sahəsi qoymayıb. Hətta kəndimizdəki məşhur çay tarlasını gecə ilə yandıraraq məhv etdi və sonra torpağı satdı. İndi də camaatın həyətyanı sahələrini əlindən alıb satmaq istəyir... 2014-cü ilin sonlarından başlayaraq bələdiyyə sədri dəfələrlə torpaq sahəmizin hasarını dağıtmağa cəhd etdi. Hər dəfə özüm və balalarım traktorun qarşısına çıxaraq özümüzü fəda edərək torpağımızı qorumuşuq. Nəhayət, 2015-ci il martın 10-da bələdiyyə sədri biz evdə olmadığımız müddətdə traktor gətirərək hasarımızı uçurub, həyətdəki yaşıllığı məhv edib. Orada 50-dən çox yaşı 10 illərlə olan ağacları məhv edib. Bu hadisədən sonra insult keçirmişəm. Son həddəyəm, bələdiyyə sədri məni özümü yandırmaq həddinə çatdırıb. Mən cənab prezidentdən xahiş edirəm, heç bir qanun tanımayan, özünü az qala padşah kimi aparan bələdiyyə sədrinin qanunsuzluqlarına son qoyması üçün göstəriş verməsini acizanə şəkildə xahiş edirəm. Cənab prezident, mənim son ümidim sizədir, xahiş edirəm səsimə səs verin".





❑ **T.ƏHMƏDLİ**

YENİ MÜSAVAT

Son səhifə

N 74 (6102) 9 aprel 2015

# Whatsapp-dan daha bir yenilik

Facebooka Whatsapp düyməsi gəlir. Facebook-un Whatsapp-ı 22 milyard dollara satın alması ilə birlikdə ən böyük mesajlaşma xidməti artıq sosial şəbəkənin nəzdinə daxil olub. Facebookun yenilənməsi gözlənilən v31.0.0.7.13 versiyası ilə artıq Whatsapp ilə birbaşa bağlantı əldə ediləcək. Yəni sosial şəbəkəyə daxil olanlar həm də eyni anda Whatsapp mesajları göndərə biləcəklər. Paylaş düyməsinin yanında "WhatsApp-a göndər" seçimi yerləşdiriləcək. Bu hələlik beta versiyalarda yer alıb. Bir müddət sonra sistem tam şəkildə İOS və Android platformalarındakı facebook tətbiqinin yenilənməsi ilə işə düşəcək.




Qeyd edək ki, facebook Whatsapp-ı satın aldıqdan sonra bir neçə yenilik edib. Məsələn, göndərilən mesajları gördükdə qoşa göy xətt görünür, bundan başqa artıq mesajlaşma xidmətinə zəng funksiyası da daxil edilib.



## 17 sevgilisi eyni vaxtda gəldi

Çin mediasında yer alan xəbərlərə görə, çinli gəncin başına gələn avtomobil qəzası onun bütün sirlərini ortaya çıxarıb. Sevgililərini eyni vaxtda idarə edən oğlanın yalanları həkimin onun telefonundakı nömrələrə zəng eləməsindən sonra ortaya çıxıb. Yuanın vəziyyətini öyrənməyə gələn sevgililəri bir-birilərini gördükləri zaman şoka düşüblər. Onlardan biri Yuandan uşağı olduğunu belə deyib. Yuanla bir ildir birlikdə olduğu sevgilisi Şiao Li adlı qadın onun xəstəxanada olduğu xəbərini aldığı zaman çox qorxub: "Qəza keçirdiyini öyrəndiyim zaman çox qorxdum. Xəstəxanada ağlayırdım. Lakin onun üçün gözəl qadınların gəldiyini gördüyüm zaman göz yaşlarım durdu. O, digər qadınlardan maddi dəstək alır. Hətta biri ilə 9 ildir birlikdə yaşayır. Həmin qadınlardan biri mənə evlənməyi planlaşdırdıqlarını belə dedi". Yuanın sevgililəri facebookda bir qrup quraraq onun bütün yalanlarını ifşa etməyi planlaşdırırlar. Bu hadisə sosial mediada hər kəsin diqqətini cəlb edib. Kimiləri Yuanı tənqid edib, kimi heyran olduğunu deyib. Kimiləri isə qadınları günahlandırıb.

# Milyarder olmağın 3 sirri

**Amerikanın nüfuzlu "Forbes" jurnalı dünyanın bütün varlı insanlarını birləşdirən üç ən vacib amili açıqlayıb. Müvəffəqiyyət əldə etməyin sirləri nəşr tərəfindən onlarla milyarder arasında aparılan sorğu əsasında formalaşdırılıb:**

1. "Həqiqətən varlı insanların birinci sirri onların müvəffəqiyyətsizliyə uğramaqdan qorxmamasıdır" deyə, nüfuzlu Amerika jurnalı bildirir. Nəşrin məlumatına görə, əsas olan edilən səhvlər deyil, onlardan düzgün nəticələr çıxartmaqdır. Hər bir milyarder həyatında ən azı bir dəfə də olsun öz biznesi üçün doğru olmayan qərarlar qəbul edib. Lakin bu halda onlar bu uğursuzluqlardan mütləq dərs çıxarıblar.

2. "Həqiqətən varlı olan insanların ikinci sirri isə onların yeni gəlir mənbələri ilə bağlı problemlərə kreativ yanaşmasıdır" deyə, "Forbes" hesab edir. Dünya biznesinin "akula"ları heç vaxt nail olduqları ilə kifayətlənmir, əldə etdikləri nəticələrə tənqidlə yanaşır və həmişə daha artığına nail olmağa çalışırlar.

3. Dünya milyarderlərinin üçüncü sirri kimi jurnal uğurlu həyat yoldaşı seçimi ilə əlaqələndirir. "Xoşbəxt evlilik heç də həmişə zəngin varis axtarışından başlamır. Səni dəstəkləyən və daha vacibi sənin uğur əldə edəcəyinə inanan həyat yoldaşının olması əhəmiyyətlidir" - deyə, məşhur jurnal vurğulayıb.





## Ən yaşlı adam oldu, 6 saat sonra isə öldü...

Amerikalı 116 yaşlı Gertrude Veaver dünyanın ən yaşlı insanı olduqdan 6 saat sonra həyatını itirib. Arkanzas ştatının Camden şəhərində yaşayan Silver Oaks adlı yaşlılar evində qalan Veaverin aprelin 7-də axşam öldüyü açıqlanıb. Camdenin bələdiyyə başçısı Marie Trisollini "çox xoş bir xanımı itirdik. 116 yaşı olsa da, həyatı sevirdi və nəşəli idi. Ötən həftə ziyarət etdiyim zaman uzun yaşamağının sirrini soruşmuşdum. O da mənə "bol miqdarda nəmləndirici kremdən istifadə et, incə ol, qonşunu sev, yeməyini özün bişir, hazır yeməklər yemə" demişdi". Trissolini Veaverin 4 iyulda 117 yaşını qeyd etməyə hazırlaşdığını deyib. Veaver 117 yaşlı Misao Okava 1 apreldə həyatını itirdikdən sonra dünyanın ən yaşlı adamı kimi tanınırdı.

## Qoroskop




**QOÇ** - Bu gün ümumi əhvalınızda xoş məqamlar çox olacaq. Əlxüsus da saat 15-dən sonra bütün cəhdləriniz baş tutacaq. Əsas vaxtınızı isə ailə-sevgi münasibətlərinə həsr edin.

**BUĞA** - Şəxsi büdcənizi artırmaq üçün kifayət qədər şansınız olacaq. Odur ki, bu istiqamətdə bütün gücünüzü səfərbər edin. Nahardan sonra ağır fiziki işlərdən, nabələd adamlarla danışıqdan yayının.

**ƏKİZLƏR** - Təzə xəbərlər yolunuzu gözləyir. Ola bilsin ki, uzaqdan sevindirici xəbər alasınız. Hər halda, ovqatınız xoş olacaq. Nəqliyyat vasitələrində isə maksimum ehtiyatlı olmalısınız.

**XƏRÇƏNG** - İkitərəfli əməkdaşlıq üçün düşərli vaxtdır. Buna baxmayaraq, müqavilə bağladığınız adamlarla ehtiyatlı davranın. Qlobal məsələlərin həllində təşəbbüskarlığı da əldən verməyin.

**ŞİR** - Ulduzların düzümü sağlıq durumunuzda problem olduğunu göstərməkdədir. Bu səbəbdən də qida və yuxu rejiminizə, həmçinin daxili orqanlarınıza ciddi fikir verməlisiniz.

**QIZ** - Bütün göstəricilər səfərlərə çıxmaqdan məmnunluq duyacağınızı xəbər verir. Elə isə vaxtı fövtə verməyin. Bu gün fəaliyyətlə bağlı işlər üçün o qədər də uğurlu vaxt deyil.

**TƏRƏZİ** - Kifayət qədər uğurlu gündür. Qarşıya qoyduğunuz planların böyük əksəriyyətini reallaşdıra biləcəksiniz. Maraqlı görüş və tanışlıqlar da mümkündür. Uzaq yola çıxmayın.

**ƏQRƏB** - Əgər sağlıq durumunuzu, xüsusən də daxili orqanlarınızı nəzarətdə saxlaya bilsəniz, gün ərzində digər xoşagəlməzliklə rastlaşmayacaqsınız. Maddi mövqeyinizi möhkəmləndirmək üçün hərəkətə keçin.

**OXATAN** - Yaxşı olar ki, bu təqvimdə bütün işlərinizi təxirə salasınız. Çünki fiziki yorğunluğunuzun ifratçılığı aktivliyinizə mane olacaq. Vaxt tapıb yaxın dostlarınıza baş çəkin, təbiət qoynuna çıxın.

**OĞLAQ** - Saat 14-ə qədər neytarllıq nümayiş etdirməyiniz məsləhətdir. Sizə aidiyyəti olmayan məsələlərə müdaxilə etməyin. Sonrakı müddətdə isə perspektivli sövdələşmələr gözlənilir.

**SUTÖKƏN** - İntiqam hissi, gərgin situasiyalara şərh vermək, münasibəti korlanmış iki nəfər arasında vasitəçilik etmək sizə zərər yetirə bilər. Buna görə də yalnız özünüzə aid işlərlə məşğul olun.

**BALIQLAR** - Proseslərin ləng inkişafını nəzərə alıb istirahətə daha çox üstünlük verin. Əgər qonaqlığa dəvət alsanız, məmnuniyyətlə qəbul edin. Ümumi zəifliyinizə görə, qidanıza da yaxşıca fikir verməlisiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 1 dəqiqədə enerji yığan batareya



Amerikanın Stanford Universitetində araşdırma aparan alimlər telefon və kompüterlərin 1 dəqiqədə enerji yığmasına kömək edən batareya hazırlayıblar. Yeni hazırlanan alüminium batareyanın hazırda istifadə edilən ion batareyalardan daha təhlükəsiz olduğu deyilir.

Professor Hongjie Dainin sözlərinə görə, yeni batareyalar 2 volt enerji istehsal edə bilirlər. Digər batareyalar isə yalnız 1,5 voltluq enerji istehsal edə bilir. Yeni hazırlanan batareya 7 min 500 dəfə enerji yığdıqdan sonra da öz gücünü itirmir.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300